Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
Azərbaycan Dövlət Pedaqoji Universiteti

Reyhan Hacızadə, Firudin Rzayev

TEXNOLOGİYA DƏRSLƏRİNDƏ DİDAKTİK MATERİALLARDAN İSTİFADƏ

(IV SİNİF)

(metodik vəsait)

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Elmi-Metodiki Şurasının 13 may 2026-cı il tarixli iclasının qərarına əsasən çap edilir (2 nömrəli protokol).

Bakı-2026

Tərtibçilər: **Hacızadə Reyhan Tapdıq qızı**
ADPU-nun "İbtidai təhsilin pedaqogikası" kafedrasının baş müəllimi, pedaqogika üzrə fəlsəfə doktoru
Rzayev Firudin Bahadur oğlu
ADPU-nun Cəlilabad filialının "Təbiət və sosial elmlər, onların tədrisi texnologiyası" kafedrasının baş müəllimi

Elmi redaktor: **Rüstəmov Fərrux Abbas oğlu**
ADPU-nun "İbtidai təhsilin pedaqogikası" kafedrasının müdiri, pedaqogika üzrə elmlər doktoru, professor, əməkdar elm xadimi

Rəyçilər: **Axundov Natiq Lyutfiq oğlu**
ARTİ-nun "Təlim nəzəriyyəsi və metodikası" şöbəsinin aparıcı elmi işçisi, pedaqogika üzrə fəlsəfə doktoru, dosent
Talıbova Xalidə Ağa Dadaş qızı
ADPU-nun Cəlilabad filialının " Dil-ədəbiyyat və pedaqoji elmlər, onların tədrisi texnologiyası kafedrası"nın baş müəllimi, pedaqogika üzrə fəlsəfə doktoru.

Metodik vəsait əsasən ibtidai sinif müəllimləri üçün nəzərdə tutulmuşdur. Bununla yanaşı vəsaitdən "İbtidai sinif müəllimliyi" ixtisası üzrə bakalavriat səviyyəsində təhsil alan tələbələr, o cümlədən gənc tədqiqatçılar da istifadə edə bilərlər. Vəsait haqqında rəy və təkliflərini bildirənlərə əvvəlcədən təşəkkürümüzü bildirirk.

İSBN 978-9952-37-752-1

© **2026**

Giriş

Texnologiya fənninə aid metodik vəsaitlərin azlığı istər ibtidai sinif müəllimləri, istərsə də tələbələr üçün, o cümlədən pedaqoji təcrübədə müəyyən çətinliklər yaradır. Bu çətinliyi aradan qaldırmaq və müəllimlərə (tələbələrə) metodiki kömək etmək məqsədi ilə 4-cü sinifdə Texnologiya fənninin tədrisinə aid didaktik materialın hazırlanması hazırkı zamanda zəruridir. "Didaktika" anlayışı pedaqoqika elminə XVII əsrdə gətirilmişdir. Bu termini ilk dəfə alman pedaqoqu Volfqanq Ratke (1571-1635) və çex pedaqoqu Yan Amos Komenski (1592-1670) işlətmişlər. Alman aliminin fikrinə görə isə didaktika elmləri, dilləri və incəsənəti öyrənmək məharətidir. Komenskiyə görə didaktika hər şeyi hamıya öyrətmək sənətidir. Sonralar bu haqda çoxlu nəzəriyyələr və təkliflər irəli sürülməsinə baxmayaraq, sübut olunmuşdur ki, didaktika təhsil və təlim haqqında nəzəriyyədir.

Texnologya fənninə aid metodik vəsaitin hazırlanmasında məqsədimiz gələcəyin müəllimləri olacaq "İbtidai sinif müəllimliyi "ixtisası alan tələbələrin fənnin dərindən mənimsənilməsi, həmçinin

icmal tərtib- etmə qabiliyyətini inkişaf etdirməkdir. Eyni zamanda hər bir tələbənin və ibtidai sinif müəllimlərinin Texnologiya fənninə aid məqsəd, vəzifələr, tədrisdə istifadə olunan metodlar və əldə edəcəyi təlim nəticələrini bilməsi çox önəmlidir. Texnologiya fənninin təsviri, məqsədi, metodları və tədris prosesində nail olacağı təlim nəticələri haqqında nəzəri məlumatlara yiyələnməsində müəllim və ya tələbə daima axtarışda olmalıdır.

Bu vəsaiti hazırlayarkən Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin təsdiq etdiyi dərslik və metodik vəsaitdən zərurət olduqca istifadə edilmişdir.

Texnologya inteqrativ (vəhdət əmələ gətirmək) təhsil sahəsi olub, digər fənlərdən bilikləri sintez (birləşdirmə, əlaqələndirmə və qurma mənasını bildirir) edən və onların müxtəlif sahələrə tətbiqini göstərən insani fəaliyyətdir. Bu fənnin tədrisi üçün məktəbin real maddi-texniki bazasına uyğun sinif müəlliminə lazımi şərait yaradılmalıdır. Müəllim (tələbə) əmək hazırlığı üzrə bilik, bacarıq və vərdişlərə yiyələnməlidir. Eyni zamanda müəllim bilməlidir ki, əmək insanın məqsədəyönlü fiziki və əqli fəaliyyəti olub, insanların tələbatına, ehtiyaclarına,

maddi rifahına xidmət etməlidir. Bəşər tarixində insan yarandığı gündən indiyə kimi özü ilə təbiət arasında həmişə münasibətini tənzimləməyə çalışmışdır. O, əmək prosesində həm özünü və həm də təbiəti dəyişməyə çalışmışdır. İnsan fəaliyyətində əmək alətləri yaratmış, ondan istifadəni daima təkmilləşdirməyə çalışmışdır. Sadə əmək alətlərindən müasir texnologiyalara qədər uzun bir inkişaf yolu keçmişdir.

İbtidai insanları öz işlərini asanlaşdıran əmək vasitələrinin yaradılmasına səylə çalışmışdır. Əmək insanı dünyaya bağlayan ilkin faktordur. Əmək prosesi təlim hazırlığı ilə şərtlənir. Əmək hazırlığı prosesləri məktəbəqədər təhsil müəssisələrindən başlayaraq təkamül yolu ilə uşaqların yaşına uyğun inkişaf etmişdir. Ən əvvəl uşaqlarda əməyə məhəbbət yaratmaqla bu işin bünövrəsinin qoyulması vacibdir. Uşaqlar nəzəri biliklərə yiyələnməli və onu praktikada tətbiq etməyi mütləq bacarmalıdırlar

"Texnologya" fənninin əsas məqsədi, müəllim və tələbələrin planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçiddən sonrakı dövrdə uşaqları müstəqil fəaliyyətə hazırlamaq və fəaliyyətinin təşkilinə yönəltməkdən ibarətdir. İbtidai təhsil pilləsində şa-

girdlərdə müstəqil çalışmaq, özünəxidmət, birgə-fəaliyyət vərdişləri, qənaətçilik və s. xüsusiyyətlərin aşılanmasında müəllimin rolu böyükdür.

"Texnologya" fənninin zəruri olan üsullarına (metodlarına), yəni BİBÖ, beyin həmləsi, rollu oyun, Venn diaqramı, akvarium, mühazirə, müzakirə və s. daxildir. Bunların mövzulara uyğun seçilməsində müəllim tam sərbəstdir. Bu üsullar interaktiv xarakter daşımaqla tədris edilən mövzulara uyğun seçilməsi fənn müəlliminin ixtiyarındadır. Məqsəd və məzmundan asılı olaraq tədris prosesində istifadə müəllimdən asılıdır. Vəsaitlərdə verilən metodiki üsullar dərsin hər mərhələsində tətbiq olunur. Müəllim tədrisdə vacib olan bu üsulların mənasını və vəzifələrini mütləq bilməlidir.

BİBÖ-mənası, B-bilirəm, İ-istəyirəm biləm, Ö-öyrəndim deməkdir. Bu metod səmərəli olsa da, həmişə istifadə olunmur. BİBÖ imkan verir ki, keçmiş bilikləri dərinləşdirməklə yeni biliklərləri əlaqələndirmək mümkün olsun.

Beyin həmləsi- bu üsula əqli hücum da deyilir. Öyrənənlərdə yeni mövzuya maraq oyatmaq məqsədi ilə aparılan suallara cavab almaqdan ibarətdir.

Rollu oyun - bu üsulda hər hansı problemə müxtəlif nöqteyi-nəzərdən yanaşmağı tələb edir. Şagirdlər öyrənəcəkləri hadisələrin canlı iştirakçısı olurlar. Muəllimin vəzifəsi oyunun ssenarisini, oyunda iştirak edəcək obrazları və onların ifasına aid mətnləri tərtib edir. Aparıcıları və iştirakçıları da müəyyənləşdirir. Hazırlaşmaq üçün onlara vaxt verir. Sonda qoyulmuş problemlə bağlı müzakirəni təşkil edir.

Venn diaqramı - bu üsulda şagirdlər mətndəki oxşar və fərqli cəhətləri müəyyənləşdirməyi öyrənirlər. Bir-biri ilə kəsişən iki dairənin ortasına ortaq sözlər, kənar dairələrdə isə fərqli xüsusiyyətlər qeyd olunur. Müqayisədən sonra fikirlər ümumiləşdirilir.

Akvarium - bu üsulun məqsədi diskussiya vərdişlərini inkişaf etdirməkdir. Diskussiya zamanı müxtəlif fikir ayrılığı ola bilər. Məqsəd şagirdlərin düşündüklərini ifadə etmək bacarıqlarını inkişaf etdirməkdir.

Mühazirə məlumatın şagirdə ötürülməsi üsuludur. Mühazirə ilə bağlı aşağıdakıları nəzərə almaq lazımdır: mühazirənin məqsəd və vəzifələri dəqiq müəyyənləşdirilməlidir; planı tərtib edərək şagirdlərə paylamaq; əyani və texniki vasitələrdən istifadə

etmək; müəllim müzakirəni sual-cavabla tənzimləməlidir.

Müzakirə - bu üsul mövzu ətrafında ideya, məlumat, təəssürat, təhlil və təkliflərin qarşılıqlı mübadiləsidir. Onun əsas vəzifəsi problemin həlli üçün düzgün qarar verməyə şərait yaratmaqdan ibarətdir.

İbtidai sinif müəllimi və ya tələbələr Texnologiya fənnini tədris edərkən pedaqoji təcrübə zamanı aşağıda qeyd olunanları mütləq bilməlidir: əmək alətlərini, müxtəlif materialların xüsusiyyətlərini bilməli və tədris prosesinə tətbiq etməyi bacarmalıdır; qrafik savad elementlərinin köməyi ilə texniki şəkil, eskiz, sxemləri çəkib və mahiyyətini izah etməyi bacarmalıdır; texnika elementləri, modelləşdirmə və maketləşdirmə ilə bağlı praktiki işləri icra etməyi bacarmalıdırlar; istehsal, emal texnologiyaları, kulinariya, məişət, özünəxidmət və kənd təsərrüfatı sahələrini fərqləndirməyi və müqayisə etməyi bacarmalıdır; ayrı-ayrı sahələr üzrə təlim materiallarının öyrənilməsi üçün metod və vasitələri seçməklə, tətbiq etməyi bacarmalıdırlar. Fənn üzrə təlim nailiyyətlərini qiymətləndirmək üçün müvafiq meyarları seçməyi və tətbiq etməyi bacarmalıdırlar.

Qrup işinin qiymətləndirilməsində müəllim dərsin məqsədindən asılı olaraq cədvəldəkilərə istənilən meyarları əlavə edə bilər.

	Meyar	I qrup	II qrup	III qrup	IV qrup
1	Tapşırığın tam və düzgün icrası				
2	İşi vaxtında icraetmə				
3	Əməkdaşlıqetmə				
4	Təqdimetmə				
5	Ümumi balların miqdarı				

Meyarlar şagirdlərin fərdi keyfiyyətinə uyğun gəlməlidir. Eyni zamanda özünüqiymətləndirməyə imkan yaradılmalıdır. Verilmiş ümumi balın obyektiv, hər kəsin zəhmətinə görə bölüşdürülməsinə müəllim şərait yaratmalıdır. Yaxşı olar ki, müəllim özünü-qiymətləndirmə cədvəli tərtib edərək, qrupların rəyini öyrənsin.

Müəllim və ya təcrübəçi tələbələrin böyük əksəriyyəti icmalların tərtibində müəyyən çətinliklər çəkirlər. Məzmun standartlarının reallaşma cədvəlində hər bir mövzuya uyğun hazır şəkildə alt standartlar verilmişdir. Müəllim mövzuların tədrisində yerləşdiyi məktəbin mövcud maddi-texniki bazasının imkanlarını nəzərə almalıdır.

İcmalların tərtibində müəllim fənn kurikulumunun məzmununa aid aşağı-dakıları bilməlidir: fənn üzrə ümumi nəticələr, məzmun xətti, əsas standart, alt standart.

Məzmun xətləri siniflər üzrə dəyişməzdir və bir rəqəmlə ifadə olunur.

Əsas standart əsasən dəyişməzdir və iki rəqəmlə ifadə olunur. Milli və dünya təcrübəsinin öyrənilməsi, onların müqayisəsi, təhlil edilməsi nəticəsində "Texnologiya" fənninin aşağıda qeyd olunan məzmun xətləri müəyyənləşdirilmişdir ki, bu da şagirdlərin əldə edəcəyi bilik və bacarıqları daha aydın təsvir etmək, onu sistemləşdirmək məqsədinə xidmət edir:

1.Emal texnologiyaları;

2.Texnika elementləri;

3. Məişət mədəniyyəti;

4.Qrafika.

Bütün fənlərdə olduğu kimi, texnologiya fənninin məzmunu sinifdən-sinifə, konsentrik əsasda sadədən mürəkkəbə, asandan çətinə prinsipi üzrə getdikcə zənginləşsə də, məzmun xətləri dəyişməz qalır.

1.Emal texnologiyaları.

Emal texnologiyaları "Texnologiya" fənninin əsas məzmun xətlərindən biri olub şagirdlərin peşələrlə tanış edilməsini, onların ilkin bacarıqları və elementar əmək vərdişlərinə yiyənmələrini təmin edir. Şagirdlər gündəlik həyatda, məişətdə, bu və ya digər hallarda materialların, enerjinin, informasiyaların dəyişdirilməsi və istifadəsi prosesində iştirak etdiklərindən onlarda müvafiq emal texnologiyalarına aid bacarıq və vərdişlərin aşılanması zəruri hesab olunur. Gələcəkdə əldə edəcəkləri peşənin xarakterindən asılı olmayaraq şagirdlər özlərinin həyat şəraitini yaxşılaşdırmaq üçün materialların emalı texnologiyalarından istifadə edirlər.

2.Texnika elementləri.

Bu məzmun xətti üzrə şagirdlərə gündəlik həyatda qarşılaşdıqları texnikanın ümumi xarakteristikasının öyrədilməsi, elmi-texniki tərəqqinin nailiyyətləri, istehsal texnologiyalarının təkmilləş-

dirilməsi, müasir texniki qurğular və konstruksiyalar haqqında ilkin məlumatların verilməsi, bu sahədə müvafiq bacarıq və vərdişlərin mənimsənilməsi nəzərdə tutulur. Şagirdlərdə texnika aləmi, maşınların növləri və təyinatı, hissələrinin birləşdirilməsi, maket və onlara verilən tələblər (iqtisadi, ekoloji və estetik), texnika üzrə kütləvi peşələr haqqında ilkin bilik və bacarıqlar formalaşdırılır. Bu məzmun xətti vasitəsilə şagirdlər gündəlik həyatda qarşılaşdıqları əsas texnoloji maşınlar, aparatlar, aqreqatlar, alətlər, onların növləri, quruluşu və iş prinsipi ilə tanış olurlar. Şagirdlər detallar, mexanizmlər, məişətdə istifadə olunan maşınlar, texnikada maşınların tətbiqi haqqında biliklərə yiyələnməklə müasir texnoloji avadanlıqların quruluşunu və iş prinsiplərini öyrənir və onları idarə etmək bacarıqları əldə edirlər.

3.Məişət mədəniyyəti

Bu məzmun xətti üzrə qazanılmış bilik və bacarıqlar vasitəsilə şagirdlər həyatda insana lazım olan davranış qaydalarına riayət etmək, ailənin və onun büdcəsinin idarə olunmasında iştirak etmək, təhlükəsizlik və sanitariya-gigiyena qaydalarına riayət etmək, sadə təmir-tikinti işlərini yerinə yetirmək və bitkilərə qulluq etmək vərdişləri qazanırlar. Eyni

zamanda şagirdlərdə ailə məişət mədəniyyəti və ənənələri, interyer tərtibatı və dizayn, habelə, ictimai yerlərdə (evdə, nəqliyyatda, məktəbdə, qonaqlıqda və s.) davranış və ünsiyyət qaydalarına əməl etmək, öz iş və yaşayış yerlərini təşkil etmək bacarıqları formalaşır.

4.Qrafika

Hər bir məmulatı hazırlayarkən, ilk növbədə, onun eskizini, sxemini, texniki rəsmini, çertyojunu, təlimat xəritəsini çəkmək və oxumaq lazım gəlir. Elektron qurğularından istifadə etdikdə onlardakı xırda nasazlıqları axtarıb tapmaq və aradan qaldırmaq üçün onların sxemini oxumaq bacarığı tələb olunur. Qrafika məhz bu məqsədlə "Texnologiya" fənninin məzmununa daxil edilmişdir. Bu məzmun xətti üzrə fəaliyyətlər şagirdlərdə məmulatın təsvirini, sxemini, çertyojunu, forma və ölçülərini müəyyənləşdirmək, hazırlanacaq məmulatlara dizayn vermək bacarıqlarının formalaşdırılmasına yönəldilmişdir.

Müasir müəllim İKT-nin imkanlarından istifadə etməyi mütləq bacarmalıdır. Tədris prosesində internetdən istifadə edərək, öyrənənlərə daha geniş məlumat vermək olar.

Dördüncü sinifdə Texnologiya fənninin tədrisinə 68 saat ayrılmışdır. Dərslikdə verilmiş 32 mövzunun 5-inə 1 saat və qalan 27 mövzuya 2 saat verilmişdir. İki saatlıq mövzuların tədrisinə verilmiş vaxtdan səmərəli istifadə edərək, təlim nəticəsi alınmasında müəllim tam sərbəstdir. Hazırlanacaq didaktik materialda hər bir mövunun tədrisi metodikası öz əksini tapmalıdır. 1-ci dərsdə şagirdlərin nəzəri, 2-ci dərsdə isə nəzəri biliklərə əsaslanan yaradıcı işlərin yerinə yetirilməsi təklif olunmuşdur.

Tədris prosesində dərsin planlaşdırılması həmişə önəmli olmuş, indi də çox önəmlidir. Fəal təlim metodu ilə tədris prosesində gündəlik planlaşdırma metodik ədəbiyyatlarda aşağıdakı ardıcılliq təklif olunmuşdur. Bu ardıcıllıqlara əməl etməklə müəllim təlim nəticəsi əldə edə bilər. Bunlar belədir: Mövzu; Standart; Məqsəd (seçilmiş alt standartlara əsaslanaraq tərtib olunmalıdır); İnteqrasiya; İş forması; İş üsulları; Resurslar. O cümlədən, müəllim təlim prosesində dərsin aşağıdakı mərhələlərinə əməl etməlidir.

I. Motivasiya (cəlbetmə); II. Tədqiqatın aparılması (problemin həlli); III. Məlumatın mübadiləsi (hazırlanmış cavabların qrupların təqdimatı); IV. Məlu-matın müzakirəsi; V. Nəticə və ümumi-

ləşdirmə; VI. Yaradıcı tətbiqetmə; VII. Qiymətləndirmə.

Hər bir mərhələnin vəzifələri haqqında müəllim məlumatlı olmalıdır.

I Mərhələ: Motivasiya (cəlbetmə). Problemin qoyulması- dərsin ən mühüm və mürəkkəb mərhələlərindən ən vacibidir. Şagirdlərin diqqətini mövzuya yönəltmək və idrak fəallığının yaradılması başlıca addımdır. Müasir texnologiyalar əsrində bu iş çox asandır. Hər bir dərsə aid motivasiya materilları internet vasitəsilə tapılaraq icmallarda tətbiq oluna bilər.

II Mərhələ: Tədqiqatın aparılması (problemin həlli). Müəllim sinfi qruplara ayıraraq, hər bir qrupa öz liderini seçməyə şərait yaratmalıdır. Qrupların yeni dərsi sinifdə dərslikdən öyrənmələrinə şərait yaradılmalıdır. Şagirdlərin öyrəndikləri nəzəri biliklərin səviyyəsini sual-cavabla müəyyən etdikdən sonra müəllim tədqiqat sualları olan iş vərəqlərini qruplara paylamalıdır.

III Məlumatın mübadiləsi: (təqdimatın aparılması). Bu mərhələdə hər qrupdan bir nəfər hazırladığı cavabları həm şifahi və həm də yazılı təqdim edəcək.

IV Mərhələ: Məlumatın müzakirəsi. Bu mərhələdə müəllim şagirdlərin əldə etdikləri nəzəri və praktik yaradıcılığının necə icra etdiklərini sual-cavabla müəyyən etməlidir.

V Mərhələ: Nəticə və ümumiləşdirmə. Müəllim şagirdlərin əldə etdikləri bilikləri umumiləşdirir. Eyni zamanda mustəqil əldə etikləri bilikləri müəyyənləşdirir.

VI Mərhələ: Yaradıcı tətbiqetmə. Biliklərin mənimsənilməsinin əsas meyarı şagirdlərin yaradıcılığıdır. Yaradıcı tətbiqetmə biliyi möhkəmləndirir. Bu mərhələ öz işini yalnız bir dərsdə bitirmir. Müəllim onlara mövzuya aid intrnetdən məlumat əldə edib, növbəti dərsə təqdim etməyi də tapşıra bilər.

VII Mərhələ: Praktik qiymətləndirmə. Dərsin sonunda qrupların əldə etdikləri biliklərin səviyyəsi meyarlara əsaslanaraq, qiymətləndirilməsi çox böyük əhəmiyyətə malikdir. Qiymətləndirmədə meyarlarının seçilməsində müəllim müstəqildir. Bu mərhələdə özünüqiymətləndirmə və yoldaşlarını qimətləndirmə də mühüm əhəmiyyətli ola bilər.

TEXNOLOGİYALAR VƏ TEXNOLOJİ VASİTƏLƏR

Mövzu 1: TEXNOLOGİYALARIN İNKİŞAFI. (2 saat)

Bu mövzunun tədrisinə 2 saata ayrılıb. Müəllim verilmiş 2 saatdan səmərəli istifadə etməkdə tam sərbəstdir. Yaxşı olar ki, 1-ci saat dərslikdə verilmiş ardıcıllıqdan istifadə edilsin. 2-ci saatda isə müasir dövrü əhatə edən texnologiyaların inkişaf yollarının öyrənilməsində istiqamət göstərilsin.

Dərs 1. Mövzu: "Texnologiyaların inkişafı"

Standart: 1.1.1.; 2.1.2.; 2.1.3.

Məqsəd: Şagird: 1.Emal texnologiyalarını nümayiş etdirilən təsvirdə tanıyır və hər birinin vəzifələri haqqında məlumatlıdır. 2.Texnoloji vasitələri, yəni əl alətləri ilə mexaniki alətləri bir-birindən fərqləndirir. 3.Texnoloji maşınları və texnoloji vasitələri fərqləndirir. 4.Qrup işində əməkdaşlıq etməyi bacarır. 5. Hazır cavabları təqdim edir.

İnteqrasiya: A/d. 1.1.1.; İnf. 3.2.6.; H/b. 4.2.1.

Dərsin tipi: Yeni bilik verən dərs.

İş formaları: Kiçik qruplarla iş, böyük qruplarla iş.

İş üsulları: Beyn həmləsi, müzakirə.

Resurslar: Peşələri əks etdirən şəkillər, insanın əmək fəaliyyətinin məqsədlərini əks etdirilən diaqram, texnoloji vasitələrin (əmək alətlərinin, mexaniki alətlərin, elektrik alətlərinin) şəkilləri, dərslik, iş vərəqləri.

DƏRSİN GEDİŞİ

I Mərhələ: Motivasiya, problemin qoyuluşu. Müəllim müxtəlif şəkilləri nümayiş etdirərək şagirdlərə aşağıdakı suallar verir: 1. Şəkildə nə görürsünüz? 2. İnsanlar nə edirlər? 3. İnsan əməyi haqqında nə deyə bilərsiniz? 4. İnsanın əmək fəaliyyətində alətlərin rolu nədir? 5. Peşə haqqında nə deyə bilərsiniz? 6 .Aşağıdakı şəkildə göstərilən alətlərin adı və vəzifələri haqqında nə bilirsiniz?






Yastıağız kəlbətin
Bel
Mismarçıxaran kəlbətin
Ətçəkən maşın
Biz
İynə
Qayçı
Santimetr lenti
Xətkeş
Üçbucaq
Televizor
Ağackəsən elektrik mişarı
Minik avtomobili
Təyyarə
Taxtakəsən mişar
Vintaçan
Mikser (qarışdırıcı)
Elektrik vintaçanı
Qayka açarı
Mala
Paltaryuyan maşın
Elektrik lobzik mişarı
Fen
Sərnişin gəmisi
Yükü özüboşaldan maşın
Tır (ağır tonnajlı yük avtomobili)
Şiraçəkən maşın
Metalkəsən mişar
Kiçik tonnajlı yük maşını
Betonqarışdıran maşın
Avtobus
Toxuma milləri, milçə
Elektriklə işləyən ətçəkən maşın
Metal fırça

Tədqiqat sualları: Müəllim şagirdlərin cavablarını dinlədikdən sonra, əmək alətlərinin daima dəyişmə səbəblərini soruşur:

Texnologiyanın inkişaf etməsinə səbəblər hansılardır?

Şagirdlərin mülahizələrini dinlədikdən sonra onların yeni dərsi müstəqil öyrənmə-sinə şərait yaratmalıdır.

II Mərhələ: Tədqiqatın aparılması

Müəllim sinifi qruplara ayırır. Şagidlərin sayına görə qrupların sayını müəyyənləşdirməlidir. Qruplarda zəif, orta və yaxşı oxuyanların sayı bərabər olmasını təşkil etməli. Eyni zamanda qrup üzvlərinin özlərinə lider seçmələrini tapşırır. Sonra elan edir ki, dərsin tədrisinə 2 saat vaxt verildiyindən, 1-ci dərsdə XX əsrin ortalarına kimi dövrü əhatə edəcək. Qruplara dərslikdə səh.10-da nəzəri bilikləri öyrənmək tapşırılır. Onlara 5 dəqiqə vaxt verməli. Şagirdlərin mövzunu mənimsəməsini yoxlamaq üçün suallar verəcək:1. Qədim insanlar hansı əmək alətlərindən istifadə ediblər? (ağır şeyləri uzun ağaclarla qaldırmış, daşdan, sonralar dəmir alətlərdən) 2.Yeri nə ilə şumlayıblar? (yeri ağacdan olan xışla şulamış, atı, öküzü əhilləşdirmişlər) 3.İnsanlar kuləyin köməyi

ilə nələr yaratmışlar? (su nəqliyyatı olan yelkənli gəmilərdə, küləklə işləyən yel dəyirmanlarında) 4. İnsanlar buxar maşınından hansı məqsədlə istifadə ediblər? (buxar maşınlarından gəmilərdə, avtomobillərdə və paravozlarda) 5. Suyun enerjisindən hansı məqsədlərdlə istifadə etdilər? (su dəyirmanlarında) 6. Əmək alətlərinin təkmilləşdirilməsinin səbəbi nə idi? (insan yarandığı gündən öz həyat səviyyəsi yaxşılaşdırmaq, az quvvə sərf etməklə iş görmək arzusunda olub)

7. Hansı yeraltı sərvətləri tanıyırsınız? (daş kömür, neft, qaz və s.) 8. Azərbaycanda bunlardan hansıları çıxarılır? (neft, qaz, dəmir, qızıl, alüminium və s.)

Müəllin şagirdlərin kitabdan öyrəndikləri biliklərin səviyyəsini müəyyən etdikdən sonra hər bir qrupa suallar yazılmış vərəqləri paylayaraq, müdaxilə etmədən işin icrasına nəzarət etməlidir.

I qrup. 1. Ekranda ibtidai insanların əmək‌ləri haqqında fikrinizi yazın. 2. İkinci şəkildə gördüyünüz alətlərin adları və vəzifələrini sadalayın.

II qrup. 1. Əməyin insanın həyatında əhəmiyyətini açıqlayın. 2. Buxarın əmələ gəlməsi və hansı

nəqliyyat vasitələrində istifadəsi haqqında fikir söyləyin.

III qrup.1. Küləyin enerjisindən istifadəsi haqqında fikrinizi bildirin.

2. Suyun enerjisinin tətbiqi haqqında fikrinizi bildirin.

IV qrup.1. İnsanların yeraltı sərvətlərdən (adlarını sadalayın) istifadə yerləri haqqında məlumat yazın. 2. Bu yanacaqlardan hansı işlərdə istifadə edildiyini yazın.

Müəllim qrup işlərinin icrasına vaxt verir. Sonra hazırlanmış cavabların təqdimatını təşkil edir.

III Mərhələ: Məlumat mübadiləsi

Bu mərhələdə hər bir qrup birgə fəaliyyətdə öyrəndikləri nəzəri bilikləri təqdim edirlər. Təqdimat üçün hər qrupdan bir nümayəndə gələrək həm yazılı və həm də şifahi olaraq işlərini təqdim edir. Müəllim qrupların təqdimatını yazılı vərəqlərdə qəbul edir. Hər bir qrupun cavablarına digər qrupların münasibət bildirmələrini təşkil edir.

IV Mərhələ: Məlumatın müzakirəsi və təşkili

Müəllim suallarla müzakirəni təşkil edir və şagirdlərin müstəqil əldə etdikləri nailiyyətlərin səviyyələrini müəyyənləşdirir.1. İnsanlar öz tələbatını

ödəmək üçün əvvəllər nələrdən istifadə ediblər? (heyvan əməyindən və sadə əmək alətlərindən) 2. Sadə əmək alətlərindən hansıları tanıyırsınız? (balta, çəkic, kəlbətin, vintaçan, qayka açarı, mişar, bel, yaba, dəmir kəsən mişar, qayçı, mala və s.) 3.Texnologiya (əmək təlimi) nədir? (İnsanların öz maddi vəziyyətlərini yaxşılaşdırmaq üçün istifadə etdiyi üsül və qaydalardır) 4. Buxar maşınları harada tətbiq olunub? (maşinlarda, dəmir yol nəqliyyatında, gəmilərdə) 5. Kuləyin enerjisindən hansı nəqliyyatda istifadə edilir? (yelkənli gəmilərdə) 6. Suyun enerjisindən harada istifadə edilir? (su dəyirmanlarında) 7. Yanacaq kimi istifadə olunan hansı yeraltı sərvətləri tanıyırsınız? (neft, daş qaz və kömür)

V Mərhələ: Nəticə və ümumiləşdirmə

Müəllin şagirdlərin cavablarını ümumiləşdirir və bəzi yarımçıq qalmış cavabları tamamlayır. Buxar maşınları haqqında heç bir məlumatları yoxdur. Onda müəllim şagirdlərin evlərində su qaynayarkən gördüklərini xatırladır. Qeyd edir ki, su yüksək tempraturda buxara çevrilir və müəyyən qurğuların köməyi ilə mexaniki hərəkətə çevrilir. Yaxşı olar ki, onlara elektrik enerjisi haqqında da müəllim qısa məlumatlar versin.

VI Mərhələ: Yaradıcı tətbiqetmə

Müəllin şagirdlərə tapşırır ki, İKT-nin nailiyyətlərindən istifadə etməklə növbəti dərsdə XX əsrin ortalarına qədər texnologiyaların inkişafına aid materiallar hazırlasınlar.

VII Mərhələ: Qiymətləndirmə Qrupların fəaliyyətinin meyarlara əsaslanaraq qiymətləndirilməsinə müəllimi şagirdləri də cəlb etməsi çox maraqlıdır. Şagirdlər şüurlu olaraq özünü və yoldaşının əməyinin qiymətləndirməsi müasir dövrün ən mühüm tələblərindən biri olduğunu bilsinlər.

Meyarlar	I qrup	II qrup	III qrup	IV qrup
Tapşırığın tam və düzgün icrası				
İşi vaxtında icra etmək				
Əməkdaşlıqetmə				
Təqdimetmə				
Ümumi balların miqdarı				

Yekun balı hər bir üzvün zəhmətinə görə paylanmasını onların ixtiyarına vermək çox maraqlıdır.

Ev tapşırığı: “Elektron texnologiyalar insanlara necə kömək edir” mövzusunda məlumat toplamalı və yazılı təqdim etməli.

Dərs 2. Mövzu: “Texnologiyaların inkişafı”

Mövzunun 2-ci saatı isə müasir dövrü əhatə edən texnologiyaların öyrənilməsində yol göstərən olsun. 2-ci dərs XX əsrin 2-ci yarısından müasir dövrə kimi olan texnologiyaların inkişafına həsr olunur.

Standartlar: 1.1.1.; 2.1.2.; 2.1.3.

Məqsəd: Şagird: 1. Emal texnologiyalarını nümayiş etdirilən təsvirdə tanıyır və hər birinin vəzifələri haqqında məlumatlıdır. 2. Texnoloji vasitələri, yəni əl alətləri ilə mexaniki alətləri bir-birindən fərqləndirir. 3. Texnoloji maşınları və texnoloji vasitələri fərqləndirir. 4. Qrup işində əməkdaşlıq etməyi bacarır. 5. Hazır cavabları təqdim edir.

İnteqrasiya: A/d. 1.1.1.; İnf. 3.2.6.; H/b. 4.2.1.

Dərsin tipi: Yeni bilik verən dərs.

İş formaları: Kiçik qruplarla iş, böyük qruplarla iş.

İş üsulları: Beyn həmləsi, müzakirə.

Resurslar: Peşələri əks etdirən şəkillər, insanın əmək fəaliyyətinin məqsədlərini əks etdirilən diaqram, texnoloji vasitələrin (əmək alətlərinin, mexaniki

alətlərin, elektrik alətlərinin) şəkilləri, dərslik, iş vərəqləri.

DƏRSİN GEDİŞİ

I Mərhələ: Motivasiya, problemin qoyuluşu. Müəllim müxtəlif şəkilləri nümayiş etdirərək şagirdlərə aşağıdakı suallar verir:

Şəkildə nə görürsünüz?













Şagirdlər bu cihazların adlarını sadaladıqdan sonra, müəllim dərsin adını elan edir. O, şagirdlərə bildirir ki, 1-ci dərsdə XX əsrin ortalarına qədər olan dövrə aid cihaz və avadanlıqlar haqqında biliklərə yiyələndiniz. Sadə alət və cihazlar çox böyük inkişaf mərhələsinə yüksəlmişdir. Bu dərsdə həmin cihaz və avadanlıqlar haqqında bilikləri öyrənəcəksiniz.

II Mərhələ: Tədqiqatın aparılması

Müəllim sinifdə olan şagirdlərin sayına görə qruplar müəyyənləşdirir. Yaxşı olar ki, qrupların sayı dörd olsun. Qrupda sosial bərabərlik yaradılmalıdır. Qrup üzvləri liderlərini seçməkdə müstəqildirlər. Sonra müəllim qoyulacaq problemlərə cavab vermək və nəzəri bilikləri öyrənmək üçün onlara dərslikdə səh. qruplara aşağıdakı sualları verir:

1. Gördüyünüz bu avadanlıqlar hansı enerji ilə işləyir? (elektrik enerjisi ilə**).**

2. Elektrik enerjisi harada istehsal olunur? (elektrik stansiyalarında).

3. Şəkil 7-9-a baxmağı tapşırır. Bu prosesə 7-8 dəqiqə vaxt ayırır. Verilmiş vaxt bitdikdən sonra müəllim onların bilik səviyyələrini sual-cavabla müəyyən etməlidir. O, **gördüklərinizin adlarını və tətbiq yerlərini kim deyər? (**paltaryuyan və tozsoran

maşınlar, kömür və odun sobaları, radioqəbuledici və s**.).**

4. Şəkildə məişət cihazları hansılardır? (tozsoran, paltaryuyan, ütü, ətçəkən, mikser, qaz sobası və s.)

Müəllim qrupların nəzəri biliklərini dərslikdən mənimsəmə səviyyəsini müəyyənləşdirəndən sonra qruplara vərəqləri paylayaraq, qrup işinə müdaxilə etmədən nəzarət etməlidir.

I qrup. 1.İlk tozsoran maşın nə vaxt yaranmış və işləmə mexanizmləri necə olub?

2. Müasir tozsoran maşınların iş prinsipi necədir?

II qrup. 1. İlk paltaryuyan maşın nə vaxt yaranıb və işləmə qaydası necə olub?

2. Müasir paltaryuyan maşınların iş mexanizmi necədir?

III qrup. 1. XIX –XX əsrin ortalarına qədər insanların məişətdə istifadə etdikləri sobalar hansı yanacaqlarla işləyib? 2. XX əsrin ortalarından müasir dövrə kimi məişət cobaları hansı yanacaqla işləyir?

IV qrup. 1. İKT haqqında və internetin həyatımızda rolu nədir? 2. Radio və televizorlar hansı inkişaf yolun keçmişdir?

III Mərhələ: Məlumat mübadiləsi

Bu mərhələdə hər bir qrup birgəfəaliyyətdə öyrəndikləri nəzəri bilikləri təqdim edirlər. Təqdimat üçün hər qrupdan bir nümayəndə gələrək həm yazılı və həm də şifahi olaraq işlərini təqdim edir. Müəllim qrupların təqdimatını yazılı vərəqlərdə qəbul edir. Hər bir qrupun cavablarına digər qrupların münasibət bildirmələrini təşkil edir.

IV Mərhələ: Məlumatın müzakirəri və təşkili

Müəllim müzakirəni təşkil edir. O, suallar verməklə şagirdlərin müstəqil əldə etdikləri biliklərin səviyyəsini müəyyənləşdirir.

1. İlk tozsoran nə vaxt yaradılıb? 2. Bu mexanizmin iş prinsipi necədir? 3.Müasir tozsoranın iş prinsipi və quruluşu necədir? 4.İnsanlar keçmişdə və müasir dövrdə məişətdə istifadə olunan sobalar nə ilə işləyib? 5.İKT və internet haqqında nə öyrəndiniz? 6.İlk televizor və radiolar hansı inkişaf yolunu keçmişdir? 7. Sizə hansı məişət cihazları məlumdur ? 8.Məişət cihazları insanlara necə kömək edir?

V Mərhələ: Nəticə və ümumiləşdirmə

Müəllin şagirdlərin cavablarını ümumiləşdirir və bəzi yarımçıq qalmış cavabları tamamlayır

VI Mərhələ: Yaradıcı tətbiqetmə

Müəllim şagirdlərə tapşırır ki, İKT-nin nailiyyətlərindən istifadə etməklə növbəti dərsdə

müasir texnologiyalar haqqında elektron materiallar hazırlasınlar.

VII Mərhələ: Qiymətləndirmə. Qrupların fəaliyyətinin meyarlara əsaslanaraq qiymətləndirilməsinə müəllimin şagirdləri də cəlb etməsi çox maraqlıdır. Şagirdlər şüurlu olaraq özünün və yoldaşının əməyinin qiymətləndirməsi müasir dövrün ən mühüm tələblərindən biri olduğunu anlamalıdırlar.

Meyarlar	I qrup	II qrup	III qrup	IV qrup
Tapşırığın tam və düzgün icrası				
İşi vaxtında icraetmə				
Əməkdaşlıq				
Təqdimetmə				
Ümumi balların miqdarı				

Yekun balı hər bir üzvün zəhmətinə görə paylanmasını onların ixtiyarına vermək çox maraqlıdır.

Ev tapşırığı: "Elektron texnologiyalar insanlara necə kömək edir" mövzusunda məlumat toplamalı və yazılı təqdim etməli.

Mövzu 2: İSTEHSALAT MÜƏSSİLƏRİ VƏ İSTEHSAL (2 saat)

Dərs 1. "İstehsalat müəssisələri və istehsal"

Əsrlər boyu insanlar özlərinə rahat yaşayış məskənləri salmağa, həyat üçün lazım olan zəruri məmulatları əldə etməyə çalışmışlar. Bu mövzuda şagirdlər istehsalat və istehsal haqqında nəzəri məlumatlara yiyələnəcəklər.1-ci dərsdə istehsalat müəssisələri və zavodlar haqqında biliklərə yiyələnəcəklər.

Standart: 1.1.1.; 1.1.2.

Məqsəd: Şagird: 1. Tanıdığı emal texnologiyasının tətbiq olunduğu istehsal sahələri (zavod və müəssisələr) haqqında məlumata malik olduğunu nümayiş etdirir. 2. Müxtəlif emal texnologiyaları ilə bağlı təqdimatlar edir.

İnteqrasiya: A/d. 1.1.1.

Dərsin tipi: Yeni bilik verən dərs.

İş formaları: Kiçik qruplarla iş, böyük qruplarla iş.

İş üsulları: Beyn həmləsi, BİBÖ

Resurslar: Dərslik, iş vərəqləri, zavod və müəssisələri təsvir edən fotoşəkillər, noutbuk və proyektor.

DƏRSİN GEDİŞİ

I Mərhələ: Motivasiya, problemin qoyuluşu. Müəllim müxtəlif şəkilləri nümayiş etdirərək şagirdlərə aşağıdakı suallar verir: 1. Şəkildə gördüklərinizin adı nədir? (1-2-3 zavodlar , 4-cü müəssisədir). 2. Onların insanların həyatında nə kimi rolu var? (yaşamaq üçün lazım olan nə varsa, onu əldə etməyə)

Müəssisə-mülkiyyət formasından asılı olmayaraq ictimai tələbatın ödənilməsi və mənfəət əldə edilməsi məqsədilə məhsul istehsal edən və satan təsərrüfat subyektidir.









Müəllim şagirdlərin cavablarını dinlədikdən sonra elan edir ki, bu gün siz istehsal müəssələri və zavodlar haqqında nəzəri biliklərə yiyələnəcəksiniz.

II Mərhələ: Tədqiqatın aparılması

Müəllim sinifdə olan şagirdlərin sayina görə qruplar müəyyənləşdirir. Qrupda sosial bərabərlik yaradılmalıdır. Qrup üzvləri liderlərini seçməkdə müstəqildirlər. Sonra müəllim qoyulacaq problemlərə cavab vermək və nəzəri bilikləri öyrənmək üçün onlara dərsliyə baxmağı tapşırır. Onlara 10 dəq vaxt verir. Qrupların əldə etdikləri biliklərin səviyyəsini sual - cavabla müəyyən edir.

1. İstehsal və ya istehsalat nədir? (hər hansı bir məhsulun əldə olunması üçun insanın fəaliyyətidir) **2. İstehsalat müəssisəsi nəyə deyilir?** (cavab yuxarıda göstərilib). **3. Zavod nədir?** (zavod böyük istehsalsalat müəssisəsidir**). 4. Hansı zavodları tanıyırsınız?** (boru-prokat, avtomobil, traktor, şüşə, süd, çörək zavodları və s.). **5. Zavodda işləyən insanların adına nə deyilir?** (fəhlə, mühəndis, sex rəisi, müdir və s.). **6. Avtomobil zavodunda yığma sexində hansı üsuldan istifadə olunur?** (konveyer). **7. Mövzuda süd zavodunun iş prinsipi necə izah olunur?** (süddən - qaymaq, pendir, qatıq, kərə yağı,

şor, yoğurt və s. alınır). Cavabları müəllim dəqiqləşdirdikdən sonra qrup işinə aid vərəqləri paylayır.

I qrup. 1.İstehsalın əsas vəzifəsi nədən ibarətdir? 2. Sadalanan əşyalar harada istehsal olunur?

II qrup. 1.Dərslikdə səh.11-də verilmiş şəkilə baxmaqla müasir texnologiyalar haqqında fikrinizi bildirin.

III qrup. 1.Zavodun əsas vəzifələri nədir? 2. Zavodda çalışan işçilərin rəsmi adı nədir və hansı işləri icra edirlər?

IV qrup. 1.Respublikamızda olan zavodların adlarını qeyd edin. 2. Avtomobil zavodlarında iş hansı yolla icra olunur?

Müəllim qruplara verdiyi 10-15 dəq. vaxt bitdikdən sonra məlumat mübadiləsini təşkil edir.

III Mərhələ: Məlumat mübadiləsi

Bu mərhələdə hər bir qrup birgə fəaliyyətdə öyrəndikləri nəzəri bilikləri təqdim edirlər. Təqdimat üçün hər qrupdan bir nümayəndə gələrək həm yazılı və həm də şifahi olaraq işlərini təqdim edir. Müəllim qrupların təqdimatını yazılı vərəqlərdə qəbul edir. Hər bir qrupun cavablarına digər qrupların münasibət bildirmələrini təşkil edir.

IV Mərhələ: Məlumatın müzakirəsi və təşkili

Müəllim müzakirəni təşkil edir. O, suallar verməklə şagirdlərin müstəqil əldə etdikləri biliklərin səviyyəsini müəyyənləşdirir. O, aşağıdakı kimi qruplara suallar verir: **1. İnsanlar yarandığı gündən nə ediblər?** (məskən salmağı, qida əldə etməyi, həyat üçün lazım olan məmulatların istehsalı**). 2. İstehsal nədir?** (həyat üçün insana lazım olan xammal, materialların və zəruri əşyaların istehsalıdır**). 3.Sadalanan əşyalar harada hazırlanır?** (istehsalat müəssisələrində**). 4. Zavodun əsas vəzifəsi nədir?** (böyük istehsalat müəssisəsidir). **5. Hansı zavodları tanıyırsınız?** (avtomobil, gəmiqayırma, süd, neft emalı, boru-prokat və.s)

6. Süd zavodunda hansı məhsullar istehsal olunur? (süd-qaymaq-pendir-yağ- qatıq- yoğurt və s.)

V Mərhələ: Nəticə və ümumiləşdirmə

Müəllim şagirdlərin cavablarını ümumiləşdirir və bəzi yarımçıq qalmış cavabları tamamlayır

VI Mərhələ: Yaradıcı tətbiqetmə

Müəllim şagirdlərə tapşırır ki, İKT-nin nailiyyətlərindən istifadə etməklə növbəti dərsdə istehsal, zavod haqqında elektron materiallar hazırlasınlar.

VII Mərhələ: Qiymətləndirmə Qrupların fəaliyyətinin meyarlara əsaslanaraq qiymətləndirilməsinə müəllimin şagirdləri də cəlb etməsi çox maraqlıdır. Şagirdlər şüurlu olaraq özünün və yoldaşının əməyinin qiymətləndirməsini müasir dövrün ən mühüm tələblərindən biri olduğnu dərk etsinlər.

Meyarlar	I qrup	II qrup	III qrup	IV qrup
Tapşırığın tam və düzgün icrası				
İşi vaxtında icraetmə				
Əməkdaşlıq etmə				
Təqdimetmə				
Ümumi balların miqdarı				

Yekun balı qrupların hər bir üzvünün zəhmətinə görə paylanmasını onların öz ixtiyarına vermək çox maraqlı olar.

Ev tapşırığı: "Elektron texnologiyalar insanlara necə kömək edir" mövzusunda məlumat toplamalı və yazılı təqdim etməli.

Dərs 2. Mövzu: “İstehsalat müəssisələri və istehsal”

Standart: 1.1.1.; 1.1.2.

Məqsəd: Şagird:1.Tanıdığı emal texnologiyasının tətbiq olunduğu istehsal sahələri (zavod və müəssisələr) haqqında məlumata malik olduğunu nümayiş etdirir.

2. Müxtəlif emal texnologiyaları ilə bağlı təqdimatlar edir.

İnteqrasiya: A/d. 1.1.1.

Dərsin tipi. Yeni bilik verən dərs.

İş formaları: Kiçik qruplarla iş, böyük qruplarla iş.

İş üsulları: Beyn həmləsi, BİBÖ

Resurslar: Dərslik, iş vərəqləri, zavod və müəssisələri təsvir edən fotoşəkillər, noutbuk və proyektor.

DƏRSİN GEDİŞİ

I Mərhələ: Motivasiya, problemin qoyuluşu. Müəllim müxtəlif şəkilləri nümayiş etdirərək şagirdlərə aşağıdakı kimi suallar verir: **1.Şəkildə nə görürsünüz?** (fabrik və kombinatlar). **2. Birinci şəkildə nə iş görülür?** (xalça fabrikində iş gedir). **3. İkinci şəkildə nə iş görülür?** (toxuculuq kom-

binatında iş gedir). **4. Üçüncü şəkil nəyə aiddir?** (kağız və karton istehsalı) **5. Dördüncü şəkildə nə iş görülür?** (ayaqqabı fabrikidir).









Müəllim şagirdlərin cavablarını dinlədikdən sonra elan edir ki, bu gün siz fabrik və kombinatlar və onların vəzifələri haqqında nəzəri bilikləri öyrənəcəksiniz.

II Mərhələ: Tədqiqatın aparılması

Müəllim sinifdə olan şagirdlərin sayına görə qruplar müəyyənləşdirir, yaxşı olar ki, qrupların sayı

dörd olsun. Qrupda sosial bərabərlik yaradılmalıdır. Qrup üzvləri liderlərini seçməkdə müstəqildirlər. Sonra müəllim qoyulacaq problemlərə cavab vermək və nəzəri bilikləri öyrənmək üçün onlara dərslikdə olan mövzuya baxmağı tapşırır. Onlara 10 dəq vaxt verməlidir. Qrupların əldə etdikləri biliklərin səviyyəsini sual - cavabla müəyyən edir.

1. Fabrik sözünün mənzsı nədir? 2. Fabrikdə hansı işlər icra olunur?

3. Respublikamızda hansı fabrikləri tanıyırsınız? 4. Yaşadığınız ərazidə hansı fabriklər var? 5. Kombinat sözünün mənası nədir? 6. Makulatura sözünün mənası nədir? 7.Konveyerin vəzifəsi nədir? 8.Kağızın alınma ardıcıllığı necədir?

Müəllim qrupların kitabdan əldə etdikləri biliklərin səviyyəsini müəyyən etdikdən sonra qruplara icra vərəqini paylamalıdır.

I qrup. 1. Fabriklər hansı işləri icra edir? 2. Yaşadığınız ərazidəki fabriklər nə istehsal edir?

II qrup. 1. Hansı fabrikləri tanıyırsiniz (adları və istehsal etdikləri məhsulları sadalayın).

III qrup. 1.Kombinat nədir və hansı kombinatları tanıyırsınız?

IV qrup. 1.Şəkilə baxmaqla kağız kombinatında gedən işləri ardıcıllıqla izah edin.

Verilən vaxt tamam olduqdan sonra müəllim onların təqdimatını təşkil etməlidir.

III Mərhələ: Məlumat mübadiləsi

Bu mərhələdə hər bir qrup birgəfəaliyyətdə öyrəndikləri nəzəri bilikləri təqdim etməlidir. Təqdimat üçün hər qrupdan bir nümayəndə gələrək həm yazılı və həm də şifahi olaraq işlərini təqdim edir. Müəllim qrupların təqdimatını yazılı vərəqlərdə qəbul edir. Hər bir qrupun cavablarına digər qrupların münasibət bildirmələrini təşkil edir.

IV Mərhələ: Məlumatın müzakirəsi və təşkili

Müəllim müzakirəni təşkil edir. O, suallar verməklə şagirdlərin müstəqil əldə etdikləri biliklərin səviyyəsini müəyyənləşdirir və aşağıdakı kimi qruplara suallar verir: **1.Fabrik sözünün mənası nədir?** (latınca mənası emalatxana deməkdir) **2. Fabrikdə nə işlər icra olunur?** (kütləvi məmulat istehsal edən iri sənaye müəssəsidir) **3. Kombinat sözü nə deməkdir?** (latın sözü olub, birləşmiş deməkdir) **4. Hansı fabrikləri tanıyırsınız?** (tikiş, şirniyyat, corab, ayaqqabı, mebel və s.) **5. Hansı kombinatları tanıyırsınız?** (metallurgiya, kimya, evtikmə, ət kombinatları)

6. Kağız kombinatında hansı proseslər gedir? (toplanan köhnə kağızlar təkrar emal olunur**) 7. Makulaturanın toplanmasının əhəmiyyəti nədir?** (ilk növbədə ətraf mühitin təmizliyi və təkrar kağız emalına materialdır) **8.Konveyr nədir?** (hərəkətdə olan lent qurğusudur)

V Mərhələ: Nəticə və ümumiləşdirmə

Müəllin şagirdlərin cavablarını ümumiləşdirir və bəzi yarımçıq qalmış cavabları tamamlayır

VI Mərhələ: Yaradıcı tətbiqetmə

Müəllim şagirdlərə tapşırır ki, İKT-nin nailiyyətlərindən istifadə etməklə növbəti dərsdə fabrik, kombinat haqqında elektron materiallar hazırlasınlar.

VII Mərhələ: Qiymətləndirmə Qrupların fəaliyyətinin meyarlara əsaslanaraq qiymətləndirilməsinə müəllimin şagirdləri də cəlb etməsi çox maraqlıdır. Şagirdlər şüurlu olaraq özünü və yoldaşının əməyinin qiymətləndirməsini müasir dövrün ən mühüm tələblərindən biri olduğnu dərk etsinlər.

Meyarlar	I qrup	II qrup	III qrup	IV qrup
Tapşırığın tam və düzgün icrası				
İşi vaxtında icraetmə				
Əməkdaşlıq qetmə				
Təqdimetmə				
Ümumi balların miqdarı				

Yekun balı hər bir üzvün zəhmətinə görə paylanmasını onlarin ixtiyarına vermək çox maraqlıdır və şagirdlərdə obyektivlik hisslərini formalaşdırır.

Ev tapşırığı. Yaşadığınız ərazidəki fabrik və kombinatlar haqqında elektron məlumatların hazırlanması

Mövzu 3: EMAL TEXNOLOGİYALARI VƏ VASİTƏLƏRİ 2 saat.

İbtidai sinif müəllimi emal texnologiyaları və emal vasitələri haqqında mükəmməl biliklərə malik olmalıdır. Müəllim sadə emal vasitələrinin daima təkmilləşdirilməsi haqqında və mexanikləşdirilmiş, yəni, elektriklə işləyən avadanlıqlar haqqında nəzəri biliklərə sahib olmalıdır. Birinci dərsdə sadə emal texnologiyaları və vasitələri haqqına məlumat verilməlidir.

Dərs 1. Mövzu: "Emal texnologiyaları və vasitələri" (əl alətləri)

Standart: 1.1.1.; 1.2.2.; 1.2.4.; 2.1.3.

Məqsəd: Şagird. 1.Emal texnologiyalarını nümayiş etdirən təsvirləri tanıyır.

2. Məmulatın hazırlanması üçün uyğun emal vasitələrini seçir. 3. Hazırlanacaq Məmulatın materialına uyğun emal texnologiyalarını seçir. 4. Məişətdə istifadə olunanları digərlərindən fərqləndirir. 5. Hazır nəzəri bilikləri kollektiv həll edir və təqdimatı hazırlayır.

İnteqrasiya: A/d. 1.1.1.;1.1.2.

Dərsin tipi: Yeni bilik verən dərs.

İş formaları: Kiçik qruplarla iş, böyük qruplarla iş.

İş üsulları: Müzakirə, beyin həmləsi, ziqzaq.

Resurslar: Dərslik, iş vərəqləri, qayçı, bağban qayçısı, vintaçan, iynə, çəkic, balta, məngənə, rəndə, bıçaq, mismar, biz, bel, burğu, mişar və s.

DƏRSİN GEDİŞİ

I Mərhələ: Motivasiya, problemin qoyuluşu. Müəllim müxtəlif şəkilləri nümayiş etdirərək şagirdlərə aşağıdakı suallar verir: 1.Şəkildə nə görürsünüz?








2. Bu alətlər harada və hansı işlərdə istifadə olunur?

Şagirdlərin təqribi cavabların müəllim dinlədikdən sonra dərsin mövzusun elan edir.

Tədqiqat sualları: Texnoloji əməliyyatların yerinə yetirilməsində emal vasitələrinin hansı mühüm rolu var?

Şagirdlər tədqiqat sualı ətrafında fikir mübadiləsi edirlər. Müəllim dərsin adını elan edir.

II Mərhələ: Tədqiqatın aparılması

Müəllim sinifdə olan şagirdlərin sayına görə qrupları müəyyənləşdirir. Yaxşı olar ki, qrupların sayı dörd olsun. Qrupda sosial bərabərlik yaradılmalıdır. Qrup üzvləri liderlərini seçməkdə müstəqildirlər. Müəllim qruplara dərslikdə olan mövzunu oxumağı tapşırır. Buna 10 dəq. vaxt ayırır. Sonra mövzunun necə mənimsənilməsini aşağıdakı suallara cavablarla müəyyənləşdirməli: 1.İstehsal müəssisələrində məmulat necə hazırlanır? 2. Emal texnologiyaları haqqında

nə bilirsiniz? 3. Hansı emal texnologiyalarını tanıyırsınız? 4. Hansı emal vasitələrini tanıyırsınız? 5. Emal vasitəsi nədir?

Müəllim qrupların mövzu haqqında olan biliklərin səviyyəsini biləndən sonra iş vərəqlərini paylamalıdır.

I qrup. 1. Emal texnologiyalarını dedikdə nə başa düşürsünüz? 2. Emal vasitəsi deyəndə nə başa düşürsünüz?

II qrup. 1. Qayçı nədir və hansı işləri icra edir?. 2. Qayçının hansı növləri var?

III qrup. 1.Vintaçanın növləri və icra etdikləri işlər hansılardır? 2. İynənin növləri və icra etdikləri işlər nədən ibarətdir?

IVqrup. 1.Çəkiclərin hansı növləri var və hansı işləri icra edir? 2. Baltanın hansı növləri var və görəcəkləri işlər nədir?

III Mərhələ: Məlumat mübadiləsi

Bu mərhələdə hər bir qrup birgəfəaliyyətdə öyrəndikləri nəzəri bilikləri təqdim edirlər. Təqdimat üçün hər qrupdan bir nümayəndə gələrək həm yazılı və həm də şifahi olaraq işlərini təqdim edir. Müəllim qrupların təqdimatını yazılı vərəqlərdə qəbul edir. Hər

bir qrupun cavablarına digər qrupların münasibət bildirmələrini təşkil edir.

IV Mərhələ: Məlumatın müzakirəsi və təşkili

Müəllim müzakirəni təşkil edir. O, suallar verməklə şagirdlərin müstəqil əldə etdikləri biliklərin səviyyəsini müəyyənləşdirir. Bundan sonra qruplara aşağıdakı kimi suallar verir:

1. Məmulatlar necə hazırlanır? (emal texnologiyasından istifadə etməklə hazırlanır). **2. Emal texnologiyaları nədən asılıdır?** (materialların növündən)**. 3.Emal texnologiyaları deyəndə nə başa düşürsünüz?** (məmulatın hazırlanması prosesində istifadə olunan texnoloji əməliyyatlardır). **4. Qayçının hansı növləri var?** (kəsmə vəzifəsinə görə, kağız , katton , parça, metal lövhə və bağ qayçıları). **5. Qayçı hansı işləri yerinə yetirir?** (materialına görə kəsmə işlərini icra edir). **6.Vintaçan nədir və hansı işləri icra edir?** (başında yarığı olan alətdir, yivli məmulatları açıb, bağlanmasında istifadə olunur). **7. İynənin hansı növləri var?** (əl və maşın iynəsi) **8. Çəkic hansı işləri icra edir?.** (birləşdirmədə istifadə edilən mismarı vurmaq üçün). **9. Baltanın hansı növləri var?** (daş və ağac baltaları). **10.Baltanın quruluşu necədir?** (onun tiyəsi metal və sapı ağacdan ibarətdir).

V Mərhələ: Nəticə və ümumiləşdirmə

Müəllim şagirdlərin cavablarını ümumiləşdirir və bəzi yarımçıq qalmış cavabları tamamlayır

VI Mərhələ: Yaradıcı tətbiqetmə

Müəllim şagirdlərə tapşırır ki, İKT-nin nailiyyətlərindən istifadə etməklə növbəti dərsdə tanış olacaqları alətlərin ilkin vəziyyətindən hazırkı halına kimi inkişafı haqqında elektron materiallar hazırlasınlar.

VII Mərhələ: Qiymətləndirmə Qrupların fəaliyyətinin meyarlara əsaslanaraq qiymətləndirilməsinə müəllimin şagirdləri də cəlb etməsi çox maraqlıdır. Şagirdlər şüurlu olaraq özünün və yoldaşının əməyinin qiymətləndirməsinin müasir dövrün ən mühüm tələblərindən biri olduğnu dərk edirlər.

Meyarlar	I qrup	II qrup	III qrup	IV qrup
Tapşırığın tam və düzgün icrası				
İşi vaxtında icraetmə				
Əməkdaşlıq etmə				
Təqdimetmə				
Ümumi balların miqdarı				

Yekun balı hər bir üzvün zəhmətinə görə paylanmasını şagirdlərin ixtiyarına vermək çox maraqlıdır.

Ev tapşırığı. Valideynlərinizin istifadə etdikləri alətlər haqqında məlumatlar hazırlayın.

Dərs 2. Mövzu "Emal texnologiyaları və vasitələri" (elektrik enerjisi ilə işləyən)

Standart: 1.1.1.; 1.2.2.; 1.2.4.; 2.1.3.

Uyğun alətlərin mexaniki növü (elektrik enerjisi ilə işləyən) ilə şagirdlər gördüklərini qeyd etməyi tapşırmalı.

Məqsəd: Şagird: 1.Emal texnologiyalarını nümayiş etdirən təsvirləri tanıyır.

2. Məmulatın hazırlanması üçün uyğun emal vasitələrini seçir. 3. Hazırlanacaq məmulatın materialına uyğun emal texnologiyalarını seçir. 4. Məişətdə istifadə olunanları digərlərindən fərqləndirir. 5. Hazır nəzəri bilikləri kollektiv öyrənərək, təqdim etməyi bacarır.

İnteqrasiya: A/d. 1.1.1.;1.1.2.

Dərsin tipi: Yeni bilik verən dərs.

İş formaları: Kiçik qruplarla iş, böyük qruplarla iş.

İş üsulları: Müzakiirə, beyn həmləsi, ziqzaq.

Resurslar: Dərslik, iş vərəqləri, qayçı, bağban qayçısı, vintaçan, iynə, çəkic, balta, məngənə, rəndə, bıçaq, mismar, biz, bel, burğu, mişar və s.

DƏRSİN GEDİŞİ

I Mərhələ: Motivasiya, problemin qoyuluşu. Müəllim müxtəlif şəkilləri nümayiş etdirərək, şagirdlərə müraciət edərək soruşur, gürdüklərinizin adını söyləməyi soruşur.














Şagirdlər burğu,məngənə, rəndə, elektrorəndə, bıçaq, mişar, elektrorəndə, kəlbətin dəsti. Müəllim şagirdlərə bildirir ki, bu dərsdə mövzunun davamında olan alətlər haqqında bilikərə yiyələnəcəksiniz.

II Mərhələ: Tədqiqatın aparılması

Müəllim sinifdə olan şagirdlərin sayına görə qruplar müəyyənləşdirir. Yaxşı olar ki , qrupların sayı dörd olsun. Qrupda sosial bərabərlik yaradılmalıdır. Qrup üzvləri liderlərini seçməkdə müstəqildirlər. Qruplara dərslikdə olan mövzunu oxumağı müəllim

tapşırır. Buna 10 dəq. vaxt ayırır. Şagirdlərin dərslikdə əldə etdikləri biliklərin səviyyəsini sual-cavabla müəyyən etmək məqsədi ilə suallar verməli: 1. Burğu hansı işləri icra edir?. 2. Elektroburğunun üstünlüyü nədədir? 3.Məngənin vəzifəsi nədən ibarətdir? 4. Rəndə nə iş görür? 5. Elektro rəndə necə işləyir? 6. Bıçağın işi nədən ibarətdir? 7. Hansı mişarları tanıyırsınız? 9. Hansı kəlbətini tanıyırsınız?

Müəllim qrupların nəzəri biliklərinin səviyyələrini müəyyən etdikdən sonra vərəqləri paylamalıdır.

I qrup. 1. Burğunun hansı növləri var? 2. Elektroburğunun üstünlüyü nədir?

II qrup. 1. Məngənənin quruluşu və vəzifəsi nədən ibarətdir? 2. Rəndənin vəzifəsi və hansı növləri var?

III qrup. 1. Mişarın növləri və vəzifələri nədən ibarətdir? 2. Bıçağın vəzifəsi və növləri nədən ibarətdir?

IV qrup. 1. Bel nə üçündür? 2. İnsanlar kəlbətini hansı məqsədlərlə istifadə edir?

Şagirdlərin iki dərsdə əldə etdikləri nəzəri biliklərin ümumi səviyyəsini müəyyən etmək üçün cədvəli doldurmağı tapşırmalı.

№	Alətlər	Adları	Alətlərin icra vəzifələri.
1	Qduncaq emalı üçün alətlər		
2	Metal emalı üçün alətlər		
3	Geym hazılamaq üçün alətlər		
4	Elektrik avadanlıqları		

Təqdimat zamanı hər bir qrup cədvəli doldurmaqla bir daha əldə etdikləri bilikləri nümayiş etməli olur. Bu prosesdə müəllim cavabları onlardan alır. Hər bir qrupun cavabları ümumiləşdirmədə nəzərə alınmalıdır.

III Mərhələ: Məlumat mübadiləsi

Bu mərhələdə hər bir qrup birgəfəaliyyətdə öyrəndikləri nəzəri bilikləri təqdim edirlər. Təqdimat üçün hər qrupdan bir nümayəndə gələrək həm yazılı və həm də şifahi olaraq işlərini təqdim edir. Müəllim qrupların təqdimatını yazılı vərəqlərdə qəbul edir. Hər bir qrupun cavablarına digər qrupların münasibət bildirmələrini təşkil edir.

IV Mərhələ: Məlumatın müzakirəsi və təşkili

Müəllim müzakirəni təşkil edir. O, suallar verməklə şagirdlərin müstəqil əldə etdikləri biliklərin

səviyyəsini müəyyənləşdirir. O qruplara aşağıdakı kimi suallar verir: **1. Burğu nəyə deyilir?** (deşik açmaq üçün nəzərdə tutulan deşici alətdir**). 2. Burğunun hansı növləri var?** (əl burğusu və elektrik burğusu**) 3. Elek-trik burğusu nəyə deyilir?** (deşik açmaq üçün nəzərdə tutulmuş elektromexaniki alətdir) **4. Balta nədir?** (kəsici alət olub, metal başlığa ağac dəstək geydirilmiş alətdir) **5. Məngənənin vəzifəsi nədir?** (çilingərlik və xarratlıqda emal olunan materialı sıxmaq üçün istifadə olunan alətdir**) 6. Rəndə hansı işləri icra etməkdə istifadə olunur?** (oduncağı yonmaq üçün istifadə olunan əl alətidir) **7. Bıçaq nədir?** (kəsici alət olub, rəndədə, ətçəkən maşında, buldozer və s. olan kəsici alətdir) **8. Mişarın hansı növləri var?** (əl ilə və elektromexaniki mişarlar) **9. Biz nədir?** (dəstəkli iynədir) **10. Kəlbətin hansı işlərdə tətbiq olunur?** (çilingər, quraşdırma və elektromontaj işində tətbiq olunur).

V Mərhələ: Nəticə və ümumiləşdirmə

Müəllim şagirdlərin cavablarını ümumiləşdirir və bəzi yarımçıq qalmış cavabları tamamlayır. Şagirdlərin alətlər və onların vəzifələri haqqındakı blikləri ümumiləşdirilir.

VI Mərhələ: Yaradıcı tətbiqetmə

Müəllin şagirdlərə tapşırır ki, İKT-nin nailiyyətlərindən istifadə etməklə növbəti dərsdə tanış

olduqları alətlərin ilkin vəziyyətində hazırkı halı haqqında elektron materiallar hazırlasınlar

VII Mərhələ: Qiymətləndirmə Qrupların fəaliyyətinin meyarlara əsaslanaraq qiymətləndirilməsinə müəllim şagirdləri də cəlb etməsi çox maraqlıdır. Şagirdlər şüurlu olaraq özünün və yoldaşının əməyinin qiymətləndirməsinin müasir dövrün ən mühüm tələblərindən biri olduğnu dərk etsinlər.

Meyarlar	I qrup	II qrup	III qrup	IV qrup
Tapşırığın tam və düzgün icrası				
İşi vaxtında icraetmə				
Əməkdaşlıq etmə				
Təqdimetmə				
Ümumi balların miqdarı				

Yekun balın hər bir üzvün zəhmətinə görə paylanmasını şagirdlərin ixtiyarına vermək çox maraqlıdır.

Ev tapşırığı. Valideynlərinizin istifadə etdikləri alətlər haqqında məlumatlar hazırlayın.

Mövzu: 4. TEXNOLOJİ VASİTƏLƏRİN VƏ MAŞINLARIN TƏSNİFATI. MƏİŞƏT TEXNİKASI (1 saat)

Mövzu: "Texnoloji vasitələrin və maşınların təsnifatı. Məişət texnikası"

Standart: 2.1.1.; 2.1.2.; 2.1.3.; 1.3.5.

Məqsəd: Sagird: 1.Texnoloji maşınları (nəqliyyat, yük, məişət) bir-birindən fərqləndirir. 2.Texnoloji vasitələri (əl alətləri, mexaniki alətləri) bir-birindən fərqləndirir. 3.Məişət texnikalarını bir-birindən fərqləndirir. 4.Təhlükəsizlik qaydalarına əməl edir. 5. Hazırladıqlarını kollektiv fəaliyyətdə təqdimatı edə bilir.

İnteqrasiya: A/d. 1.1.1.;2.1.3.; H/b 4.2.1.

Dərsin tipi: Yeni bilik verən dərs.

İş formaları: Kiçik qruplarla iş, böyük qruplarla iş.

İş üsulları: Müzakiirə, beyn həmləsi, karusel

Resurslar: Dərslik, texnoloji vasitələr (çilingər alətləri, xarrat alətləri, tikinti alət-ləri), elektrik alətlərinin şəkilləri, dərslik, iş vərəqləri, məişət texnikası təsvir etmiş şəkillər. Noutbuk və proyektor.

DƏRSİN GEDİŞİ

I Mərhələ: Motivasiya, problemin qoyuluşu.

Müəllim müxtəlif şəkilləri nümayiş etdirir şagirdlərə müraciət edərək deyir, gürdüklərinizin adını söyləyin.






1.Texnoloji əməliyyatlarda hansı alətlərdən istifadə olunur? (çilingər, xarrat, tikinti alətləri, kənd təsərrüfatı alətləri və s**.) 2.Texnologiya dərslərində hansı alətlərdən istifadə olunur?** (çəkic, dəmir qələm, iskənə, rəngsaz malası, su səpən, bağ qayçısı, lobzik, mişar və s**.) 3. Sizcə maşınlar təyinatına görə hansı qruplara bölünür?** (energetik maşınlar, nəqliyyattexnoloji maşınlar, informasiya maşınları) **4. Hansı məişət texnikasını tanıyırsınız**? (hesablama texnikası, mətbəx texnikası, evdə istifadə olunan məişət cihazları və s.) Şagirdlərin təqribi fikirlərini dinlədikdən sonra müəllim dərsin adını elan etməlidir.

II Mərhələ: Tədqiqatın aparılması

Müəllim sinifdə olan şagirdlərin sayina görə qruplar müəyyənləşdirir. Yaxşı olar ki , qrupların sayı

dörd olsun. Qrupda sosial bərabərlik yaradılmalıdır. Qrup üzvləri liderlərini seçməkdə müstəqildirlər. Müəllim qruplara dərslikdəki mövzunu sərbəst öyrənmələrini tapşırmalı və qrupların nəzəri bilikləri necə öyrənmələrini sual-cavabla müəyyən etməlidir. Onların dərslikdən və şəkildən öyrəndiklərinə əmin olduqdan sonsa suallar yazılmış vərəqləri qruplara paylamalıdır.

I qrup. 1. Texnoloji vasitələrin, maşınların və məişət texnikasının insan həyatında hansı mühüm əhəmiyyəti var? 2.Təyyarələrdə hansı mühərrikdən istifadə olunur?

II qrup. Cədvəldə peşələr üzrə uyğun gələn alətlərin adını yazın.

Kənd təsərrüfatı alətləri	Dülgərlik alətləri	Rəngsaz alətləri

III qrup. Cədvəldə peşələr üzrə üzrə uyğun gələn alətlərin adını yazın.

Xarrat alətləri	Çilingərlik alətləri	Tikinti alətləri

IVqrup. Cədvəldə təsnifatına görə maşınların və məişət texnikasının adını yazın.

Elektrik maşınları	İnformasiya maşınları	Texnoloji maşınlar

III Mərhələ: Məlumat mübadiləsi

Bu mərhələdə hər bir qrup birgəfəaliyyətdə öyrəndikləri nəzəri bilikləri təqdim edirlər. Təqdimat üçün hər qrupdan bir nümayəndə gələrək həm yazılı və həm də şifahi olaraq işlərini təqdim edir. Müəllim qrupların təqdimatını yazılı vərəqlərdə qəbul edir. Hər bir qrupun cavablarına digər qrupların münasibət bildirmələrini təşkil edir.

IV Mərhələ: Məlumatın müzakirəsi və təşkili

Müəllim müzakirəni təşkil edir. O, suallar verməklə şagirdlərin müstəqil əldə etdikləri biliklərin səviyyəsini müəyyənləşdirir. O, aşağıdakı kimi qruplara suallar verir: **1. Hansı çilingərlik alətlərin tanıyırsınız?** (burğu, çəkic, kəlbətin, yeyə, vintaçan, deşikaçan və s.) **2. Xarrat alətləri hansılardır?** (əl burğusu, lobzik, mişar, rəndə, bıçaq, iskənə, balta və s.) **3.Tikinti materiallarından hansıların tanıyır-**

sınız? (elektrik burğusu, çəkic, perforator, dairəvi elektrik mişarı, iskənə, rəngsaz malası, taxta çəkic və s.**) 4. Hansı kənd təsərrüfatı alətlərin tanıyırsınız?** (susəpən, kürək, yaba, bel, dırmıq, dəryaz, kətmən, kotan, toxa, bağ qayçısı və s.) **5. Hansı mühərrikləri tanıyırsınız?** (elektrik, daxiliyanma, xariciyanma mühərriki və s.) **6. Generatorların vəzifəsi nədir?** (mexaniki enerjini elektrik enerjisinə çevirən qurğudur) **7. Hansı maşın alətləri və iş maşınlarını tanıyırsınız?** (metal emalı dəzgahları, kənd təsərrüfatı maşınları, toxuculuq və mətbəə dəzgahları və s.**) 8. Nəqledici maşınlardan hansını tanıyırsınız?** (konveyrlər, qaldırıcı kranlar, nasoslar və s.**) 9. İnformasiya maşınları deyəndə nə nəzərdə tutulur?** (kompüterlər və hesablayıcı maşınlar) **10. Reaktiv mühərriklər harada tətbiqi olunur?** (təyyarələrdə və kosmik raketlərdə) **11. Mətbəxdə mexaniki emal texnikaları hansılardır?** (mikser, blendr, ət maşını və s.) **12. Hansı termik emal texnikaların tanıyırsınız?** (qaz pilətəsi, elektrik pilətəsi, mikrodalğalı soba, elektrik qəfədanı və s.**) 13. Geyimə qulluq texnikası hansılardır?** (paltaryuyan maşın, elektrik ütüsü, paltartikən maşın) **14. Ev yığışdıran və digər cihazlar hansılardır?** (sərinləşdirici, qızdırıcı, saçqu-

rudan, musiqi mərkəzi, televizor, fotoaparat, mobil telefonu və s.).

V Mərhələ: Nəticə və ümumiləşdirmə

Müəllim şagirdlərin cavablarını ümumiləşdirir və bir daha texnoloji vasitələr və maşınların təsnifatını verir, eləcə də məişət texnikasından istifadənin daha geniş yer tutmalı olduğunu vurğulayır. O, şagirdlərə aydın olmayanların geniş izahını verir.

VI Mərhələ: Yaradıcı tətbiqetmə

Uşaqlara dərsdə tanış olduqları əşyaların praktik hazırlanmasın tapşırmalı. Eyni zamanda İKT-nin imkanlarından istifadə edərək texnoloji vasitılər haqqında məlumat hazırlamalı.

VII Mərhələ: Qiymətləndirmə. Qrupların fəaliyyətinin meyarlara əsaslanaraq qiymətləndirilməsinə müəllim şagirdləri də cəlb etməsi çox maraqlıdır. Şagirdlər şüurlu olaraq özünün və yoldaşının əməyini qiymətləndirməsi müasir dövrün ən mühüm tələblərindən biri olduğnu dərk etsinlər.

Meyarlar	I qrup	II qrup	III qrup	IV qrup
Tapşırığın tam və düzgün icrası				
İşi vaxtında icraetmə				
Əməkdaşlıq etmə				
Təqdimetmə				
Ümumi balların miqdarı				

Yekun balın hər bir üzvün zəhmətinə görə paylanmasını onların ixtiyarına vermək çox maraqlıdır.

Ev tapşırığı. Valideynlərinizin istifadə etdikləri texniki avadanlıqların adlarını yazın.

Mövzu 5: ROBOT TEXNİKASI. (1saat)

Mövzu: "Robot texnikası"

Standart: 2.1.1.

Məqsəd: Şagird: Robot texnikasının təsnifatını aparır və onların haqqında kiçik təqdimatlar edir.

İnteqrasiya: A/d. 1.1.2.; 2.1.3.; H/b 4.2.1.

Dərsin tipi: Yeni bilik verən dərs.

İş formaları: Kiçik qruplarla iş, böyük qruplarla iş.

İş üsulları: Müzakiirə, beyn həmləsi, ziqzaq.

Resurslar: Dərslik, robot texnikası təsvir edilmiş şəkillər.

DƏRSİN GEDİŞİ

I Mərhələ: Motivasiya, problemin qoyuluşu. Müəllim müxtəlif şəkilləri nümayiş etdirərək, şagirdlərə müraciət edir və deyir, gördüklərinizin adını söyləyin. Müəllim şagirdlərə aşağıdakı şəkilləri göstərək suallarla müraciət edir:

1.Şəkildə gördüklərinizi nədir? 2. Robotun yaranmasına səbəb nədir? 3. Şəkildə gördüyünüz 6 robotun hər birinin işi haqqında nə bilirsiniz?

Şagirdlərin verdiyi təqribi cavabları müəllim dinlədikdən sonra əlavə məlumatla onların bilik səviyyəsini zənginləşdirəcək. Eyni zamanda müəllim bildirməlidir ki, robotlar insan əməyinin yüngülləşdirməsinə xidmət edir. 44 günlük Vətən müha-

ribəsində pilotsuz aparatların qələbəmizdəki əvəzsiz xidmətləri haqqında da müəllim şagirdlərə məlumat verməlidir. O, şagirdlərə bildirir ki, bu günkü mövzumuz: “Robot texnikası”dır.












II Mərhələ: Tədqiqatın aparılması

Müəllim sinifdə olan şagirdlərin sayına görə qruplar müəyyənləşdirir. Yaxşı olar ki, qrupların sayı dörd olsun. Qrupda sosial bərabərlik yaradılmalıdır. Qrup üzvləri liderlərini seçməkdə müstəqildirlər. Qruplara dərsliyi açaraq mövzunu sərbəst öyrənmələrini tapşırmalı. Qrupların nəzəri bilikləri necə öyrənmələrini sual-cavabla müəyyən etməli və onların dərslikdən və şəkildən öyrəndiklərinə əmin olduqdan sonra suallar yazılmış vərəqləri qruplara paylamalıdır.

I qrup. 1. Siz robotlar haqqında nə bilirsiniz? 2. Robot nədir və necə idarə olunur?

II qrup. 1. Robot nə vaxt yaranıb? 2. Onun hansı növləri vardır?

III qrup. 1. Sofiya robotu haqqında nə bilirsiniz? 2. Bu robotların insan həyatındakı rolu nədən ibarətdir?

IV qrup. 1. Robotların yaradılmasının zəruri səbəbi nədir? 2. Onların müsbət və mənfi cəhətləri hansılardır?

Müəllim işin icrasına 10-15 dəqiqə vaxt ayırır. O, müdaxilə etmədən işin icrasına nəzarət etməlidir. Vaxt tamam olduqdan sonra qrupları təqdimata dəvət etməlidir.

III Mərhələ: Məlumat mübadiləsi Bu mərhələdə hər bir qrup birgəfəaliyyətdə öyrəndikləri nəzəri bilikləri təqdim edirlər. Təqdimat üçün hər qrupdan bir nümayəndə gələrək həm yazılı və həm də şifahi olaraq işlərini təqdim edir. Müəllim qrupların təqdimatını yazılı vərəqlərdə qəbul edir. Hər bir qrupun cavablarına digər qrupların münasibət bildirmələrini təşkil edir.

IV Mərhələ: Məlumatın müzakirəsi və təşkili

Müəllim suallara əsasında müzakirəni təşkil edərək, müzakirə sualların verir:

1. Yeni texnika və texnologiyaların inkişafı nə ilə nəticələnir? (yeni maşın və mexanizmlərin yaranması ilə nəticələnir) **2. Robot hansı məqsədə xidmət edir?**

(robot müxtəlif növ mexaniki əməliyyatları həyata keçirmək üçün nəzərdə tutulur) **3. Robot sözü kimə məxsusdur?** (robot sözü çex yazıçısı Karel Çapekə məxsusdur) **4. Robotların hansı növləri**

var? (sənaye robotları, məişət robotları, təhlükəsizliyi qoruyan robotlar, tibbi robotlar, hərbi robotlar, tədqiqatçı robotlar) **5. Sofiya adlı robot nə vaxt və harada yaranmışdır?** (2015-ci ildə Çində yaranmışdır) **6. Sofiya robotu hansı məqsədlə yaradılmışdır?** (bu robotlar, qocalar evində, parklarda və bir çox tədbirlərdə insanlara kömək üçün yaradılmışdır). **7. Ümumiyyətlə, robotların nə kimi üstünlükləri vardır?** (24 saat fasiləsiz işləmə qabiliyyətinin olması, keyfiyyətli məhsullar hazırlaması, insanlar kimi xəstələnməməsi, istirahət etməməsi, pensiya və maaş tələb etməməsi və s.) **8. Robotların mənfi cəhətləri hansılardır?** (aktiv şəkildə enerji işlədilməsi, yalnız verilmiş proqramla işləməsi, nasazlıqlar olanda problem yaratması, işsizlik yaratması və s.)

V Mərhələ: Nəticə və ümumiləşdirmə Müəllim şagirdlərin cavablarını ümumiləşdirir və bir daha robotlar, onların müxtəlif növləri barədə, yəni dərslikdə olmayanlar haqqında qısa məlumat verməlidir. İnsanların həyatı üçün təhlükə olan yerlərdə robotların işləməsindən istifadə olunur.

VI Mərhələ: Yaradıcı tətbiqetmə Uşaqlara İKT-dən istifadə etməklə "Robotlar aləminə səyahət" mövzusunda hesabat və kartondan robot hazırlamalarını tapşırmalı (evdə).

VII. Mərhələ: Qiymətləndirmə. Qrupların fəaliyyətinin meyarlara əsaslanaraq qiymətləndirilməsinə müəllimin şagirdləri də cəlb etməsi çox maraqlıdır.

Meyarlar	I qrup	II qrup	III qrup	IV qrup
Tapşırığın tam və düzgün icrası				
İşi vaxtında icraetmə				
Əməkdaşlıqetmə				
Təqdimetmə				
Ümumi balların miqdarı				

Yekun balın hər bir üzvün zəhmətinə görə paylanmasını onların ixtiyarına vermək çox maraqlıdır.

Ev tapşırığı: Robbotları müsbət və mənfi cəhətlərinə aid öz fikirlərini hazırlasınlar.

MƏİŞƏT MƏDƏNİYYƏTİ

Mövzu 6: ÖZÜMÜZƏ XİDMƏT EDƏK. (2 saat)

Bu mövzunu yaxşı olar ki, müəllim iki hissəyə ayırsın. Mövzunun tədrisində müəllim sərbəstdir. Məqsəd özünəxidmətlər, sanitariya gigiyena qaydalarına riyayət etmək qaydaları, ətraf aləmin qorunmasının yolları haqqında şagirdlərdə təsəvvürlərin yaradılmasın-dan ibarət olmalıdır. Yaxşı olar ki, 1-ci dərs " Özümüzə xidmət edək", 2-ci dərs isə "Sağlamlığımızı və ətraf mühiti qoruyaq" kimi iki hissədə tədris olunsun. Dərslikdə bu mövzuya aid material çox azdır. Səbəbi ondan ibarətdir ki, uşaqlar uşaq bağçasında bu günə kimi bunlara əməl ediblər.

Dərs 1. Mövzu: "Özümüzə xidmət edək"

Standart: 3.1.1.;3.1.3.; 3.1.5.

Məqsəd: Şagird: 1. Özümüzə xidmətin insan həyatında əhəmiyyətini izah edir. 2.Yemək masası arxasında davranış qaydalarını izah edir. 3. Nahar süfrəsinin hazırlanması qaydaların öyrənir.4. Hazır cavabları təqdim etməyi bacarır.

İnteqrasiya: A/d. 2.1.3. H/b 1.4.1.; 4.1.1.; 4.1.3.

Dərsin tipi: Yeni bilik verən dərs.

İş formaları: Kiçik qruplarla iş, böyük qruplarla iş.

İş üsulları:. Müzakiirə, beyn həmləsi, ziqzaq.

Resurslar: Dərslik, özünəxidməti əks etdirə şəkillər, mətbəxtdə istifadə olunan əşyaların şəkilləri (qablar, çəngəl, qaşıq və s), plastilin.

DƏRSİN GEDİŞİ

I Mərhələ: Motivasiya, problemin qoyuluşu. Müəllim müxtəlif şəkilləri nümayiş etdirərək və şagirdlərə müraciət edərək deyir ki, gördüklərinizin adını söyləyin.









Şagirdlər şəkildə gördüklərinin adlarını sadaladıqdan sonra müəllım onlara aşağıdakı kimi sallar verir:

1. Bunları əmək adlandırmaq olar? 2. Nə üçün məhz əmək adlanır? 3.Bunu özünəxidmət adlandırmaq olar? 4.Özünəxidmət əmək ola bilər?

Müəllim şagirdlərin təqribi cavablarını dinlədikdən sonra dərsin adını elan edir.

II Mərhələ: Tədqiqatın aparılması

Müəllim sinifdə olan şagirdlərin sayına görə qruplar müəyyənləşdirir. Qrupda sosial bərabərlik yaradılmalıdır. Qrup üzvləri liderlərini seçməkdə müstəqildirlər. Qruplara dərslikdəki mövzunu sərbəst öyrənmələrini tapşırmalı. Qrupların nəzəri bilikləri necə öyrənmələrini sual-cavabla müəyyən etməli.

1.Səhər yataqdan qalxanda nə etməliyik? 2. İdmanla məşğul olmaq nə üçün lazımdır? 3. Paltarı nə üçün geyinirik? 4. Ayaqqabı nə üçündür? 5. Bu işlər

necə adlandırmaq olar? 6. Düz qidalanmanın əhəmiyyətləri nədir?

Onların dərslikdən və şəkildən öyrəndiklərinə əmin olduqdan sonra suallar yazılmış vərəqləri qruplara paylamalı. Qruplara ümumi tapşırıq: Plastilindən mətbəx əşyları hazırlamalı. Bütün qruplar aşağıdakı sullara cavabı yazılı hazırlamağı tapşırır:

1. İş rejimi nədir və onun uşaqların həyatındakı müsbət rolu nədir? 2. Bu işləri nə üçün əmək adlandırılır? 3. Nə üçün bu özünəxidmət əməyi adlanır? 4.Gündəlik, qonaqlıq və bayram süfrələri necə olmalıdır?

Bu işlərin icrasıpna 20-25 dəqiqə vaxt ayırmaqla, müdaxilə etmədən işin gedişinə müəllim nəzarət etməlidir.

III Mərhələ: Məlumat mübadiləsi

Bu mərhələdə hər bir qrup birgəfəaliyyətdə öyrəndikləri nəzəri bilikləri təqdim edirlər. Təqdimat üçün hər qrupdan bir nümayəndə gələrək həm yazılı və həm də şifahi olaraq işlərini təqdim edir. Müəllim qrupların təqdimatını yazılı vərəqlərdə qəbul edir. Hər bir qrupun cavablarına digər qrupların münasibət bildirmələrini təşkil edir. Eyni zamanda hazırladıqları mətbəx əşylarını qəbul etməli. Hazırlanmış məmulatlara aid şagirdlərin münasibəti çox önəmlidir.

IV Mərhələ: Məlumatın müzakirəsi və təşkili

Müəllim suallar əsasında müzakirəni təşkil edərək, müzakirə suallarını verir**: 1. İş rejimi deyəndə nə başa düşülür?** (ataqı yığışdırılır, idman edilir, paltarlar geyilir, səhər yeməyi yeyilir və s. cədvəldə öz əksini tapmalıdır.) **2. Nə üçün bu işlər əmək adlanır?** (bütün bu işlərin icrasında enerji sərf olunur).**3. Nə üçün bu əmək özünəxidmət əməyi adlanır?** (şəxsi qayğısı , geyinmək, idman etmək, yemək və s. işlər başa düşülür) **4. Gündəlik süfrə necə olmalıdır?** (ailə üzvlərinin sayına uyğun stol hazırlanır) **5. Qonaqlıq süfrəsi necə olmalıdır?** (milli adətimizə uyğun olaraq, evdə hər şeyin ən yaxşısı qonaq üçündür). **6. Bayram süfrəsi necə olmalıdır**? (şagirdlər evdə gördüklərini xatırlayacaq)

V Mərhələ: Nəticə və ümumiləşdirmə Müəllim şagirdlərin cavablarını ümumiləşdirir və dərslikdəki məlumatları genişləndirir. Dərsin sonunda alınan təlim nəticəsinin əldə olunmasına müəllim əmin olmalıdır.

VI Mərhələ: Yaradıcı tətbiqetmə

Müəllim şagirdlərə müasir tenologiyanın köməyi ilə mözuya aid İKT-nin nailiyyətlərindən istifadə etmələ elektron məlumatlar hazırlamağı tapşırmalıdır.

VII Mərhələ: Qiymətləndirmə Qrupların fəaliyyətinin meyarlara əsaslanaraq qiymətləndiril-

məsinə müəllin şagirdləri də cəlb etməsi çox maraqlıdır. Şagirdlər şüurlu olaraq özünü və yoldaşının əməyinin qiymətləndirməsi müasir dövrün ən mühüm tələblərindən olduğnu dərk etsinlər.

Meyarlar	I qrup	II qrup	III qrup	IV qrup
Tapşırığın tam və düzgün icrası				
İşi vaxtında icraetmə				
Əməkdaşlıq etmə				
Təqdimetmə				
Ümumi balların miqdarı				

Yekun balı hər bir üzvün zəhmətinə görə paylanmasını onlarin ixtiyarına vermək çox maraqlıdır.

Ev tapşırığı: Mövzuya aid şəkillər çəkməli

Dərs 2. Mövzu: "Sağlamlığımızı və ətraf mühiti qoruyaq"

Standart: 3.1.1.; 3.1.2.; 3.1.3.

Məqsəd: Şagird: 1.Sanitariya-gigiyena qaydalarını izah edir. 2.Bitkilərə qulluq qaydalarını şərh edir. 3.Yemək süfrəsinin növlərinə uyğun olaraq qabları, alət və ləvazimatların seçir. 4.Sanitariya-

gigiyena qaydalarının insan həyatında əhəmiyyətini izah edir. 5.Bitkilərin insan sağlamlığının müha-fizəsində rolunu şərh edir. 6. Qoyulan problemlərin cavablarını təqdim etməyi bacarır.

İnteqrasiya: A/d. 2.1.3. H/b 1.4.1.; 4.1.1.; 4.1.3.

Dərsin tipi: Yeni bilik verən dərs.

İş formaları: Kiçik qruplarla iş, böyük qruplarla iş.

İş üsulları: Müzakiirə, beyn həmləsi, ziqzaq.

Resurslar: Dərslik, sanitariya-gigiyena qaydaları və bitkiləri əks etdirən şəkillər və iş vərəqləri.

DƏRSİN GEDİŞİ

I Mərhələ: Motivasiya, problemin qoyuluşu. Müəllim müxtəlif şəkilləri nümayiş etdirərək, şagirdlərə müraciət edər və deyir: gördüklərinizin adını söyləsinlər.









Müəllim şagirdlərdən sıra ilə hər bir şəkilin nəyi izah etdiyini soruşaraq, suallar verir: 1. Birinci şəkil nəyi izah edir? 2. İkinci şəkil nəyi izah edir? 3.Üçüncü şəkil nəyi izah edir? 4. Dördüncü şəkildə uşaqlar nə edirlər? 5. Beşinci şəkildə uşaqlar nə edirlər? 6. Altıncı şəkildə nə görürsünüz? 7. Sanitariya-gigiyena qaydalarına əməl etməyin əhəmiyyəti nədir? 9. Otaq bitkilərinin və ağacların insan həyatında nə kimi rolu var?

Müəllim şagirdlərin cavabların dinlədikdən sonra dərsin adını elan edir. O, qeyd edir ki, mövzuya aid suallar verilib. Bunun əsas səbəbi odur ki, uşaqlar məktəbəqədər təhsil müəssisəsidən (hazırlıq qrupundan) başlayaraq 4-cü sinfə kimi həm nəzəri və həm də əyani təsəvvürə malikdirlər.

II Mərhələ: Tədqiqatın aparılması

Müəllim sinifdə olan şagirdlərin sayina görə qrupları müəyyənləşdirir. Yaxşı olar ki, qrupların sayı dörd olsun. Qrupda sosial bərabərlik yaradılmalıdır.

Qrup üzvləri liderlərini seçməkdə müstəqildirlər. Qruplara dərslikdə mövzunu sərbəst öyrənmələrini tapşırmalı. Qrupların nəzəri bilikləri necə öyrənmələrini sual-cavabla müəyyən etməli. Dəslikdə bu mövzuya aid nəzəri izahat yoxdur. Qoyulmuş sualların cavabların müəllim dinləməli və yanlış cavablara düzəliş etməli.

Tapşırıq: Albom vərəqində meyvə, tərəvəz, bostan bitkiləri, ağaclar, otaq bitkiləri və s. şəkillərini çəkməli, (bütün qruplar).

I qrup. 1. Sağlam olmaq üçün özünüzə necə xidmət etməlisiniz? 2. Hansı tərəvəzləri tanıyırsınız?

II qrup. 1. Sanitariya-gigiyena qaydalarına nə üçün əməl etmək lazımdır? 2. Hansı meyvələri tanıyırsınız?

III qrup. 1. İnsan nə üçün bitkiləri becərir və qulluq edir. 2. Hansı bostan bitkilərin tanıyırsınız?

IV qrup. 1. Venn diaqramı üzrə meyvə və tərəvəzlərin oxşar və fərqli cəhətlərini qeyd edin. 2. Hansı yabanı bitkilərin tanıyırsınız?

III Mərhələ: Məlumat mübadiləsi

Bu mərhələdə hər bir qrup birgəfəaliyyətdə öyrəndikləri nəzəri bilikləri təqdim edirlər. Təqdimat üçün hər qrupdan bir nümayəndə gələrək həm yazılı

və həm də şifahi olaraq işlərini təqdim edir. Müəllim qrupların təqdimatını yazılı vərəqlərdə qəbul edir. Hər bir qrupun cavablarına digər qrupların münasibət bildirmələrini təşkil edir. Eyni zamanda hazırladıqları mətbəx əşyalarını qəbul etməli. Hazırlanmış məmulatlara aid şagirdlərin münasibəti çox önəmlidir.

IV Mərhələ: Məlumatın müzakirəsi və təşkili

Müəllim suallara əsasında müzakirəni təşkil edərək, müzakirə suallarını verir: **1. Sağlam olmaq üçün özünüzə necə xidmət etməlisiniz?** (vaxtında qidalanma, idman etmə, təmizliyə əməl etmə və s.) **2. Hansı tərəvəzləri tanıyırsınız və onun əhəmiyyələri nədir?** (şagirdlər gündəlik həyatlarında istifadə etdikləri tərəvəzləri sadalayır və onlarda olan vitaminlərin olmasını qeyd edirlər) **3. Hansı sanitariya-gigiyena qaydaların tanıyıraınız?** (təmiz olma, dırnaqları tutmalı, əllərin sabunla yuyulması, meyvələri su ilə yumalı, əllər spirtlə dizinfeksiya edilməli, yerə düşən əşyaları yumalı, xəstələnəndə maska taxmalı və s**). 4. Hansı meyvələri tanıyır-sınız?** (alma, armud, heyva, gavalı, göyəm, alça və s.). **5. İnsanların həyatında ağacların hansı rolu var?** (insanların yaşaması üçün oksigen qazın yaradır). **6. Hansı bostan bitkilərini tanıyırsınız?** (onlar

gündəlik həyatlarında qidalandıqları bostan bitkilərini sadalayırlar). **7. Venn diaqramının nə kimi əhəmiyyəti var?** (müxtəlif əşyaların fərqli və oxşar cəhətlərin müəyyən etməkdə). **8. Yabanı bitki dedikdə nə başa düşürsünüz?** (insanın becərmədiyi, çöllükdə bitən**). 9. Ətraf mühitin qorunmasında şagirdlər hansı vəzifəni yerinə yetirməlidirlər?** (ağacları suvarmalı, yaşıllığı qorumalı, ağacların və otaq bitkilərinin yarpaqlarını qırmamalı və s)

V Mərhələ: Nəticə və ümumiləşdirmə Müəllim şagirdlərin cavablarını ümumiləşdirir və dərslikdə çox qısa olan məlumatları genişləndirir. Dərsin sonunda təlim nəticəsinin əldə olunmasına əmin olmalıdır.

VI Mərhələ: Yaradıcı tətbiqetmə. Müəllim şagirdlərə müasir tenologiyanın köməyi ilə mözuya aid İKT-nin nailiyyətlərindən istifadə etməklə elektron məlumatlar hazırlamağı tapşırmalıdır

VII Mərhələ: Qiymətləndirmə Qrupların fəaliyyətinin meyarlara əsaslanaraq qiymətləndirilməsinə müəllimin şagirdləri də cəlb etməsi çox maraqlıdır. Şagirdlər şüurlu olaraq özünün və yoldaşının əməyinin qiymətləndirməsi müasir dövrün ən mühüm tələblərindən olduğnu dərk etsinlər.

Meyar	I qrup	II qrup	III qrup	IV qrup
Tapşırığın tam və düzgün icrası				
İşi vaxtında icraetmə				
Əməkdaşlıq etmə				
Təqdimetmə				
Ümumi balların miqdarı				

Yekun balı hər bir üzvün zəhmətinə görə paylanmasını onlarin ixtiyarına vermək çox maraqlıdır.

Ev tapşırığı:Mövzuya aid şəkillər çəkməli

Mövzu 7: YEMƏK SÜFRƏLƏRİ VƏ ONLARIN TƏRTİBATI (2 saat)

Dərsin iki hissəyə ayırmasında müəllim sərbəstdir. Uşaqlar insanın iştahasının ma-sının necə bəzədilməsindən, yeməyin reseptindən və xörəklərin hazırlanma qayda-sından asılı və ya asılı olmaması dərs prosesində aydınlaşdırılmalıdır.

Dərs 1. Mövzu: " Yemək süfrələri və onların tərtibatı"

Standart: 3.1.4.; 3.1.5.

Məqsəd: Şagird: 1.Estetik cəhətdən baxımlı yemək süfrəsi tərtib edir.2. Yemək süfrəsinin növlərinə uyğun olaraq qabları, alət və ləvazimatları seçir. 3. Nahar süfrəsini tərtib edir.

İnteqrasiya: A/d. 1.1.1.;1.2.3. H/b 1.1.1.; 2.1.1.; 2.1.2.; 4.2.1. T/i: 2.2.4.; İnf.5.2.6.

Dərsin tipi: Yeni bilik verən dərs.

İş formaları: Kiçik qruplarla iş, böyük qruplarla iş.

İş üsulları: Müzakiirə, beyn həmləsi, ziqzaq.

Resursları: Dərslik, yemək süfrələrini əks etdirən şəkillər (səhər, nahar və şam)

DƏRSİN GEDİŞİ

I Mərhələ: Motivasiya, problemin qoyuluşu. Müəllim müxtəlif şəkilləri nümayiş etdirir şagirdlərə müraciət edərək deyir: gördüklərinizin adını söyləyin.





İnsanlar gündə neçə dəfə yemək yeməlidirlər? 1-ci və 2-ci şəkildəki günün hansı vaxtına aiddir? Nahar yeməyi hansı şəkilə aiddir? Şam yeməyinə aid şəkil hansıdır?

Müəllim təqribi cavablar aldıqdan sonra, qidalanmanın insanın həyatında nə kimi rol oynadığına dair şagirdlərin fikrini öyrənməlidir. Dərsin adını elan edir.





II Mərhələ: Tədqiqatın aparılması

Müəllim sinifdə olan şagirdlərin sayına görə qruplar müəyyənləşdirir. Yaxşı olar ki, qrupların sayı dörd olsun. Qrupda sosial bərabərlik yaradılmalıdır. Qrup üzvləri liderlərini seçməkdə müstəqildirlər. Qruplara dərslikdə olan mövzunu sərbəst öyrənmələrini tapşırmalı. Qrupların nəzəri bilikləri necə öyrənmələrini sual-cavabla müəyyən etməli: 1. İnsanın iştahası masanın bəzədilməsindən asılıdırmı? 2. İnsanın iştahası yeməklərin növündən asılıdırmı? 3.Düzgün qidalanmanın əhəmiyyəti nədir? 4. Qida

rejiminin əhəmiyyətləri nədir? 5. Rasion deyəndə nə başa düşürsünüz? 6.Uşaq qidası ilə böyüklərin qidaları eynidir?

7. Menyu deyəndə nə başa düşürsünüz? 8.Yeməyin bəzədilməsi nə deməkdir?

9. Hansı aşpaz alətlərini tanıyırsınız? 10. Normal insana gündə neçə dəfə yemək lazımdır?

Şagirdlərin bilik səviyyəsini yoxladıqdan sonra qruplara iş vərəqlərin müəllim paylamalıdır. Qrupların işinə müdaxilə etmədən işə nəzarət etməldir.

I qrup. 1.Səhər süfrəsində hansı mətbəx əşyalarından istifadə olunur? 2.Səhər-səhər hansı yeməklər yeyilməlidir?

II qrup. 1.Nahar süfrəsində hansı ləvazimatlardan istifadə edilir? 2. Nahar fasiləsində hansı yeməklər yeyilir?

III qrup. 1.Şam süfrəsində hansı ləvazimatlardan istifadə edilir? 2.Şam yemyində nə yeyilməsi lazımdır?

IV qrup. 1. Səhər, nahar və şam süfrəsində hansı yeməklər daha çox vacibdir? 2.Yeməklərin qəbulu qaydaları necə olmalıdır?

III Mərhələ: Məlumat mübadiləsi

Bu mərhələdə hər bir qrup birgəfəaliyyətdə öyrəndikləri nəzəri bilikləri təqdim edirlər. Təqdimat üçün hər qrupdan bir nümayəndə gələrək həm yazılı və həm də şifahi olaraq işlərini təqdim edir. Müəllim qrupların təqdimatını yazılı vərəqlərdə qəbul edir. Hər bir qrupun cavablarına digər qrupların münasibət bildirmələrini təşkil edir.

IV Mərhələ: Məlumatın müzakirəsi və təşkili

Müəllim suallar əsasında müzakirəni təşkil edərək, müzakirə sualların verir: **1. Səhər süfrəsində hansı mətbəx əşyaları masaya qoyulur?** (nimçə, stəkan, çay qaşığı, çörəkqabı, qəndqabı, şəkərqabı, çörək və s.) **2. İnsanın iştahası masanın bəzədilməsindən asılıdırmı?** (iştahanın masanın bəzədilməsindən çox asılıdır) **3.İnsanın sağlamlığı daha çox nədən asılıdır?** (düzgün qidalanmanın insan sağlamlığına əhəmiyyəti çox böyükdür). **4. Qida rejiminin əsas əhəmiyyətləri nədən ibarətdir?** (vaxtlı-vaxtında yeməyin yeyilməsi sağlamlığa əhəmiyyəti böyükdür**). 5. Nahar süfrəsində hansı yeməklər vacibdir?** (əsasən 1-ci və 2-ci yeməklər). **6. Şam zamanı hansı yeməklər yeyilməlidir?** (əsasən yün-

gül yeməklər yatmazdan 4 saat əvvəl) **7. Menyu nə üçündür?** (bu mövcud yemək çeşidlərinin sıralanması deməkdir).

V Mərhələ: Nəticə və ümumiləşdirmə

Müəllim şagirdlərin cavablarını ümumiləşdirir və dərslikdə qısa olan məlumatları genişləndirir. Dərsin sonunda təlim nəticəsi əldə olunmasına əmin olmalıdır.

VI Mərhələ: Yaradıcı tətbiqetmə

Müəllim şagirdlərə müasir tenologiyanın köməyi ilə mövzuya aid İKT-nin nailiyyətlərindən istifadə etmələ elektron məlumatlar hazırlamağı tapşırmalıdır. Eyni zamanda qidalanma haqqında həkim məsləhətlərini yazılı təqdim etmələrini tapşırmalı.

VII Mərhələ: Qiymətləndirmə Qrupların fəaliyyətinin meyarlara əsaslanaraq qiymətləndirilməsinə müəllin şagirdləri də cəlb etməsi çox maraqlıdır. Şagirdlər şüurlu olaraq özünün və yoldaşının əməyinin qiymətləndirməsi müasir dövrün ən mühüm tələblərindən olduğnu dərk etsinlər.

Meyarlar	I qrup	II qrup	III qrup	IV qrup
Tapşırığın tam və düzgün icrası				
İşi vaxtında icraetmə				
Əməkdaşlıq etmə				
Təqdimetmə				
Ümumi balların miqdarı				

Yekun balı hər bir üzvün zəhmətinə görə paylanmasını onlarin ixtiyarına vermək çox maraqlıdır.

Ev tapşırığı: Mövzuya aid şəkillər çəkməli

Dərs 2. Mövzu: "Yemək süfrələri və onların tərtibatı"

Bu dərsdə şagird yaradıcılığına geniş imkan yaradaraq.Meyvələrdən müxtəlif fiqurların alınmasına şərait yaratmaq lazımdır.

Məqsəd: Şagird: 1. Estetik cəhətdən baxımlı yemək süfrəsi tərtib edir.2. Yemək süfrəsinin növlərinə uyğun olaraq qabları, alət və ləvazimatları seçir. 3. Nahar süfrəsini tərtib edir.

İnteqrasiya: A/d. 1.1.1. ;1.2.3. H/b1.1.1.; 2.1.1.; 2.1.2.; 4.2.1. T/i: 2.2.4.; İnf.5.2.6.

Dərsin tipi: Yeni bilik verən dərs.

İş formaları: Kiçik qruplarla iş, böyük qruplarla iş.

İş üsulları: Müzakiirə, beyn həmləsi, ziqzaq.

Resurslar: Dərslik, yemək süfrələrini əks etdirən şəkillər (səhər, nahar və şam)

DƏRSİN GEDİŞİ

I Mərhələ: Motivasiya, problemin qoyuluşu. Müəllim müxtəlif şəkilləri nümayiş etdirərək şagirdlərə müraciət edir və soruşur, gördüklərinin adını söyləməyi tapşırır.





Şagirdlərdən soruşmaq lazımdır ki, süfrəyə meyvələri, tərəvəzləri adi halda da qoymaq olar. Lakin bəzək şəklində qoyulmasının əhəmyyəti nədir? Müəllim onlara dərsin adını elan edir və bildirir ki, bu dərsdə siz müxtəlif meyvə və tərəvəzlərdən istifadə etməklə süfrəni bəzəyəcək fiqurlar hazırlayacaqsınız.



II Mərhələ: Tədqiqatın aparılması

Müəllim sinifdə olan şagirdlərin sayına görə qruplar müəyyənləşdirir. Qrupda sosial bərabərlik yaradılmalıdır. Qrup üzvləri liderlərini seçməkdə müstəqildirlər. Qruplara dərslikdəki açaraq mövzunu sərbəst öyrənmələrini tapşırmalı. Qrupların nəzəri bilikləri necə öyrənmələrini sual-cavabla müəyyən etməli: 1. Bəzəklər necə olmalıdır? 2. Bəzək üçün hansə göyərtilərdən istifadə edilir? 3. Gül şəklində

nələrdən istifadə edilir? 4. Bəzək üçün seçilmiş ərzaqların rəngini necə dəyişmək olar? 5.İş planını nəyə əsaslanaraq hazırlamaq məsləhətdir? 6. Bişmiş yumurtadan hansı fiqurları hazırlamaq olar? 7.Göbələktdən nə hazılamaq daha maraqlı və asan olar? 8. Limondan kəpənək necə hazırlanır? 8. Alma və qarğıdalıdan nə hazırlamaq olar? 9. Armud, üzüm, çiyələk, və zeytundan hansı fiquru hazırlamaq olar? Onların əldə etdikləri nəzəri biliklərin səviyyələri müəyyən olunduqdan sonra müəllim iş vərəqlərini qruplara paylayaraq, müdaxilə etmədən onlara nəzarət etməlidir.

I qrup. 1. Səhər süfrəsinin bəzək elementlərini hazırlayın. 2. Soyutma yumurtadan dovşan hazırlayın.

II qrup.1.Nahar süfrəsinin bəzək elementlərini hazırlayın. 2.Limondan kəpənək hazılayın.

III qrup. 1. Şam süfrəsinin bəzək elementlərini hazırlayın.

2. Alma və qarğıdalıdan "Xərçəng " adlı disert hazırlayın.

IV qrup.1.Səhər, nahar və şam süfrəsinin bəzək elementlərini hazırlayın.

2. Bayram yumurtalarından xonçanın bəzə-dilməsi.

Müəllin çətinlik çəkən qruplara bəzi işlərdə istiqamət verə bilər. Qrup işinə müəyyən vaxt ayırır.Qeyd edir ki, hansı qrup işini tez və estetik cəhətdən gözəl hazırlasa, qiyməti yüksək olacaq. Bu şərtlər şagirdlər məsuliyyətini artıracaq və hazırladığının keyfiyyətli olmasına cəhd etməsinə səbəb olacaq.

III Mərhələ: Məlumat mübadiləsi

Bu mərhələdə hər bir qrup birgə fəaliyyətdə öyrəndikləri nəzəri bilikləri təqdim edirlər. Təqdimat üçün hər qrupdan bir nümayəndə gələrək həm yazılı və həm də şifahi olaraq işlərini təqdim edir. Yaxşı olar ki, hazırlanmış məmulatı qrupun başqa üzvü təqdim etsin. Müəllim qrupların təqdimatını yazılı vərəqlərdə qəbul edir. Hər bir qrupun cavablarına digər qrupların münasibət bildirmələrini təşkil edir.

IV Mərhələ: Məlumatın müzakirəsi və təşkili

Müəllim suallar əsasında müzakirəni təşkil edərək, müzakirə suallarını verir: **1. Səhər süfrəsinin bəzək elementləri nələr ola bilər?** (şəkər, yağ, qaymaq, pendir, şor, şəkər tozu, çörək və s.). **2. Sağlam qidalanmanın sağlamlığa nə kimi müsbət təsirləri var?** (qidalanma insanın sağlamlığında mühüm əhəmiyyətə malikdir). **3. Qida qəbulu**

arasında fasilə nə qədər olmalıdır? (fasilə 5-6 saatdan az olmamalıdır, şam isə yatmazdan 4 saat əvvəl olmalıdır.) **4. Bəzək üçün hansı tərəvəzlərdən istifadə olunur?** (göyərtilərdən, kök, turp, çuğundur kimi tərəvəzlərin çiy və bişmişi**). 5. Bəzək üçün hansı təbii rənglərdən istifadə olunur?** (çuğundur şirəsindən və zəfərandan). **6.Süfrələrin gül şəklində bəzədilməsində nələrdən istifadə edilir?** (turpdan ağ, çuğudurdan isə qırmızı güllər kəsmək olar.) **7. Soyutma yumurtadan hansı bəzəkləri hazırlamaq olar?** (dovşan və göbələk**). 8. Limon dilimlərindən hansı fiqur hazırlamaq olar?** (kəpənək hazırlamaq olar**). 9. Almadan və qarğıdalıdan nə hazırlamaq olar?** (xərçəng şəkilli desert). **10. Armud, üzüm, çiyələkdən və zeytundan hansı disert hazırlanır?** (kirpi adlı desert).

V Mərhələ: Nəticə və ümumiləşdirmə

Müəllim şagirdlərin cavablarını ümumiləşdirir və dərslikdə çox qısa olan məlumatları genişləndirir. Dərsin sonunda təlim nəticəsinin əldə olunmasına əmin olmalıdır.

VI Mərhələ: Yaradıcı tətbiqetmə

Müəllim şagirdlərə müasir texnologiyanın köməyi ilə mözuya aid İKT-nin nailiyyətlərindən

istifadə etmələ elektron məlumatlar hazırlamağı daha maraqlı süfrə bəzədilməsinə aid məlumatların toplanmasını tapşırmalıdır.

VII Mərhələ: Qiymətləndirmə Qrupların fəaliyyətinin meyarlara əsaslanaraq qiymətləndirilməsinə müəllin şagirdləri də cəlb etməsi çox maraqlıdır. Şagirdlər şüurlu olaraq özünün və yoldaşının əməyinin qiymətləndirməsi müasir dövrün ən mühüm tələblərindən olduğnu dərk etsinlər.

Meyar	I qrup	II qrup	III qrup	IV qrup
Tapşırığın tam və düzgün icrası				
İşi vaxtında icraetmə				
Əməkdaşlıq etmə				
Təqdimetmə				
Ümumi balların miqdarı				

Yekun balı hər bir üzvün zəhmətinə görə paylanmasını onlarin ixtiyarına vermək çox maraqlıdır.

Ev tapşırığı: Maraqlı süfrə modellərinin rəsmlərini hazırlasınlar.

Mövzu 8: QONAQ VƏ BAYRAM SÜFRƏLƏRİ (2 saat)

Şagirdləri Azərbaycan xalqının qonaqpərvərliyini əks etdirən video-süjetlərlə tanış etmək daha maraqlı olar. Milli adətlərimizdə qonaq evin ən əziz adamıdır. Qonaq otağı, qonaq üçün yorğan-döşək, ən ləziz yeməklər, qonaq düşmən də olsa, sığınanda qorumaq türk xalqlarını digərlərindən həmişə fərqləndirmişdir. Bu mövzunun tədrisində müəllim öz şəraitinə uyğun tədris etməkdə müstəqildir. Biz tövsiyə edirik ki, 1-ci dərs "Qonaq süfrəsi" və 2-ci dərs isə "Bayram süfrəsi" mövzusu kimi tədris olunsun.

Dərs 1. Mövzu "Qonaq süfrələri"

Standart: 3.1.3.; 3.1.4.;3.1.5.

Məqsəd: Şagird:1.Estetik baxımlı qonaq süfrəsi tərtib edir.2. Qonaqlıq süfrəsinin növlərinə uyğun olaraq qabları, alət və ləvazimatları seçir. 3. Qonaqlıq süfrəsini tərtib edir. 4.Qonaqlıq süfrələri ətrafında qrup tərkibində davranış bacarıqlarını nümayiş etdirir.5.Qrup işini təqdim etməyi bacarır.

İneqrasiya: A/d. 2.1.3. ;H/b 3.1.1.; T/i: 2.2.4.; İnf.5.2.6.

Dərsin tipi: Yeni bilik verən dərs.

İş formaları: Kiçik qruplarla iş, böyük qruplarla iş.

İş üsulları: Müzakirə, beyn həmləsi, ziqzaq.

Resuslar: Dərslik, qonaqlıq süfrələrini əks etdirən şəkillər (nahar və ya şam)

DƏRSİN GEDİŞİ

I Mərhələ: Motivasiya, problemin qoyuluşu. Müəllim müxtəlif şəkilləri nümayiş etdirir, şagirdlərə müraciət edərək deyir ki, gördüklərinizin adını söyləsinlər.

1. Evdə ən yaxşı nə varsa valideynləriniz kim üçün saxlayır? 2. Ən qiymətli qablarda yeməyi kimlərə verirlər? 3. Məclisinizin yuxarı başında kim oturur?. Müəllim şagirdlərdən təqribi cavabları aldıqdan sonra, elan edir ki, bu günkü dərsimizin adı "Qonaq süfrəsi"-dir. Qonaq və qonaqlıq haqqında şagirdlərin evlərində rast gəldikləri müxtəlif təəssüratları dinləyərək, qonaqlıq süfrəsinə aid şəkilləri ekrana gətirir və onları dinləyir.

Onlar şəkildə gördükləri haqqında evlərində gördükləri ilə müqayisə etməklə fikirlərini sərbəst ifadə etməyə müəllim şərait yaratmalıdır.

II Mərhələ: Tədqiqatın aparılması

Müəllim sinifdə olan şagirdlərin sayina görə qruplar müəyyənləşdirir. Qrupda sosial bərabərlik yaradılmalıdır. Qrup üzvləri liderlərini seçməkdə müstəqildirlər.Qruplara dərsliydəki açaraq mövzunu sərbəst öyrənmələrini tapşırmalı. Qrupların nəzəri bilikləri necə öyrənmələrini sual-cavabla müəyyən etməli: 1.Qonaq deyəndə kimlər nəzərdə tutulur? 2.Xalqımızı digər xalqlardan fərqləndirən hansı xüsusiyyətlərimiz var? 3.Bizim adətimizə görə qonaq necə qarşılanmalıdır?. 4.Qonaq süfrəsi necə olur?. 5. Qonağa hansı yeməklər bişirilir?. 6. Qonaqlıq masası necə bəzədilir? Müəllim şagirdlərin dərslikdən öyrəndikləri nəzəri biliklərin səviyyəsini müəyyən etdikdən sonra iş vərəqlərini paylamalıdır.

I qrup. 1. Qonaq süfrəsini bəzəmək üçün hansı ləvazimatlardan istifadə olunur? 2.Qonaqlıqda hansı yeməklər bişirilir?

II qrup. 1.Azərbaycan xalqının qonaqpərvərliyi haqqında nə bilirsiniz? 2.Evinizdə hansı ev əşyaların qonaq üçün saxlayırlar?

III qrup. 1. Azərbaycan mətbəxi haqqında nə bilisiniz?. 2.Qonaqlıqlarda və ziyafətlərdə qəbul və qonaqların yerləşdirilməsi necə olmalıdır?

IV qrup. 1.Qonaq süfrəsi ilə adi süfrənin fərqi nədir? 2. Süfrədə meyvə və sular (meyvə şirələri) necə verilməlidir?

Müəllim qruplara vərəqləri payladıqdan sonra müdaxilə etmədən onlara nəzarət etməlidir. Qabaq-cadan onlara icra vaxtını da bildirməlidir.

III Mərhələ: Məlumat mübadiləsi

Bu mərhələdə hər bir qrup birgəfəaliyyətdə öyrəndikləri nəzəri bilikləri təqdim edirlər. Təqdimat üçün hər qrupdan bir nümayəndə gələrək həm yazılı və həm də şifahi olaraq işlərini təqdim edir. Yaxşı olar ki, hazırlanmış məmulatı qrupun başqa üzvü təqdim etsin. Müəllim qrupların təqdimatını yazılı vərəqlərdə qəbul edir. Hər bir qrupun cavablarına digər qrupların münasibət bildirmələrini təşkil edir.

IV Mərhələ: Məlumatın müzakirəsi və təşkili

Müəllim suallar əsasında müzakirəni təşkil edərək, müzakirə sualların verir: **1. Xalqımızın hansı keyfiyyətləri ilə başqalarından fərqlənirlər?** (qonaqpər-vərliyi, əliaçıqlığı, səxavətliliyi ilə fərqlənir**). 2.Qonaq necə qarşılanır?** (böyük ehtiramla**). 3. Azərbaycan mətbəxinin ən ləziz təamları hansılardır?** (qoyun ətindən tikə kabab, mal ətindən lülə kabab, plov, dolma və s.).**4.Süfrədə içmək üçün nələr olmalıdır?** (meyvə şirəsi, şərbət, kompot, badamlı, sirab, bulaq suyu və s.). **5. Hər bir azərbaycanlının evində nələr qonaq üçün saxlanılır?** (qonaq otağı, yorğan, döşək, balış, süfrə, qiymətli qablar və s.). **6. Çəngəl, bıçaq, qaşıq necə yerləşdirilməlidir?** (nimçənin sağ tərəfinə qaşıq və bıçaq, sol tərəfinə isə çəngəl qoyulmalıdır**). 7. Adi süfrə ilə qonaqlıq süfrəsinin fərqi nədir?** (adi sufrə sadə, qonaq süfrəsi zəngin olmalıdır). **8. Çörək süfrəyə necə qoyulmalıdır?** (içərisinə ağ salfet qoyulmuş çörək qablarında nazik doğranmış şəkildə). 9.**Yeməklər masaya necə verilir?** (böyük qablarda böyük qaşıqla**). 10. Düru yeməklər hansı qablarda verilir?** (dərin nimçələrdə). **11.Məclisin əvvəlində və sonunda nə verilir?** (əvvəldə çay, sonunda isə meyvə).

V Mərhələ: Nəticə və ümumiləşdirmə

Müəllim şagirdlərin cavablarını ümumiləşdirir və dərslikdə çox-çox qısa olan məlumatları genişləndirir. Dərsin sonunda təlim nəticəsi əldə olunmasına əmin olmalıdır.

VI Mərhələ: Yaradıcı tətbiqetmə

Müəllim şagirdlərə müasir texnologiyanın köməyi ilə mövzuya aid İKT-nin nailiyyətlərindən istifadə etmələ elektron məlumatlar hazırlamağı tapşırmalıdır. Xalqımızın qonaqpərvərliyini əks etdirən məlumatları tolayaraq növbəti dərsdə təqdim etməli.

VII Mərhələ: Qiymətləndirmə Qrupların fəaliyyətini meyarlara əsaslanaraq qiymətləndirilməsinə müəllimin şagirdləri də cəlb etməsi çox maraqlıdır. Şagirdlər şüurlu olaraq özünün və yoldaşlarının əməyini qiymətləndirməsi müasir dövrün ən mühüm tələblərindən olduğnu dərk etsinlər.

Meyar	I qrup	II qrup	III qrup	IV qrup
Tapşırığın tam və düzgün icrası				
İşi vaxtında icraetmə				
Əməkdaşlıq etmə				
Təqdimetmə				
Ümumi balların miqdarı				

Yekun balı hər bir üzvün zəhmətinə görə paylanmasını onlarin ixtiyarına vermək çox maraqlıdır.

Ev tapşırığı: Maraqlı süfrə modellərinin rəsmlərini hazırlasınlar.

Dərs 2. Mövzu "Bayram süfrəsi"

Standart: 3.1.3.; 3.1.4.;3.1.5.

Məqsəd: Şagird.

1. Estetik baxımlı qonaq süfrəsi tərtib edir.2. Qonaqlıq süfrəsinin növlərinə uyğun olaraq qabları, alət və ləvazimatları seçir. 3. Qonaqlıq süfrəsini tərtib edir. 4.Qonaqlıq süfrələri ətrafında qrup tərkibində davranış bacarıqlarını nümayiş etdirir.5. Novruz bayramı şirniyyatlarını plastilindən hazırlayır. 6. Qrup işini təqdim etməyi bacarır.

İnteqrasiya: A/d. 2.1.3. ;H/b 3.1.1.; T/i: 2.2.4.; İnf.5.2.6.

Dərsin tipi: Yeni bilik verən dərs.

İş formalar: Kiçik qruplarla iş, böyük qruplarla iş.

İş üsulları: Müzakirə, beyn həmləsi, ziqzaq.


Resurslar: Dərslik, Novruz bayrami süfrələrini əks etdirən şəkillər (nahar və ya şam), plasilin, rəngli kağızlar, qayçı və taxta lövhə.

DƏRSİN GEDİŞİ

I Mərhələ: Motivasiya, problemin qoyuluşu. Müəllim müxtəlif şəkilləri nümayiş etdirərək, şagirdlərdən gördükləri haqda fikirlərini söyləmələrini tapşırır.







Şagidlərərin fikirlərini dinlədikdən sonra müəllim onlara dərslikdə olmayan nəzəri bilikləri verməlidir. Bunu hazır nəql etməklə deyil, sual-

cavabla etmək və onların fikirlərini öyrənmək daha maraqlıdır. O, hansı bayramdır, səməni göyərdirlər? Uşaqlar "Novruz bayramıdır" dedikdən sonra müəllim dərsin adını elan edir. Qeyd edir ki, bu gün siz bayram süfrəsinin necə bəzədilməsi ilə tanış olacaqsınız.

II Mərhələ: Tədqiqatın aparılması

Müəllim sinifdə olan şagirdlərin sayina görə qruplar müəyyənləşdirir. Qrupda sosial bərabərlik yaradılmalıdır. Qrup üzvləri liderlərini seçməkdə müstəqildirlər. Qruplara dərslikdə mövzunu sərbəst öyrənmələrini tapşırmalı. Qrupların nəzəri bilikləri necə öyrənmələrini sual-cavabla müəyyən etməli: 1. Bayram nədir? 2. Hansı bayramları tanıyırsınız? 3.Hansı bayramda təmizlik işi aparılır. 4.Səməni necə göyərdilir? 5. Bayram masasını nələr bəzəyir? 5. Bayram xonçasını bəzəyən nələrdir? 5.Bu bayramda hansı şirniyyatlar bişirilir? 6.Bayram axşamı ən çox sevinən kimlərdir?

Tapşırıq. Bu dərsdə bütün qruplar bayram xonçasını bəzəyən şirniyyatları plastilindən hazırlayacaq.

Müəllim qruplara suallar yazılmış vərəqləri paylayır və onlara icra üçün vaxt verir. İşin gedişinə müdaxilə etmədən nəzarət edir.

I qrup. 1. Respublikamızda hansı bayramlar yüksən səviyyədə qeyd olunur?

2. Bayram süfrəsi necə olmalıdir?

II qrup. 1. Novruz bayramının digər bayramlardan fərqi nədir? 2. Novruzun rəmzi nədədir?

III qrup. 1. Novruz süfrəsi adi süfrədən hansı əlamətlərinə görə fərqlənir?

2. Novruz bayram xonçası necə olmalıdır?

IV qrup. 1. Hansı Novruz şirniyyatlarını tanıyırsınız? 2. Bu bayramın hansı üstün xüsusiyyətləri var?

Müəllim verdiyi vaxtın tamamından sonra qrupları təqdimata dəvət edir.

III Mərhələ: Məlumat mübadiləsi

Bu mərhələdə hər bir qrup birgə fəaliyyətdə öyrəndikləri nəzəri bilikləri təqdim edirlər. Təqdimat üçün hər qrupdan bir nümayəndə gələrək həm yazılı və həm də şifahi olaraq işlərini təqdim edir. Yaxşı olar ki, hazırlanmış məmulatı qrupun başqa üzvü təqdim etsin. Müəllim qrupların təqdimatını yazılı vərəqlərdə qəbul edir. Hər bir qrupun cavablarına digər qrupların münasibət bildirmələrini təşkil edir.

IV Mərhələ: Məlumatın müzakirəsi və təşkili

Müəllim suallar əsasında müzakirəni təşkil edərək, müzakirə sualların verir: **1.Xalqımız hansı bayramı daha yaxşı qeyd edir?** (novruz bayramını).

2.Novruz bayramı ərəfəsində hansı işlər görülür? (təmizlik, abadlıq işləri aparılır). **3.Bayram süfrəsi necə olur?** (nimçələr, qaşıqlaq, çəngəllər, bıçaqlar, sular, salatlar, səməni, meyvə qabları, salfetlər və s.). **4.Novruz bayramının digər bayramlardan üstünlüyü nədir?** (ulularımızdan miras qalmış bu bayramda küslülər barışır, torpaq canlanır, hamı təzə paltar geyinir və s**.). 5.Novruzun rəmzi nədir?** (bu bayramda insanlar torpağın rəmzi olan buğda göyərdir, yəni səməni hazırlayır).**6. Novruz süfrəsi adi süfrədən hansı əlamətlərinə görə fərqlənir?** (başqa bayramlarda süfrə sadə olur, novruz süfrəsində müxtəlif növlü yeməklər, şirniyyatlarla). **7.Novruz bayrami xonçası necə olmalıdır?** (ortasında səməni, kənarlarında dairə şəklində şəkərbura, paxlava, şorçörək,badambura, ətrafənda şamlar bərkidilmiş tort və s.).

V Mərhələ: Nəticə və ümumiləşdirmə

Müəllim şagirdlərin cavablarını ümumiləşdirir və dərslikdə çox qısa olan məlumatları genişləndirir. O, dərsin sonunda təlim nəticəsi əldə olunmasına əmin olmalıdır.

VI Mərhələ: Yaradıcı tətbiqetmə

Müəllim şagirdlərə müasir texnologiyanın köməyi ilə mözuya aid İKT-nin nailiyyətlərindən istifadə etməklə elektron məlumatlar hazırlamağı

tapşırmalıdır.Novruza həsr olunmuş maraqlı məlumatları tapıb, təqdim etsinlər.

VII Mərhələ: Qiymətləndirmə Qrupların fəaliyyətinin meyarlara əsaslanaraq qiymətləndirilməsinə müəllim şagirdləri də cəlb etməsi çox maraqlıdır. Şagirdlər şüurlu olaraq özünün və yoldaşının əməyinin qiymətləndirməsi müasir dövrün ən mühüm tələblərindən olduğnu dərk etsinlər.

Meyar	I qrup	II qrup	III qrup	IV qrup
Tapşırığın tam və düzgün icrası				
İşi vaxtında icraetmə				
Əməkdaşlıq etmə				
Təqdimetmə				
Ümumi balların miqdarı				

Yekun balı hər bir üzvün zəhmətinə görə paylanmasını onlarin ixtiyarına vermək çox maraqlıdır.

Ev tapşırığı: Novruz bayramı rəmzlərinin rəngli kağızlardan hazırlanması.

Mövzu 9. YEMƏK MASASI ƏTRAFINDA DAVRANIŞ QAYDALARI (2 saat)

Mövzuya proqramda 2 saat vaxt ayrılmışdır. Dərslikdə qaydaların sayı 14 ədəddir. Lakin müəllim əlavə ədəbiyyatlardan sayı artırmaqda müstəqildir. Uşaqların çoxu qaydalar haqqında uşaq bağçasında vərdişlər əldə ediblər. Yaxşı olar ki, müəllim qaydaların 7-sini 1-ci və qalanını 2-ci dərsdə tədris etsin.

Dərs 1. Mövzu: "Yemək masası ətrafında davranış qaydaları"

Standart: 3.1.3

Məqsəd: Şagird:

1. Yemək masası ətrafında qrup tərkibində davranış bacarıqlarını nümayiş etdirir. 2.Qonaq gedərkən və ya qonaq qəbul edərkən davranış qaydalarına riayət etməyi bacarır. 3.Sağlamlığa mənfi təsirli oturuş qaydalarına deyil, düzgün qaydaları icra edir. 4. Qoyulmuş problemlərin kollektiv həllinə nail olmaqla, cavabları təqdim etməyi bacarır.

İnteqrasiya: A/d. 1.2.1.; 1.2.3. H/b 2.1.2.; T/i: 2.2.4.; İnf.3.2.6.

Dərsin tipi: Yeni bilik verən dərs.

İş formaları: Kiçik qruplarla iş, böyük qruplarla iş.

İş üsulları: Müzakirə, beyn həmləsi, ziqzaq.

Resurslar: Dərslik, noutbuk, proyektor, müxtəlif şəkillər

DƏRSİN GEDİŞİ

I Mərhələ: Motivasiya, problemin qoyuluşu. Müəllim müxtəlif şəkilləri nümayiş etdirərək, şagirdlərdən gördükləri haqda fikiərini söyləmələrini tapşırmalı. Şəkilləri nümayiş etdirməklə şagirdləri uşaq bağçasında və ibtidai sinfin 4-cü sinfinə qədər əldə etdikləri vərdişləri bir daha xatırlamaqda böyük fayda vardır. Müəllim şəkillərdə gördükləri haqqında şagirdləri öyrətməlidir.






Uşaqların fikir və rəylərini dinlədikdən sonra müəllim elan edir ki, bu günki dərsimiz "Yemək masası ətrafında davranış qaydaları"dır. Eyni zamanda onlara bildirməlidir ki, bu qaydalar təkcə yemək yeyəndə deyil, bütün işlərin icrasında şagirdlərin sağlamlığına xidmət etməlidir.

II Mərhələ: Tədqiqatın aparılması

Müəllim sinifdə olan şagirdlərin sayına görə qruplar müəyyənləşdirir. Qrupda sosial bərabərlik yaradılmalıdır. Qrup üzvləri liderlərini seçməkdə müstəqildirlər. Qruplara dərslikdə olan mövzunu sərbəst öyrənmələrini tapşırmalı. Dərslikdə 14 bənddən ibarət qaydanın 7-sini öyrənməyi tapşırmalı. Qrupların nəzəri bilikləri necə öyrənmələrini sual-cavabla müəyyən etməli: 1. Məşiət mədəniyyəti deyəndə nə başa düşürsünüz? 2. Qonaq masa arxasında nə vaxt oturmalıdır? 3. Masa arxasında necə

oturmaq lazımdır? 4. Qida qəbulu zamanı necə oturmaq lazımdır? 5. Bıçaqla necə davranmaq lazımdır? 6. Uzaqda qoyulmuş yeməyi necə götürməli? 7. Parça salfetdən necə istifadə etməli? 8. Çəngəllə yeməyi yeyəndə onu hansı əllə tutmaq lazımdır? 9. Bıçaq və çəngəllə necə davranmaq lazımdır?

Müəllim verilən suallara təqribi cavablar aldıqdan sonra, iş vərəqlərini paylamalı. Muəllim tapşırıqları verdikdən sonra müdaxilə etmədən işin icrasına nəzarət etməli. Görüləcək işə müəyyən vaxt verməli.

I qrup. 1. Məişət mədəniyyəti deyəndə nə başa düşürüsnüz? 2. Masa arxasında necə oturmaq lazımdır?

II qrup. 1. Qida qəbulu zamanı dirsəkləri necə etmək lazımdır? 2. Qidanı yeyərkən bıçaqla necə davranmalı?

III qrup. 1. Sizdən uzaqda qoyulan yeməyi necə götürmək lazımdır? 2.Yeməyi çəngəllə yemə qaydası necədir?

IV qrup. 1. Parça salfetdən necə istifadə etməli? 2. Bıçaq və çəngəldən necə istifadə etmək olar?

Müəllim mətnə görə qruplara yeni mövzunun öyrənilməsinə müəyyən vaxt ayırır. Onlara verilən

vaxt tamamlandıqdan sonra müəllim onların təqdimatın təqdimatın təşkil edir.

III Mərhələ: Məlumat mübadiləsi

Bu mərhələdə hər bir qrup birgəfəaliyyətdə öyrəndikləri nəzəri bilikləri təqdim edirlər. Təqdimat üçün hər qrupdan bir nümayəndə gələrək həm yazılı və həm də şifahi olaraq işlərini təqdim edir. Yaxşı olar ki, hazırlanmış məmulatı qrupun başqa üzvü təqdim etsin. Müəllim qrupların təqdimatını yazılı vərəqlərdə qəbul edir. Hər bir qrupun cavablarına digər qrupların münasibət bildirmələrini təşkil edir.

IV Mərhələ: Məlumatın müzakirəsi və təşkili

Müəllim sualların əsasında müzakirəni təşkil edərək, müzakirə sualların verir: **1. Məişət mədəniyyəti nədir?** (masa arxasında yemək və davranış qaydalarına əməl etmək). **2. Masa arxasında necə oturmaq lazımdır?** (düz oturmalı, masaya dirsəklənmək olmaz). **3.Qida qəbulu zamanı necə oturmalı?.** (dirsəkləri geniş açmadan, yanındakına mane olmadan oturmalı). **4. Bıçaqla necə davranmalı?** (bıçaqla yeməyi ağıza qoymaq olmaz, əks halda ağız nahiyəsini zədələmək olar). **5.Uzaqda qoyulan yeməyi necə götürmək lazımdır?** (yemək qabın sürüşdürmək olmaz, qonşundan xahiş etməlisən**).**

6.Yemək yeyəndə çəngəli hansı əlində tutmalı? (sağ əldə tutmalı). **7.Parça salfetlə necə davranmaq lazımdır?** (salfeti açaraq dizlərin üstünə sərməli). **8.Çəngəl və bıçaqla hansi işlər yerinə yetirilir?** (əti kəsərkən çəngəli sol, bıçağı isə sağ əldə tutmalı).

V Mərhələ: Nəticə və ümumiləşdirmə

Müəllim şagirdlərin cavablarını ümumiləşdirir və dərslikdə çox qısa olan məlumatları genişləndirir. Dərsin sonunda təlim nəticəsi əldə olunmasına əmin olmalıdır.

VI Mərhələ: Yaradıcı tətbiqetmə

Müəllim suallarla müzakirəni təşkil edir. Qruplara aşağıdakı sualları verir:

1. Kərtənkələni dərinləşdirilmiş relyeflə hazırlayarkən hansı vasitələrdən istifadə edir? (plastilini lövhədə yaymaq, faktura səthi vermək lazımdır).

2. Kərtənkələni dərinləşdirilmiş relyeflə hazırlayarkən hansı yolla hazırlayacaqsınız? (cızma yolu ilə). **3. Dərinləşdirilmiş relyef və çoxqatlı cızma nə ilə fərqlənir?**

V Mərhələ: Nəticə və ümumiləşdirmə

Müəllim şagirdlərin cavablarını ümumiləşdirir və bəzi yarımçıq qalmış cavabları tamamlayır. Onların hazırladıqları məmulatlarda əl qabiliyyətlərinin

inkişafına, simmetriyaya, estetikliyə və keyfiyyətə diqqət ayırmalıdır.

VI Mərhələ: Yaradıcı tətbiqetmə

Müəllim şagirdlərə İKT-nin nailiyyətlərindən istifadə etməklə təbii relyeflər haqqında elektron məlumatlar toplamalarını tapşırmalıdır.

VII Mərhələ: Qiymətləndirmə Qrupların fəaliyyətinin meyarlara əsaslanaraq qiymətləndirilməsinə müəllimin şagirdləri də cəlb etməsi çox maraqlıdır. Şagirdlər şüurlu olaraq özünün və yoldaşının əməyinin qiymətləndirməsi müasir dövrün ən mühüm tələblərindən biri olduğunu bilməlidir.

Meyar	I qrup	II qrup	III qrup	IV qrup
Tapşırığın tam və düzgün icrası				
İşi vaxtında icraetmə				
Əməkdaşlıq etmə				
Təqdimetmə				
Ümumi balların miqdarı				

Yekun ballı hər bir üzvün zəhmətinə görə paylanmasını onlarin ixtiyarına vermək çox maraqlıdır.

Ev tapşırığı: Dərinləşdirilmiş çiçək relyefinin hazılanması.

Mövzu 19: PLASTİLİN LENTDƏN KOMPOZİSİYA (2 saat)

Müəllim və tələbələrin diqqətinə bir məlumatı çatdırmaq istəyirik ki, müəllif dərslikdə mövzuya 2 saat vaxt verib. Mövzu dərslikdə qısa verilib. Burada məqsəd bizim fikrimizcə, geniş məlumat əldə etməyi müəllif, müəllim və şagirdlərin ixtiyarına buraxmışdır. Ona görədə müasir müəllim daima öz üzərində çalışmalı və metodiki ustalığının yüksəldilməsinə çalışmalıdır. Mövzuya verilən 2 saat vaxtdan səmərəli istifadə edərək, təlim nəticəsin almaqda müəllim müstəqildir. Biz təklif edirik ki, 1 saat nəzəri biliklərin öyrənilməsinə və 2-ci saatda isə praktiki işlər icra olunsun. Müəllim öz işini sinfə və məktəbin şəraityinə uyğunlaşdırmaqda sərbəstdir.

Dərs 1. Mövzu: "Plastilin lentdən hazırlanmış kompozisiya" (nəzəri biliklərin öyrənilməsi)

Standart: 1.1.1; 1.2.1.; 1.2.2.; 1.2.3.; 1.2.4.; 1.3.1. ; 1.3.2.; 1.3.3. ; 1.3.4. ;1.3.5. ; 1.3.6. ; 4.1.2.

Məqsəd: Şagird: 1."Qızılgül" kompozisiyasının hazırlanmasını mərhələlərlə izah edir. 2. Hazırlanacaq məmulatlara görə iş yerini təşkil etməklə, uyğun emal

vasitələrini seçir. 3. Məmulatın hazırlanması ardıcıllığını müəyyənləşdirir və uyğun emal texnologiyasını seçir. 4. Hazırlanmış detalların köməyi ilə məmulatı hazırlayır. 5. Məmulatın hazırlanmasında sadə tərtibat bacarığı nümayiş etdirir. 6.İş prosesində birgəfəaliyyət və əməkdaşlıq bacarığı nümayiş etdirir. 7. İş zamanı gigiyena qaydalarına əməl edir. 8. Məmulatın şəklini çəkir və nəzəri cavabla birlikdə təqdim edir.

İnteqrasiya: A/d. 1.1.1.; İnf. 3.2.6.; H/b. 2.1.2.; 4.2.1. T.i: 4.1.2.; X/d: 1.1.1.

Dərsin tipi: Yeni bilik verən dərs.

İş formaları: Kiçik qruplarla iş, böyük qruplarla iş, fərdi iş.

İş üsulları: Beyn həmləsi, müzakirə.

Resurslar: Dərslik plastilin dəsti, kağız, diş çöpü, plastilindən hazır şəkil nümunələri, kibrit qutusu, dərslik, heykəltəraşlıq bıçağı.

DƏRSİN GEDİŞİ

I Mərhələ: Motivasiya (cəlbetmə), problemin qoyuluşu. Müəllim müxtəlif şəkilləri nümayiş etdirməklə, şagidlərin fikirlərini dinləyir. Onlara suallarla müraciət edərək soruşur:



1. Birinci şəkildə nə görürsünüz? (müxtəlif güllər və lentə oxşar fiqurlar**). 2.Bu rəsm əsəridir?** (xeyr). **3. Bəs nədən hazırlanıb?** (plastilindən). **4. İkinci şəkildə nə təsvir olunub?** (plastilin, vərəq, karandaş, kəsici alət**). 5. Şəkildə nə təsvir olunub?** (gül).

Müəllim şagirdlərdən təqribi cavabı aldıqdan sonra elan edir ki, siz plastilin lentdən güllər hazırlayacaqsınız. Bu dərsdə komozizisiyanın necə hazırlanmasına aid nəzəri bilikləri əldə edəcəksiniz.

II Mərhələ: Tədqiqatın aparılması

Müəllim sinifi qruplara ayırır. Şagidlərin sayına görə qrupların sayını müəyyənləşdirməlidir. Qruplarda zəif, orta və yaxşı oxuyanların sayı bərabər olmasını təşkil etməlidir. Eyni zamanda qrup üzvlərinin özlərinə lider seçmələrini tapşırır. Sonra müəllim dərslikdəki mövzunu öyrənməyi tapşırır. Mövzunun öyrənilməsinə verіən vaxt tamam olduqdan sonra, müəllim mənimsənilmənin səviyyə-

sini müəyyən edir. Onlara aşağıdakı sualları verir: **1. Lent görmüsünüz?** (bəli, ensiz rulon şəkildə olur). **2. Onun materialı nədəndir?** (ipəkdən və müxtəlif rəngdə olur**). 3. Dərslikdə öyrəndiyiniz lent hansı materialdandır?** (plastilindəndir**). 4. Plastilindən lenti necə hazırlamaq olar?** (əvvəlcə çubuq və yayılaraq yastı hala gətirilir). **5. Gül hazırlamaq üçün lenti hansı uzunluqda kəsmək lazımdır?** (10-15 sm). **6. Gül hansı hissələrdən ibarətdir?** (ləçəklərdən, gövdədən və yarpaqlardan).**7. Kompozisiya deyəndə nə başa düşürsünüz?** (hər hansl bir hssənin bir-biri ilə uyğun şəkildə təşkil edilməsi prosesidir, memarlıqda əsas rol oynayır).

Müəllim qrupların dərslikdən öyrəndikləri biliklərin səviyyəsini müəyyən etdikdən sonra iş vərəqlərini paylayır.

I qrup. Hansı üsullarla plastilin lentlər hazırlanır?

II qrup. Nə üçün hamarlamada kağızdan istifadə edilir?

III qrup. Gül hansı ardıcıllıqla hazırlanır?

IV qrup. " Əsrarəngiz meşə" kompozisiyasının hazırlanma ardıcılliği necədir?

Müəllim qruplara işin icrasına verdiyi vaxt tamamlandıqdan sona onları təqdimata dəvət etməlidir.

III Mərhələ: Məlumat mübadiləsi

Bu mərhələdə hər bir qrup birgəfəaliyyətdə öyrəndikləri nəzəri bilikləri təqdim edirlər. Təqdimat üçün hər qrupdan bir nümayəndə gələrək həm yazılı və həm də şifahi olaraq işlərini təqdim edir. Müəllim qrupların təqdimatını yazılı vərəqlərdə qəbul edir. Hər bir qrupun cavablarına digər qrupların münasibət bildirmələrini təşkil edir.

IV Mərhələ: Məlumatın müzakirəsi və təşkili

Müəllim suallarla müzakirəni təşkil edir. Qruplara aşağıdakı sualları verir: **1.Plastilin lenti necə hazırlamaq olar?** (plastilinin üzərinə yumru əşyanı qoyaraq ona hərəkət verməklə). **2. Lenti hazırlayarkən kağızdan nə üçün istifadə olunur?** (plastilin hamarlayıcı alətə yapışmasın). **3. Gülü hazırlayarkən hansı ardıcıllıqla hazırlana bilər?** (əvvəl plastilin lentdən gülün ləçəkləri, gövdəsi yarpaqları hazırlanır). **4. Meşə kompozisiyası necə hazırlanır?** (plastilindən meşəyə aid ağacların hazırlanması).

V Mərhələ: Nəticə və ümumiləşdirmə

Müəllim şagirdlərin cavablarını ümumiləşdirir və bəzi yarımçıq qalmış cavabları tamlayır. Onlarla müxtəlif kompozisiyalar haqqında söhbətlər etməli və onların mühakimələrini dinləyərək, mövzu haqqında olan məlumatları yekunlaşdırmalıdır.

VI Mərhələ: Yaradıcı tətbiqetmə

Müəllim şagirdlərə İKT-nin nailiyyətlərindən istifadə etməklə müxtəlif kompozisiyalar haqqında əlavə məlumatlar əldə etməsini tapşırmalıdır.

VII Mərhələ: Qiymətləndirmə Qrupların fəaliyyətinin meyarlara əsaslanaraq qiymətləndirilməsinə müəllimin şagirdləri də cəlb etməsi çox maraqlıdır. Şagirdlər şüurlu olaraq özünün və yoldaşının əməyinin qiymətləndirməsin müasir dövrün ən mühüm tələblərindən biri olduğun dərk etsin.

Meyar	I qrup	II qrup	III qrup	IV qrup
Tapşırığın tam və düzgün icrası				
İşi vaxtında icraetmə				
Əməkdaşlıq etmə				
Təqdimetmə				
Ümumi balların miqdarı				

Yekun balı hər bir üzvün zəhmətinə görə paylanmasını onların ixtiyarına vermək çox maraqlıdır.

Ev tapşırığı: İstədiklərіniz kompozisiyaları hazırlayın.

Dərs 2. Mövzu: "Plastilin lentdən hazırlanmış kompozisiya (praktiki işin icrası)"

Standart: 1.1.1; 1.2.1.; 1.2.2.; 1.2.3.; 1.2.4.; 1.3.1.; 1.3.2.; 1.3.3.; 1.3.4.; 1.3.5.; 1.3.6.; 4.1.2.

Məqsəd: Şagird: 1. "Qızılgül" kompozisiyasının hazırlanmasını mərhələlərlə izah edir. 2. Hazırlanacaq məmulatlara görə iş yerini təşkil etməklə, uyğun emal vasi-tələrini seçir. 3. Məmulatın hazırlanması ardıcıllığını müəyyənləşdirir və uyğun emal texnologiyasın seçir. 4. Hazırlanmış detalların köməyi ilə məmulatı hazırlayır. 5. Məmulatın hazırlanmasında sadə tərtibat bacarığı nümayiş etdirir. 6. İş prosesində birgəfəaliyyət və əməkdaşlıq bacarığı nümayiş etdirir. 7. İş zamanı gigiyena qaydalarına əməl edir. 8. Məmulatın şəklini çəkir və nəzəri cavabla birlikdə hazırladığını da təqdim edir.

İnteqrasiya:A/d. 1.1.1.; İnf. 3.2.6.; H/b. 2.1.2.; 4.2.1. T.i: 4.1.2.; X/d: 1.1.1.

Dərsin tipi: Yeni bilik verən dərs.

İş formaları: Kiçik qruplarla iş, böyük qruplarla iş, fərdi iş.

İş üsulları: Beyn həmləsi, müzakirə.


Resurslar: Plastilin dəsti, kağız, diş çöpü, plastilindən hazır şəkil nümunələri, kibrit qutusu, dərslik, heykəltəraşlıq bıçağı.

DƏRSİN GEDİŞİ

II Mərhələ: Motivasiya (cəlbetmə), problemin qoyuluşu

Müəllim müxtəlif şəkilləri nümayiş etdirməklə, şagidlərin fikirlərini dinləyir. Onlara suallarla müraciət edərək soruşur:





Müəllim şagirdlərə müraciət edərək, soruşur ki, keçən dərsdə öyrəndiyiniz nəzəri biliklərdən istifadə edərək, “Qızılgül” və “Əsrarəngiz meşə” kompozisiya-larını hazırlaya bilərsiniz? Təbii ki, şagirdlər bəli deyəcək. Müəllim şagirdlərin dərsə aid resurslarının qaydasında olduğunu yoxlayır.

II Mərhələ: Tədqiqatın aparılması

Müəllim sinfi qruplara ayırır. Şagidlərin sayına görə qrupların sayını müəyyənləşdirməlidir. Qruplarda zəif, orta və yaxşı oxuyanların sayı bərabər olmasını təşkil etməlidir. Eyni zamanda qrup üzvlərinin özlərinə lider seçmələrini tapşırır. Sonra müəllim dərslikdəki mövzunu öyrənməyi tapşırır. Mövzunun öyrənilməsinə verіən vaxt tamam olduqdan sonra, müəllim mənimsənilmənin səviyyəsini müəyyən edir. Onlara aşağıdakı sualları verir:

1. Lent görmüsünüz? (bəli, ensiz rulon şəkildə olur). 2. **Onun materialı nədəndir?** (ipəkdən və müxtəlif rəngdə olur**). 3. Dərslikdə öyrəndiyiniz lent hansı materialdandır?** (plastilindəndir**). 4. Plastilindən lenti necə hazırlamaq olar?** (əvvəlcə çubuq və yayılaraq yastı hala gətirilir). **5. Gül hazırlamaq üçün lenti hansı uzunluqda kəsmək lazımdır?** (10-15 sm). **6. Gül hansı hissələrdən ibarətdir?** (ləçəklərdən, gövdədən və yarpaqlardan). **7.Kompozisiya deyəndə nə başa düşürsünüz?** (hər hansl bir hssənin bir-biri ilə uyğun şəkildə təşkil edilməsi prosesidir memarlıqda əsas rol oynayır).

Müəllim qrupların dərslikdən öyrəndikləri biliklərin səviyyəsin müəyyən etdikdən sonra iş vərəqlərini paylayır.

I-III qrup. "Qızılgül" kompozisiyasını hazırlayacaqsınız!

II-IV qrup. "Əsrarəngiz meşə" kompozisiyasını hazırlayacaqsınız!

Müəllim praktiki işin icrasına münasib bildiyi vaxtı ayırır. Dərsə müdaxilə etmir, lakin çətinlik çəkənlərə istiqamət verə bilər.

III Mərhələ: Məlumat mübadiləsi

Bu mərhələdə hər bir qrup birgəfəaliyyətdə öyrəndikləri nəzəri bilikləri təq-dim edirlər. Təqdimat

üçün hər qrupdan bir nümayəndə gələrək həm yazılı və həm də şifahi olaraq işlərini təqdim edir. Müəllim qrupların təqdimatını yazılı vərəqlərdə qəbul edir. Hər bir qrupun cavablarına digər qrupların münasibət bildirmələrini təşkil edir.

IV Mərhələ: Məlumatın müzakirəsi və təşkili

Müəllim suallarla müzakirəni təşkil edir. Qruplara aşağıdakı sualları verir: **1. Gülün insanların həyatında hansı əhəmiyyəti var?** (güldə müxtəlif ətriyyatlar hazırlanır və insanlara ruhi qidadır). **2. Qızılgülü hazırlayarkən ilk növbədə onun hansı hissəsini hazırlamaq lazımdır?** (gülün saplağını, yəni gövdəsini). **3. Gülün ləçəkləri nədən hazırlanır?** (plastilin lentdən**). 4. Yarpaqların rəngi necə olmalıdır?** (yaşıl plastilindən). **5. Meşə deyəndə nə başa düşürsünüz?** (Allahın insanlara bəxş etdiyi möcüzəli nemət olan, müxtəlif növ ağaclar**). 6. Meşədə olan ağaclardan hansıların tanıyırsınız?** (palıd, küknar, vələs, dəmirağacı, qoz, qovağ, şam və s). **7. Ağacları hazırlayarkən hansı rəngdə olan plastilindən istifadə edilir?** (yaşıl, göy, qəhvəyi, qırmızı, bənövşəyi). **7. Kompozisiyalar nəyin üzərində olsa yaxı və davamlı olar?** (bərk kartonun və ya faner üzərində)

V Mərhələ: Nəticə və ümumiləşdirmə

Müəllim şagirdlərin cavablarını ümumiləşdirir və bəzi yarımçıq qalmış cavabları tamamlayır. Olarların hazırladıqları kompozisiyaların estetikliyi, simmetrikliyinə müəllim fikir verməklə işlərinə düzəlişlər edir

VI Mərhələ: Yaradıcı tətbiqetmə

Müəllin şagirdlərə tapşırır ki, İKT-nin nailiyyətlərindən istifadə etməklə müxtəlif kompozisiyalar haqqında əlavə məlumatlar əldə etsinlər. Başqa kompozisiyaların növləri haqqında məlumat hazılamalarını evə tapşırmalı.

VII Mərhələ: Qiymətləndirmə Qrupların fəaliyyətinin meyarlara əsaslanaraq qiymətləndirilməsinə müəllimin şagirdləri də cəlb etməsi çox maraqlıdır. Şagirdlər şüurlu olaraq özünün və yoldaşının əməyinin qiymətləndirməsini müasir dövrün ən mühüm tələblərindən biri olduğunu dərk etsinlər.

Meyar	I qrup	II qrup	III qrup	IV qrup
Tapşırığın tam və düzgün icrası				
İşi vaxtında icraetmə				
Əməkdaşlıq etmə				
Təqdimetmə				
Ümumi balların miqdarı				

Yekun ballı hər bir üzvün zəhmətinə görə paylanmasını onlarin ixtiyarına vermək çox maraqlıdır.

Ev tapşırığı: Sərbəst olaraq İKT-dən itifadə etməklə müəllimin tapşırığını icra etsinlər.

Mövzu 20: QABLARIN DİZAYNI (2 saat)

İnsan yarandığı gündən hal-hazıra kimi hər şeyin yaxşısını və gözəlini bəyənib. Verilən hədiyyələrin üzərində şəkillisinə meyl daha çoxdur. Yaraşıqlı məişət əşyalarının hazırlanmasında Azərbaycanın sənətkarlarının əl işləri dünyanın böyük dölətlərinin muzeylərini bəzəmişdir. Bu günün şagirdi gələcəyin mahir sənətkarı, mühəndisi, dizayneri və s. peşə sahibləri olacaqlar. Texnologiya fənnin tədrisində müəllim hazırlanacaq məmulatların estetikliyinə ciddi fikir verməlidir. İnteryer dizayner olmaq üçün müasir uslubda hazırlanacaq məmulatların insanların zövqünə uyğunlaşıimaq lazımdır.O, məmulatları hazırlamır, sənətkarlara təkliflər verməklə məşğuldur. Onun əsas vəzifəsi hazırlanacaq məmulatların eskizlərini hazırlamaqdır. Bu mövzuya 2 saat vaxt ayrılıb. Müəllim yaxşı olar ki, 1-ci dərsdə nəzəri və 2-ci dərsdə isə praktiki yaradıcılığa yer versin.

Dərs 1. Mövzu: “Qabların dizaynı” (nəzəri hazırlıq)

Standart: 1.1.1; 1.2.1.; 1.2.2.; 1.2.3.; 1.2.4.; 1.3.1.; 1.3.2.; 1.3.3.; 1.3.5.; 1.3.6.; 4.1.2.

Məqsəd: Şagird: 1. Plastilindən mətbəx qablarını hazırlamaq və dizayn etmək üçün iş qaydalarını öyrənir. 2. Plastilindən qabların dizaynını hazırlamaq üçün emal vasitəsi seşir. 3. Qabların dizaynını hazırlamaq üçün ardıcıllığını müəyyənləşdirir. 4. Uyğun emal texnologiyalarını seçir və məmulatın detallarını hazırlayır. 5. Detalları birləşdirməklə qabları hazırlayır. 6. Sadə tərtibat bacarığı nümayiş etdirməklə yanaşı sanitariya-gigiyena qaydalarına əməl edir. 7. Hazırladığı nəzəri məlumatı təqdim edir. 8. Qabların hissələrinin təsvirini çəkərək sadə dizayn bacarıqları nümayiş etdirir.

İnteqrasiya:. A/d. 1.1.1.; İnf. 3.2.6.; H/b. 2.1.2.; 4.2.1. T.i: 4.1.2.;

Dərsin tipi: Yeni bilik verən dərs.

İş formaları: Kiçik qruplarla iş, böyük qruplarla iş, fərdi iş.

İş üsulları: Beyn həmləsi, müzakirə.

Resurslar: Dərslik, plastilin dəsti, taxta altlıq, plastilin bıçağı, flamasterlər, İKT məlumatı, iş vərəqləri.

DƏRSİN GEDİŞİ

I Mərhələ: Motivasiya (cəlbetmə), problemin qoyuluşu

Müəllim müxtəlif şəkilləri nümayiş etdirməklə, şagidlərin fikirlərini dinləyir. Onlara suallarla müraciət edir:







Yuxarıda ekrana gətirilmiş şəkilləri nümayiş etdirərək, müəllim nə müşahidə etdiklərini soruşur. Onlar öz fikirlərini başa düşdükləri kimi anladırlar. Motivasiya zamanı proyektor olmadığında müəllim bəzəkli və sadə qabları stolun üstünə qoyaraq, onlardan soruşur: **1. Siz alıcı kimi bunlardan hansı birini alardınız**? (ən gəşəngini). **2. Bu qablar bir-birindən nə ilə fərqlənir**? (üzərində olan bəzəklərlə)

3. Qablara bu yaraşığı verən kimdir? (insanlar). **4. Bu peşənin adını bilirsiniz?** (99 faiz bilməyəcəklər). Müəllim qeyd edir ki, bu işləri görən peşə sahiblərini "İnteryer dizayner" adlandırırlar. Onlar heç nə hazırlamırlar, yalnız məmulatın yaraşıqlı, alıcının xoşuna gələcək çertyojlarını verirlər. O, elan edir ki, bu gün siz dərsdə "Qabların dizaynı" mövzusunu öyrənəcəksiniz.

II Mərhələ: Tədqiqatın aparılması

Müəllin sinfi qruplara ayırır. Şagidlərin sayına görə qrupların sayını müəyyənləşdirməlidir. Qruplarda zəif, orta və yaxşı oxuyanların sayı bərabər olmasını təşkil etməli. Eyni zamanda qrup üzvlərinin özlərinə lider seçmələrini tapşırır. Sonra müəllim dərslikdəki mövzunu öyrənməyi tapşırır. Mövzunun öyrənilməsinə veriən vaxt tamam olduqdan sonra, müəllim mənimsənilmənin səviyyəsini müəyyən edir. Onlara aşağıdakı suallar verir: **1. Gördüyünüz bu qablardan evinizdə varmı?** (kimin evində varsa, bəli deyəcək). **2. O, gözəlliyi yaradanlar kimlərdir?** (dərslikdən və müəllimin verdiyi əlavə məlumatlara əsaslanaraq, deyəcəklər dizaynerlər). **3. Qabları bəzəyənlər onlardır?** (cavabında xeyr deyəcəklər). **4. Dizaynerin vəzifəsi nədir?** (məmulatın müasir

alıcının zövqünə uyğun çertyojlarını hazırlamaq). **5. Dizayn nə vaxt yaranmışdır?** (XX əsrin əvvəllərində**). 6. Mətbəx əşyalarını sinif şəraitində hansı materialdan hazırlamaq olar?** (plastilindən, bəzəyi isə flamasterələ). **7. Bu bəzək işlərinin dahə dayanqlı olması nə ilə mümkündür?** (rəngli plastilinlə).**8. Bu dərsdə sizə tanış gələn hansı sözə rast gəlmisiniz?** (relyefləmə).

Müəllim qrupların mövzu haqqında məlumatlarının səviyyələrin müəyyən etdikdən sonra iş vərəqlərini paylayır. Eyni zamanda o, qabaqcadan qrupların işə aid resurslarının vəziyyətimi yoxlamalıdır.

I qrup. Dizayn nədir və nəvaxt yaranıb?

II qrup. Gördüyünüz və rast gəldiyiniz dizayn edilmiş hansı mətbəx əşyalarını tanıyirsiniz?

III qrup. Hazırlanacaq qab-qacaq dəstini nə ilə dizayn etmək olar?

IV qrup. Məmulatın hazırlanmasında sizə əvvəlki biliklərdən hansı kömək edəcək?

Bu işlərin icrasına müəllim sinfin bacarıqları səviyyəsinə görə vaxt ayırır. Vaxt tamamlandıqdan sonra müəllim qrupları təqdimata dəvət edir. Təqdimatda ya lider ya da üzvlərdən biri iştirak etməlidir.

III Mərhələ: Məlumat mübadiləsi

Bu mərhələdə hər bir qrup birgə fəaliyyətdə öyrəndikləri nəzəri bilikləri təqdim edirlər. Təqdimat üçün hər qrupdan bir nümayəndə gələrək həm yazılı və həm də şifahi olaraq işlərini təqdim edir. Müəllim qrupların təqdimatını yazılı vərəqlərdə qəbul edir. Hər bir qrupun cavablarına digər qrupların münasibət bildirmələrini təşkil edir.

IV Mərhələ: Məlumatın müzakirəsi və təşkili

Müəllim suallarla müzakirəni təşkil edir. Qruplara aşağıdakı sualları verir: **1. Dizayn nədir və nə vaxt yaranıb?** (dizayn əşyaların bədii layihələşdirilməsidir və XX əsrin əvvəllərində yaranıb). **2. Hansı mətbəx əşyalarını tanıyırsınız?** (fincan, nəlbəki, stəkan, dəm çayniki, samovar, mürəbbə qabı, qənd qabı və s.).

3. Hazırlanacaq qab-qacaq dəstini nə ilə dizayn etmək olar? (qabı onun əksi olan rəngdə plastilindən). **4. İş zaman əvvəlki dərslərdə hansı prosesdən istifadə etdiniz?** (relyef şəkillidən).

V Mərhələ: Nəticə və ümumiləşdirmə

Müəllim şagirdlərin cavablarını ümumiləşdirir və bəzi yarımçıq qalmış cavabları tamamlayır.

“İnteryer dizayner” haqqında onların cavablarının bir daha geniş izahını verməlidir.

VI Mərhələ: Yaradıcı tətbiqetmə

Müəllim şagirdlərə İKT-nin nailiyyətlərindən istifadə etməklə, dizayn haqqıda geniş məlumat əldə etməyi tapşırmalı.

VII Mərhələ: Qiymətləndirmə. Qrupların fəaliyyətinin meyarlara əsaslanaraq qiymətləndirilməsinə müəllimin şagirdləri də cəlb etməsi çox maraqlıdır. Şagirdlər şüurlu olaraq özünün və yoldaşının əməyinin qiymətləndirməsi müasir dövrün ən mühüm tələblərindən biri olduğunu anlamalıdır.

Meyar	I qrup	II qrup	III qrup	IV qrup
Tapşırığın tam və düzgün icrası				
İşi vaxtında icraetmə				
Əməkdaşlıq etmə				
Təqdimetmə				
Ümumi balların miqdarı				

Yekun balı hər bir üzvün zəhmətinə görə paylanmasını onlarin ixtiyarına vermək çox maraqlıdır.

Ev tapşırığı: Evinizdə dizayn edilmiş əşyaların rəsm və fotoşəklini hazırlamalı.

Dərs 2. Mövzu: "Qabların dizaynı" (praktiki işin icrası)

Standart: 1.1.1; 1.2.1.; 1.2.2.; 1.2.3.; 1.2.4.; 1.3.1.; 1.3.2.; 1.3.3.; 1.3.5.; 1.3.6.; 4.1.2.

Məqsəd: Şagird: 1.Plastilindən mətbəx qablarını hazırlamaq və dizayn etmək üçün iş yerini təşkil edir. 2. Plastilindən qabların dizaynını hazırlamaq üçün emal vasitəsi seçir. 3. Qabların dizaynını hazırlamaq ardıcıllığını müəyyənləşdirir.

4. Uyğun emal texnologiyalarını seçir və məmulatın detallarını hazırlayır.

5. Detalları birləşdirməklə qabları hazırlayır. 6. Sadə tərtibat bacarığı nümayiş etdirməklə yanaşı sanitariya-gigiyena qaydalarına əməl edir.7. Dizaynla hazırlanmış qabları təqdim edir. 8. Qabların hissələrinin təsvirini çəkərək sadə dizayn bacarıqları nümayiş etdirir.

İnteqrasiya:A/d. 1.1.1.; İnf. 3.2.6.; H/b. 2.1.2.; 4.2.1. T.i: 4.1.2.;

Dərsin tipi: Yeni bilik verən dərs.

İş formaları: Kiçik qruplarla iş, böyük qruplarla iş, fərdi iş.

İş üsulları: Beyn həmləsi, müzakirə.

Resurslar: dərslik, nümunə qablar, plastilin dəsti, taxta altlıq, plastilin bıçağı, flamasterlər, İKT, proyektor, iş vərəqləri.


DƏRSİN GEDİŞİ


I Mərhələ: Motivasiya (Cəlbetmə), problemin qoyuluşu


Müəllim müxtəlif şəkilləri nümayiş etdirməklə, şagidlərin fikirlərini dinləyir. Onlara suallarla müraciət edərək, soruşur: **1. Aşağıdakı şəkillərdə nələri görürsünüz?** (müxtəlif çeşidli mətbəx əşyalarını). **2. Şəkildəki sxemlərdə nələri görürsünüz?** (hazırlanacaq məmulatların eskizlərini**). 3. Şəkil-2..3..və 5 hansı mətbəx əşyalarıdır?** (narşəkilli qənd qabı və mürəbbə qabı). **4. Bu saxsı qab nə adlanır?** (piti bardağı). Əgər müəllimin işlədiyi məktəbdə İKT-nin imkanları yodursa, müəllim bu əşyaları canlı göstərməklə motivasiya edə bilər.













Müəllim şagirdlərə elan edir ki, keçən dərsdə əldə etdiyiniz nəzəri biliklərə əsaslanaraq, plastilindən mətbəx əşyalarını hazırlayacaq və ona dizayn verəcəksiniz

II Mərhələ: Tədqiqatın aparılması

Müəllim sinifi qruplara ayırır. Şagidlərin sayına görə qrupların sayını müəyyənləşdirməlidir. Qruplarda zəif, orta və yaxşı oxuyanların sayı bərabər olmasını təşkil etməli. Eyni zamanda qrup üzvlərinin özlərinə lider seçmələrini tapşırır. Sonra müəllim dərslikdəki mövzunu öyrənməyi tapşırır. Mövzunun öyrənilməsinə veriən vaxt tamam olduqdan sonra, müəllim mənimsənilmənin səviyyəsini müəyyən edir. Onlara aşağıdakı sualları verir: **1. Gördüyünüz bu qablardan evinizdə varmı?** (kimin evində varsa,

“bəli” deyəcək). **2. O, gözəlliyi yaradanlar kimlərdir?** (dərslikdən və müəllimin verdiyi əlavə məlumatlara əsaslanaraq, deyəcəklər dizaynerlər**). 3. Qabları bəzəyənlər onlardır?** (cavabında “xeyr” deyəcəklər). **4. Dizaynerin vəzifəsi nədir?** (məmulatın müasir alıcının zövqünə uyğun çertyojlar hazırlamaq). **5. Dizayn nə vaxt yaranmışdır?** (XX əsrin əvvəllərində). **6. Mətbəx əşyalarını sinif şəraitində hansı materialdan hazırlamaq olar?** (plastilindən, bəzəyi isə flamasterlə). **7. Bu bəzək işlərini dahə dayanqlı olması nə ilə mümkündür?** (Əks rəngli plastilinlə).**8. Bu dərsdə sizə tanış gələn hansı sözə rast gəlmisiniz?** (Relyefləmə).

Müəllim qrupların mövzu haqqında olan məlumatlarının səviyyələrin müəyyən etdikdən sonra iş vıraqlərini paylayır. Eyni zamanda o, qabaqcadan qrupların işə aid resurslarının vəziyyətini də yoxlamalırır.

I qrup. 1-ci şəkildəki çertyoja görə mətbəx əşyasını hazırlayın.

II qrup. 4-cü şəkildəki çertyoja görə mətbəx əşyasını hazırlayın.

III qrup. 7-ci şəkildəki çertyoja görə mətbəx əşyasını hazırlayın.

IV qrup. 8-ci şəkildə verilmiş çertyojda seçim etməklə mətbəx əşyasını hazırlayın.

Bu işlərin icrasına müəllim sinfin bacarıqları səviyyəsinə görə vaxt ayırır. Vaxt tamamlandıqdan sonra müəllim qrupları təqdimata dəvət edir. Təqdimatda ya lider ya da üzvlərdən biri iştirak etməlidir.

III Mərhələ: Məlumat mübadiləsi

Bu mərhələdə hər bir qrup birgə fəaliyyətdə hazırladıqları məmulatları təqdim edirlər. Təqdimat üçün hər qrupdan bir nümayəndə gələrək həm yazılı və həm də şifahi olaraq işlərini təqdim edir. Müəllim qrupların təqdimatını yazılı vərəqlərdə qəbul edir. Hər bir qrupun cavablarına digər qrupların münasibət bildirmələrini təşkil edir.

II Mərhələ: Məlumatın müzakirəsi və təşkili

Müəllim suallarla müzakirəni təşkil edir. Qruplara aşağıdakı sualları verir:

1. Şəkil 1-də hansı mətbəx əşyasının çertyojudur? (su qabının). **2. Şəkil 4-dəki sxemə əsaslanaraq nə hazırlanıb**? (su içmək üçün mətbəx əşyası). **3. Şəkil 7-dəki sxemə əsaslanaraq nə hazırlanıb?** (fincan və nəlbəki). 4.**Şəkil 8-dəki sxemə əsaslanaraq nə hazırlanıb?** (qrup sxemdən

istifadə edərək hazıladığı məmulatların adlarını sadlayacaq). **5. Mətbəx əşyalarını hansı materialdan hazırladı?** (plastilindən). **6. Qablara dizayn nə ilə verildi?** (qabın rənginin əksi olan plastilinlə). **8. Qabların dizayn edilməsində məqsəd nədir?** (rahat və tez satılsın).

V Mərhələ: Nəticə və ümumiləşdirmə

Müəllim şagirdlərin cavablarını ümumiləşdirir və bəzi yarımçıq qalmış cavabları tamlayır. "İnteryer dizayner" haqqında onların cavablarının bir daha geniş izahın verməlidir. Sadə dizayn edilməsində məqsəd və səbəblərini də müzakirə edir. Demək olar ki, bu haqda şagirdlərin məlumatları çox azdır.

VI Mərhələ: Yaradıcı tətbiqetmə

Müəllim şagirdlərə İKT-nin nailiyyətlərindən istifadə etməklə , dizayndan tikintidə necə istifadə haqqında məlumat əldə etməyi tapşırmalı.

VII Mərhələ: Qiymətləndirmə. Qrupların fəaliyyətinin meyarlara əsaslanaraq qiymətləndirilməsinə müəllimin şagirdləri də cəlb etməsi çox maraqlıdır. Şagirdlər şüurlu olaraq özünün və yoldaşının əməyinin qiymətləndirməsi müasir dövrün ən mühüm tələblərindən biri olduğunu dərk etməlidir.

Meyar	I qrup	II qrup	III qrup	IV qrup
Tapşırığın tam və düzgün icrası				
İşi vaxtında icraetmə				
Əməkdaşlıq etmə				
Təqdimetmə				
Ümumi balların miqdarı				

Yekun balı hər bir üzvün zəhmətinə görə paylanmasını onların ixtiyarına vermək çox maraqlıdır.

Ev tapşırığı: Samovar hazırlamalı.

TİKMƏ VƏ NAXIŞLAMA

Mövzu 21: ÇARPAZ TİKMƏ (2 saat)

Bu bölmədə üç mövzu verilmişdir. Hər bir mövzuda iynə və sapdan şagirdlər istifadə edəcəklər. Müəllim işlərin icrasında çox məsuliyyətli olmalıdır. Hər dəfə təhlükəsizlik qaydaların onlara xatırlatmaqla yanaşı, onların işinə ciddi nəzarət etməlidir. İnsanın işgörmə adətində başının bir qədər əymək vərdişləri vardır. İynə ilə işdə tək işləyən üçün təhlükə azdır. Fəal təlim metodunda qrup işində şagird yoldaşlarına təhlükə yarada bilər. Ona görə müəllim şagirdlərə bildirməlidir ki, biriniz işləyəndə digərləriniz bir qədər aralı və ehtiyatlı davranmalısınız. Şagirdlərin tam maarifləndirilməsinə əmin olduqdan sonra işlərin icrasına icazə verməlidir.

Çarpaz tikmə mövzusunun tədrisinə 2 saat vaxt verilmişdir. Təklif olunr ki, 1-ci saat nəzəri və 2-ci saatda praktiki işlər icra olunsun.

Dərs 1. Mövzu: "Çarpaz tikmə" (nəzəri hazırlıq)

Standart: 1.1.1; 1.2.1. ; 1.2.2 ; 1.2.3;1.2.4;1.3.1; 1.3.2.; 1.3.3. ; 1.3.4. ;1.3.5. ;1.3.6.

Məqsəd: Şagird: 1.Tikmə texnologiyasına aid iş prosesini mərhələlər üzrə necə icra etməyi öyrənir. 2. Tikmənin növünə əsasən iş yerini təşkil etməyi öyrənir.

3. Çarpaz tikməni yerinə yetirmək üçün uyğun emal vasitələrini seçir. 4. Çarpaz tikmənin yerinə yetirilmə ardıcıllığını öyrənir. 5. Çarpaz tikməyə uyğun emal texnologiyasını seçərək, detalları tikir. 6. Çarpaz tikmə yerinə yetirildikdə sadə tərtibat bacarığı nümayiş etdirir. 7. Qrup işinin köməyi ilə birgə fəaliyyət göstərir. 8. Məmulatı hazırlayanda təhlükəsizliyə əməl edir. 9. Qruplar hazıllanmış nəzəri cavabların təqdim edir.

İnteqrasiya: A/d. 1.1.1.; İnf. 3.2.6.; H/b. 2.1.2.; 4.2.1. T.i: 4.1.2.;

Dərsin tipi: Yeni bilik verən dərs.

İş formaları: Kiçik qruplarla iş, böyük qruplarla iş, fərdi iş.

İş üsulları: Beyn həmləsi, müzakirə.

Resurslar: Dərslik, parça ,rəngli saplar, oymaq, iynələ, qayçı, iş vərəqləri, çarpaz tikişə aid nümünə.


DƏRSİN GEDİŞİ

I Mərhələ: Motivasiya (cəlbetmə), problemin qoyuluşu

Müəllim müxtəlif şəkilləri nümayiş etdirməklə, şagidlərin fikirlərini dinləyir. O, şagirdlərə müraciət edərək, deyir ki, şəkildə gördüyünüz mənzərəyə münasibətinizi bildirin. 1. Bu işlər nə ilə icra olunub? 2. İynə hansı işləri yerinə yetirir. 3.Tikiş formasına görə necədir?

Müəllim sinfə müraciət edərək, onlara bildirir ki, bu gün siz çarpaz tikməyə aid nəzəri biliklər öyrənəcəksiniz.







II Mərhələ: Tədqiqatın aparılması

Müəllim sinifi qruplara ayırır. Şagidlərin sayına görə qrupların sayını müəyyənləşdirməlidir. Qruplarda zəif, orta və yaxşı oxuyanların sayı bərabər olmasını təşkil etməli. Eyni zamanda qrup üzvlərinin özlərinə lider seçmələrini tapşırır. Sonra müəllim dərslikdə olan mövzunu öyrənməyi tapşırır. Bu haqda dərslikdə çox az məlumat verildiyindən müəllim çalışmalıdır ki, əlavə məlumatlar tapıb, şagirdlərə çatdırsın. Onların dərslikdən və müəllimin verdiyi məlumatların nə dərəcədə mənimsəmələrini sual-cavabla müəyyən etsin. O, qruplara aşağıdakı sualları verir: **1. Kitabda 1-ci (proyektoru olmayanlar üçün) şəkildə gördüyünüz nədir?**

(çəpinə tikişdir). **2. Şəkildə gördüyünüz tikişlər üfüqi, yoxsa şaqulidir?** (nə üfüqi, nə də şaqulidir, çəpinədir) **3. Üfüqi zolaqla şaquli zolağın tikmə üsulları oxşardırmı?** (xeyr, bir-birinə perpendikulyardır). **4.Tikişlər astar tərəfdə necə yerləşir?** (çarpaz). **5. Alt tikişlərlə üst tikişlərlərin fərqi nədədir?** (alt tikişlər bir tərəfə istiqamətlənib, üst isə başqa tərəfə). **6. Tikişlərin simmetrikliyini necə saxlamaq olar**? (damalar çəkməklə). **7. Çarpaz tikmə üsulu ilə tanıdığınız hansı məmulatları hazılamaq olar?** (əlfəcinlər, bəzək əşyaları, açıqcalar, pannolar). **8. Əlfəcin, açıqca və pannolar nədir?** (kitabın vərəqləri arasında qoyulan tikmə, açıqca konvertsiz məktub, panon dekorativ formalı). **9. Tikmədən harada istifadə edilir?** (əl dəsmalları, paltar və çantalarda).

Müəllim şagirdlərin kitabdan öyrəndikləri biliklərin səviyyəsini müəyyən etdikdən sonra, iş vərəqlərini paylayır. Müdaxilə etmədən (zəruri olan haldan başqa) işin gedişinə nəzarət etməlidir.

I qrup. Çarpaz tikmə və panno tikmələrinin tətbiqi haqqında bildiklərinizi yazın.

II qrup. Çarpaz tikmədən naxışlamada olan tətbiqləri haqqında məlumət verin.

III qrup. Çarpaz tikmədə alt tikiş və üst tikişin istiqamətlərini göstərin.

I V qrup. Çarpaz tikmənin necə işlənilməsini izah edin.

III Mərhələ: Məlumat mübadiləsi

Bu mərhələdə hər bir qrup birgəfəaliyyətdə öyrəndikləri nəzəri bilikləri təqdim edir. Təqdimat üçün hər qrupdan bir nümayəndə gələrək həm yazılı və həm də şifahi olaraq işlərini təqdim edir. Müəllim qrupların təqdimatını yazılı vərəqlərdə qəbul edir. Hər bir qrupun cavablarına digər qrupların münasibət bildirmələrini təşkil edir.

IV Mərhələ: Məlumatın müzakirəsi və təşkili

Müəllim suallarla müzakirəni təşkil edir. O, suallar verməklə müzakirəni təşkil etməklə onların müstəqil əldə etdikləri nailiyyətlərin səviyyələrin müəyyənləşdirir.O, qruplara aşağıdakı sualları verir**: 1. Kitab əlfəcini nədir və hansı tikiş növünə nəsasən hazırlanır?** (kitabın vərəqi arasına qoyulur və çarpaz tikmə üsulu ilə alınır). **2. Çarpaz tikmə və panno tikmələrinin tətbiqi haqqında nə deyə bilərsiniz?** (əlfəclər, bəzək əşyaları, açıqcalar, nannolar hazırlanır).

3. Çarpaz tikmədən naxışlamada istifadə etmək olar? (istifadə etmək olar).

4. Çarpaz tikmədə alt tikiş və üst tikişlərin istiqaməti necədir? (çarpaz tikmədə altlar bir tərəfə, üstlər isə onun əksi mtərəfinə istiqamətlənir).**5. Çarpaz tikmə necə işlənir?** (çarpaz tikmə ya şəkil üzrə ya da sxem üzrə işlənir).

V Mərhələ: Nəticə və ümumiləşdirmə

Müəllin şagirdlərin cavablarını ümumiləşdirir və bəzi yarımçıq qalmış cavabları tamlayır. Onlara bidirməlidir ki, tikişlərin səliqəli və gözəlliyi yüksək balla qimətləndiriləcək. Bu, işin tərbiyəvi əhəmiyyəti var.

VI Mərhələ: Yaradıcı tətbiqetmə

Müəllim şagirdlərə İKT-nin nailiyyətlərindən istifadə etməklə növbəti dərsdə öyrəndikləri haqqında internet vasitəsilə məlumatlar tolamağı tapşırmalıdır.

VII Mərhələ: Qiymətləndirmə. Qrupların fəaliyyətinin meyarlara əsaslanaraq qiymətləndirilməsinə müəllin şagirdləri də cəlb etməsi çox maraqlıdır. Şagirdlər şüurlu olaraq özünün və yoldaşının əməyinin qiymətləndirməsi müasir dövrün ən mühüm tələblərindən biri olduğun dərk etsinlər.

Meyar	I qrup	II qrup	III qrup	IV qrup
Tapşırığın tam və düzgün icrası				
İşi vaxtında icraetmə				
Əməkdaşlıq etmə				
Təqdimetmə				
Ümumi balların miqdarı				

Yekun balı hər bir üzvün zəhmətinə görə paylanmasını onların ixtiyarına vermək çox maraqlıdır.

Ev tapşırığı: Parça üzərində istənilən şəkil üzərində çarpaz tikmə.

Dərs 2. Mövzu: "Çarpaz tikmə" (praktiki iş)

Standart: 1.1.1; 1.2.1.; 1.2.2.; 1.2.3.; 1.2.4.; 1.3.1.; 1.3.2.; 1.3.3.; 1.3.4.; 1.3.5.; 1.3.6.

Məqsəd: Şagird: 1.Tikmə texnologiyasına aid iş prosesini mərhələlər üzrə izah edir. 2. Tikmənin işlərinə görə əsasən iş yerini təşkil edir. 3.Çarpaz tikməni yerinə yetirmək üçün uyğun emal vasitələrini seçir. 4. Çarpaz tikmənin yerinə yetirilmə ardıcıllığını müəyyənləşdirir. 5.Çarpaz tikməyə uyğun emal texnologiyasını seçərək, detalları tikir.6. Çarpaz tikmə

yerinə yetirildikdə sadə tərtibat bacarığı nümayiş etdirir. 7. Qrup işinin köməyi ilə birgə fəaliyyət göstərir. 8.Məmulatı hazırlayanda təhlükəsizliyə əməl edir.9. Hazırladığı məmulatı təqdim edir.

İnteqrasiya: A/d. 1.1.1.; İnf. 3.2.6.; H/b. 2.1.2.; 4.2.1. T.i: 4.1.2.;

Dərsin tipi: Yeni bilik verən dərs.

İş formaları: Kiçik qruplarla iş, böyük qruplarla iş, fərdi iş.


İş üsulları: Beyn həmləsi, müzakirə.

Resuslar: Dərslik, parça ,rəngli saplar, oymaq, iynə, qayçı, iş vərəqləri, çarpaz tikişə aid nümünə.


DƏRSİN GEDİŞİ

I Mərhələ: Motivasiya (cəlbetmə), problemin qoyuluşu





Müəllim müxtəlif şəkilləri nümayiş etdirməklə, şagidlərin fikirlərini dinləyir. Müəllim şagirdlərə müraciət edir və şəkildə gördükləri mənzərəyə aid onların fikirlərini öyrənir. Sonra o, sinfə müraciət edərək, onlara bildirir ki, bu gün siz çarpaz tikməyə aid nəzəri biliklərə əsasında əməli işləri yerinə yetirəcəksiniz.



Müəllim şagirdlərin bir daha onlara keçilmiş nəzəri bilikləri xatıladır və bildirir ki, bu dərsdə çarpaz tikməyə aid müxtəlif qrup işlərini icra edəcəklər. Müəllim işin icrası prosesində təhlükəsizlik qaydalarını təkrarlamaqla, işin gedişinə nəzarət etməlidir.

II Mərhələ: Tədqiqatın aparılması

Müəllim sinfi qruplara ayırır. Şagidlərin sayına görə qrupların sayını müəyyənləşdirməlidir.

Qruplarda zəif, orta və yaxşı oxuyanların sayı bərabər olmasını təşkil etməlidir. Eyni zamanda qrup üzvlərinin özlərinə lider seçmələrini tapşırır. Sonra müəllim dərslikdəki mövzunu öyrənməyi tapşırır. Bu haqda dərslikdə çox az məlumat verildiyindən müəllim çalışmalıdır ki, əlavə məlumatlar tapıb, şagirdlərə çatdırsın. Onların dərslikdən və müəllimin verdiyi məlumatların nə dərəcədə mənimsəmələrini sual-cavabla müəyyən edəcək. O, qruplara aşağıdakı sualları verir: **1. Çarpaz tikmə və panno tikmələri harada icra olunur?** (bu tikmə üsulu ilə kitab əlfəcini, bəzək əşyaların, açıqcalar, pannolar). **2. Çarpaz tikmədən naxışlamada tətbiq etmək olar**? (bundan naxışlı tikişlərdə istifadə olunur). **3. Üst və alt tikişlər necə aparılır?** (bu tikiş üsulunda alt tikişlər bir tərəfə, üst tikişlər onun əks tərəfinə istiqamətlənir). **4. Çarpaz tikmə necə yerinə yetirilir?** (ya şəkil üzrə, ya da sxem üzrə aparılır).

Müəllim qruplaraın hazır olduğuna əmin olduqdan sonra iş vərəqlərini payla-yır. Sonra işə müdaxilə etmədən onlara nəzarət edir.

I qrup. Çarpaz tikmədən istifadə etməklə kitab əlfəcinini hazırlayın.

II qrup. Çarpaz tikmədən istifadə etməklə üfüqi zolaq hazırlayın.

III qrup. Çarpaz tikmə ilə şaquli zolağın tikməsini yerinə yetirin.

IV qrup. Çarpaz tikmədən istifadə etməklə əl dəsmalını bəzəyin.

Qruplara verilən vaxt tamam olandan sonra müəllim onları təqdimata çağırır.

III Mərhələ: Məlumat mübadiləsi

Bu mərhələdə hər bir qrup birgəfəaliyyətdə öyrəndikləri nəzəri bilikləri təqdim edir. Təqdimat üçün hər qrupdan bir nümayəndə gələrək həm yazılı və həm də şifahi olaraq işlərini təqdim edir. Müəllim qrupların təqdimatını yazılı vərəq-lərdə qəbul edir. Hər bir qrupun cavablarına digər qrupların münasibət bildirmə-lərini təşkil edir.

IV Mərhələ: Məlumatın müzakirəsi və təşkili

Müəllim suallarla müzakirəni təşkil edir. O, suallar verməklə müzakirəni təşkil etməklə onların müstəqil əldə etdikləri nailiyyətlərin səviyyələrini müəy-yənləşdirir. O, qruplara aşağıdakı sualları verir: **1. Hazırladığınız əlfəcinlərdən hansı məqsədlə istifadə edilir?** (kitab səhifələrinə qoymaq üçün). **2. Üfüqi zolağı necə hazırladınız?** (uşaqlar

riyaziyyatdan bildikləri üfüqiliyə riyayət edərək cavab verir). **3. Şaquli zolağı necə hazırladınız?** (çarpaz tikmə üsulu ilə). **4.Əl dəsmalını necə hazırladınız?** (çarpaz tikmə üsulu ilə). **5.Tikiş zamanı hansı təhlükəsizlik qaydalarına əməl olunur?** (iynədən istifadədə boynun qabağa azca əyilməsi, qrup işində yoldaşlarının məsafədə qalması**). 6. Üsküк nə üçnündür?** (barmağa iynənin batmaması üçün).**7. Bu tikmə yolu ilə daha nələr hazırlamaq olar?** (şən dovşan, kəpənək, dostluq rəmzini və s.).

V Mərhələ: Nəticə və ümumiləşdirmə

Müəllin şagirdlərin cavablarını ümumiləşdirir və bəzi yarımçıq qalmış cavabları tamlayır. Onların belə işlərin icrasında əl qabiliyyətlərinin inkişafına, məmulatların hazırlanmasında simmetriya və digər proseslərə əməletmə vərdişlərinin əhəmiyyətini izah etməlidir.

VI Mərhələ:Yaradıcı təqdimetmə

Müəllim şagirdlərə İKT-nin nailiyyətlərindən istifadə etməklə növbəti dərsdə öyrəndikləri haqqında internet vasitəsilə tapdıqları fiqurlardan birini evdə hazır-lamağı tapşırır.

VII Mərhələ: Qiymətləndirmə Qrupların fəaliyyətinin meyarlara əsaslanaraq qiymətlən-

dirilməsinə müəllimin şagirdləri də cəlb etməsi çox maraqlıdır. Şagirdlər şüurlu olaraq özünün və yoldaşının əməyinin qiymətləndirməsi müasir dövrün ən mühüm tələblərindən biri olmasın dərk etsinlər.

Meyar	I qrup	II qrup	III qrup	IV qrup
Tapşırığın tam və düzgün icrası				
İşi vaxtında icraetmə				
Əməkdaşlıq etmə				
Təqdimetmə				
Ümumi balların miqdarı				

Yekun balı hər bir üzvün zəhmətinə görə paylanmasını onların ixtiyarına vermək çox maraqlıdır.

Ev tapşırığı: Sərbəst iş.

Mövzu 22: İLGƏK TİKİŞİ (2 saat).

Mövzuya verilmiş 2 saat müəllimin ixtiyarındadır. O, şəraitə və sinfin bacarığını nəzərə alıb, tədris edə bilər. Təklif olunur ki, 1 saat nəzəri hazırlıqdan sonra 2-ci saatda praktiki iş icra olunsun.

Dərs 1. Mövzu: "İlgək tikişi" (nəzəri biliklərin öyrənilməsi)

Standart: 1.2.1. ; 1.2.2. ; 1.2.3. ; 1.2.4. ; 1.3.2.; 1.3.3. ; 1.3.4. ;1.3.5. ; 1.3.6.

Məqsəd: Şagird: 1. İlgək tikişinə görə iş yerini təşkil etməyi öyrənir. 2. İlgək tikişini yerinə yetirmək üçün uyğun emal vasitələrini seçməyi öyrənir. 3. İlgək tikişinin yerinə yetirmə ardıcıllığını müəyyən etməyi öyrənir. 4. Tikişə uyğun emal texnologiyasını seçir. 5. İlgək tikişinin yerinə yetirməsinə aid nəzəri biliklərə yiyələnir. 6. Hazırlanacaq məmulatın xarici görnüşünü, görkəmini(tərtibat bacarığı) öyrənir.7. Nəzəri biliklərin öyrənilməsində birgə fəaliyyət və əməkdaşlıq bacarığı nümayiş etdirir. 8. İşin icrasına aid təhlükəsizlik qaydalarına əməl etməyi öyrənir. 9. Qoyulmuş problemin cavabını qrup halında təqdim edir.

İnteqrasiya: A/d. 1.1.1.; İnf. 3.2.6.; H/b. 2.1.2.; 4.2.1. T.i: 4.1.2.;

Dərsin tipi: Yeni bilik verən dərs.

İş formaları: Kiçik qruplarla iş, böyük qruplarla iş, fərdi iş.

İş üsulları: Beyn həmləsi, müzakirə.


Resuslar: Dərslik, parça ,rəngli saplar,iynə, oymaq, qayçı, dərslik, iş vərəqləri, "İlgək tikişinə" aid nümünələr

DƏRSİN GEDİŞİ

I Mərhələ: Motivasiya (cəlbetmə), problemin qoyuluşu

Müəllim müxtəlif şəkilləri nümayiş etdirməklə, şagidlərin fikirlərini dinləyir. Onlara suallarla müraciət edərək, deyir: Aşağıdakı şəkillərə münasibət bidirin.





Şagirdlər həyatda gördüyükləri tikişlərin formalarına uyğun olaraq, fikirlərini söyləyirlər. Müəllim şəkilləri nömrələrlə mənasını sual-cavabla müəyyənləşdirməlidir. Aşağıdakı kimi sualları verməli: **1. Şəkil 2-də nə görürsünüz?** (yeni il açıqcası). **2. Şəkil 3-də nə görürsünüz?** (kağız qatları üzərində tikiş). **3. Şəkil 4-də nə görürsünüz?** (tikiş işlərinda istifadə olunan ləvazimatlar). **4. İlgək tikişi neçə mərhələdə başa gəlir?** (6 mərhələyə, dərslikdə verilib). **5.Tikişdən sonra əşyanın səti qabarıq alınır?** (məmulatın səthindəki tikiş sapına görə) **6. Belə tikişlər hansı tikiş növüdür?** (ilgək tikişi).

II Mərhələ:Təqdimatın aparılması

Müəllim sinfi qruplara ayırır. Şagidlərin sayına görə qrupların sayını müəyyənləşdirməlidir. Qruplarda zəif, orta və yaxşı oxuyanların sayı bərabər olmasını təşkil etməli. Eyni zamanda qrup üzvlərinin özlərinə lider seçmələrini tapşırır. Sonra müəllim dərslikdə olan mövzunu öyrənməyi tapşırır. Bu işin icrasına mövzunun həcminə uyğun vaxt verir. Qrup halında öyrənilmiş yeni biliklərin mənimsənilməsi səviyyəsini sual-cavabla müəyyənləşdirməlidir. **1.Açıqcada nə görürsünüz?** (tikiş alətləri, küknar

ağacının meyvəsini, kitab, dəftər, müxtəlif saplar və s.). **2. Məmulat nəyə deyilir?** (hazırlanan nə varsa elmi dildə məmulat adlanır). **2. Məmulatın səthi nə üçün bir qədər qabarıq görünür?** (onun üstünə ilgək tikişinin sapına görə). **3. Belə tikişlərdə 1-ci mərhələ necədir?** (A-B-C nöqtələrindən keçməklə). **4. İkinci mərhələdə nə etmək lazımdır?** (parçanı düz sərməli və sapı kip oturtmalı). **6. Üçüncü mərhələdə nə etmək lazımdır?** (sapın hərəkəti D-E, sap iynənin altında qalmalıdır). **7. Dördüncü mərhələdə nə etmək lazımdır?** (sapın dartılaraq, eyni üsulla davamı). **8. Beşinci mərhələdə nə etmək lazımdır?** (tikişin tamamlanması və iynənin son vəziyyəti). **9. Altıncı mərhələdə nə etmək lazımdır?** (sap bərkidilir).

Qrupların icra ediləcək işə aid nəzəri biliklərinin səviyyəsi müəyyənləşəndən sonra iş vərəqlərini paylamalı.

I qrup. İlgək tikişını icra edərkən hansı üsullardan istifadə etmək lazımdır?

II qrup. İlgək tikişınından dərslikdə olmayan daha hansılarına rast gəlmisiniz?

III qrup. İlgək tikişını icra edərkən hansı təhlükəsizlik və sanitariya-gigiyena qaydalarına əməl etmək lazımdır?

IV qrup. İlgək tikişindən istifadə etməklə cırılmış parça məmulatları tikmək olar və necə?

Müəllim, qrup işinə verdiyi vaxtı bildirir və işə müdaxilə etmədən nəzarət edir.

III Mərhələ: Məlumat mübadiləsi

Bu mərhələdə hər bir qrup birgə fəaliyyətdə öyrəndikləri nəzəri bilikləri təqdim edirlər. Təqdimat üçün hər qrupdan bir nümayəndə gələrək həm yazılı və həm də şifahi olaraq işlərini təqdim edir. Müəllim qrupların təqdimatını yazılı vərəqlərdə qəbul edir. Hər bir qrupun cavablarına digər qrupların münasibət bildirmələrini təşkil edir.

IV Mərhələ: Məlumatın müzakirəsi və təşkili

Müəllim suallarla müzakirəni təşkil edir. O, suallar verməklə müzakirəni təşkil etməklə şagirdlərin müstəqil əldə etdikləri nailiyyətlərin səviyyələrin müəyyənləşdirir. O, qruplara aşağıdakı sualları verir: **1. İlgək tikişını icra edərkən hansı üsullardan istifadə etmək lazımdır?** (bu iş altı mərhələyə başa çatır**).**

2. İlgək tikişindən dərslikdə olmayan daha hansılarına rast gəlmisiniz? (yeni ilə yolka bəzə-yərkən oyuncaq hazılayada, "Şaxta babanın simvolu və s.).

3. İlgək tikişını icra edərkən hansı təhlükəsizlik və sanitariya-gigiyena qaydalarına əməl etmək lazımdır? (iynə ilə iləmə qaydaları olaraq, başı düz tutmaq, çox əyilməmək, iynəni saplayarkən, sapı ağıza soxmamaq və s.). **4. İlgək tikişindən istifadə etməklə cırılmış parça məmulatları tikmək olar və necə?** (bəli, belə tikiş həm asan və həm də keyfiyyətli olur). **5. Tikiş zamanı hansı vasitələrdən istifadə edilir?** (qayçı, ölçü lenti, üsgük, iynələr, kəsici alət, deşici alət və s.).

V Nəticə və ümumiləşdirmə

Müəllim şagirdlərin cavablarını ümumiləşdirir və bəzi yarımçıq qalmış cavabları tamamlayır. Onların belə işlərin icrasında əl qabiliyyətlərinin inkişafına, məmulatların hazırlanmasında simmetriya və digər proseslərə əməletmə vərdişlərinin əhəmiyyətini izah etməlidir.

VI Mərhələ: Yaradıcı tətbiqetmə

Müəllim şagirdlərə İKT-nin nailiyyətlərindən istifadə etməklə növbəti dərsdə öyrəndikləri haqqında

internet vasitəsilə tapdıqları fiqurlardan birini evdə hazırlamağı tapşırır.

VII Mərhələ: Qiymətləndirmə. Qrupların fəaliyyətinin meyarlara əsaslanaraq qiymətləndirilməsinə müəllin şagirdləri də cəlb etməsi çox maraqlıdır. Şagirdlər şüurlu olaraq özünün və yoldaşının əməyinin qiymətləndirməsi müasir dövrün ən mühüm tələblərindən biri olduğunu dərk etsin.

Meyar	I qrup	II qrup	III qrup	IV qrup
Tapşırığın tam və düzgün icrası				
İşi vaxtında icraetmə				
Əməkdaşlıq etmə				
Təqdimetmə				
Ümumi balların miqdarı				

Yekun balı hər bir üzvün zəhmətinə görə paylanmasını onlarin ixtiyarına vermək çox maraqlıdır.

Ev tapşırığı: Rəngli kağız üzərində istədiyin fiqurun ilgək tikişi.

Dərs 2. Mövzu: “ İlgək tikişi” (praktiki iş)

Standart: 1.2.1.; 1.2.2.; 1.2.3.; 1.2.4.; 1.3.2.; 1.3.3.; 1.3.4.; 1.3.5. ; 1.3.6.

Məqsəd: Şagird: 1.İlgək tikişinə görə iş yerini təşkil etməyi öyrənir. 2. İlgək tikişini yerinə yetirmək üçün uyğun emal vasitələrini seçməyi öyrənir. 3. İlgək tikişinin yerinə yetirmə ardıcıllığını müəyyən etməyi öyrənir. 4.Tikişə uyğun emal texnologiyasını seçir. 5. İlgək tikişinin yerinə yetirməsinə aid nəzəri biliklərə yiyələnir. 6. Hazırlanacaq məmulatın xarici görünüşünü, görkəmini (tərtibat bacarığı) öyrənir. 7. Nəzəri biliklərin öyrənilməsində birgə fəaliyyət və əməkdaşlıq bacarığı nümayiş etdirir. 8. İşin icrasına aid təhlükəsizlik qaydalarına əməletməyi öyrənirlər. 9. Qoyulmuş problemin cavabını qrup halında təqdim edir.

İnteqrasiya:A/d. 1.1.1.; İnf. 3.2.6.; H/b. 2.1.2.; 4.2.1. T.i: 4.1.2.;

Dərsin tipi: Yeni bilik verən dərs.

İş formaları: Kiçik qruplarla iş, böyük qruplarla iş, fərdi iş.

İş üsulları:Beyn həmləsi, müzakirə.


Resuslar: Dərslik, parça ,rəngli saplar, iynələr oymaq, qayçı, iş vərəqləri, "İlgək tikişə "aid nümünələr


DƏRSİN GEDİŞİ


I Mərhələ: Motivasiya (cəlbetmə), problemin qoyuluşu. Müəllim müxtəlif şəkilləri nümayiş etdirməklə, şagidlərə deməli ki, 1-ci dərsdə nəzəri biliklərə yiyələnmisiniz. Şəkillərdən birini hazılamaqda ixtiyari birini seçə bilərlər.














II Mərhələ: Təqdimatın aparılması

Müəllim sinifi qruplara ayırır. Şagidlərin sayına görə qrupların sayını müəyyənləşdirməlidir. Qruplarda zəif, orta və yaxşı oxuyanların sayı bərabər olmasını təşkil etməlidir. Eyni zamanda qrup üzvlərinin özlərinə lider seçmələrini tapşırır. Birinci dərsdə bu haqqda geniş nəzəri məlumata yiyələnmiş qruplar "GÜL" şəkillərdən birini seçməkdə sərbəstdir. Lakin parça üzərində rəngləri müəllim təyinatını versə, yaxşı olar. Bütün izahat işləri, lavazimatların olmasını müəllim dəqiqləşdirdikdən sora, iş vərəqlərini paylayır.

I qrup. Parça üzərində qırmızı saplarla "İlgək tikiş"ini yerinə yetirin.

II qrup. Parça üzərində göy saplarla "İlgək tikiş"ini yerinə yetirin.

III qrup. Parça üzərində sarı saplarla " İlgək tikiş"ini yerinə yetirin.

IV qrup. Parça üzərində yaşıl saplarla " İlgək tikiş"ini yerinə yetirin. `

Müəllim qrup işinə sinfin səviyyəsinə uyğun zaman ayırır və hazlanmış məmulatları təqdimatdan sonra alaraq, saxlayır.

III Mərhələ: Məlumat mübadiləsi

Bu mərhələdə hər bir qrup birgə fəaliyyətdə öyrəndikləri nəzəri bilikləri təqdim edirlər. Təqdimat üçün hər qrupdan bir nümayəndə gələrək həm yazılı və həm də şifahi olaraq işlərini təqdim edir. Müəllim qrupların təqdimatını yazılı vərəqlərdə qəbul edir. Eyni zamanda hazırladıqları məmulata sinifin qiymət verməsinə şərait yaradacaq. Hər bir qrupun cavablarına digər qrupların münasibət bildirmələrini təşkil edir.

IV Mərhələ: Məlumatın müzakirəsi və təşkili

Müəllim suallarla müzakirəni təşkil edir. O, şagirdlərə suallar verməklə müzakirəni təşkil edir onların müstəqil əldə etdikləri nailiyyətlərin səviyyələrini müəyyənləşdirir. O, qruplara aşağıdakı sualları verir: **1. Gülü parça üzərində necə yerləşdirmək olar?** (gülün şəkili parçanın üzərində

çəkilir). **2. Birinci qrup hansı rəngli sapdan istifadə edib?** (qırmızı). **3. İkinci qrupun istifadə etdiyi sap hansı rəngdədir?** (göy). **4. Üçüncü qrup hansı rəngdə olan sapdan istifadə edib?** (sarı). **5. Dördüncü qrup hansı rəngli sapdan istifadə edib?** (yaşıl). **6. Belə tikişlərə daha harada rast gəlmisiniz?** (milli geyimlərimizdə).

V Mərhələ: Nəticə və ümumiləşdirmə

Müəllim şagirdlərin cavablarını ümumiləşdirir və bəzi yarımçıq qalmış cavabları tamamlayır. Onlara belə işlərin icrasında əl qabiliyyətlərinin inkişafına, məmulatların hazırlanmasında simmetriya və digər proseslərə əməletmə vərdişlərinin əhəmiyyətini izah etməlidir.

VI Mərhələ: Yaradıcı tətbiqetmə

Müəllim şagirdlərə İKT-nin nailiyyətlərindən istifadə etməklə növbəti dərsə "Azərbaycan tikişləri XIX-XX əsrdə "mövzusunda internet məlumatlarını toplamağı tapşırır

VII Mərhələ: Qiymətləndirmə. Qrupların fəaliyyətinin meyarlara əsaslanaraq qiymətləndirilməsinə müəllin şagirdləri də cəlb etməsi çox maraqlıdır. Şagirdlər şüurlu olaraq özünün və

yoldaşının əməyinin qiymətləndirməsi müasir dövrün ən mühüm tələblərindən biri olduğunu dərk etsin.

Meyar	I qrup	II qrup	III qrup	IV qrup
Tapşırığın tam və düzgün icrası				
İşi vaxtında icraetmə				
Əməkdaşlıq etmə				
Təqdimetmə				
Ümumi balların miqdarı				

Yekun balı hər bir üzvün zəhmətinə görə paylanmasını onların ixtiyarına vermək çox maraqlıdır.

Ev tapşırığı: Evlərində qədim tikmələrin foto şəklini çəkmək.

Mövzu 23: DƏM ÇAYNİKİ ÜÇÜN İSTİLİYİ QORUYAN GƏLİNCİK. ƏLCƏK-GƏLİNCİK. (2 saat)

Mövzuya verilmiş 2 saat vaxtdan maksimum faydalanmaq vacibdir. Bu mövzu uşaqların təbiətdə rast gəldikləri istilik hadisələrini izah edəcək. Müəllim onlara əyani olaraq metal, ağac, müxtəlif növ parçalar (pambıq, ipək, sintetik) göstərərək, onların fikirlərini öyrənir. Onlara materialların soyuq və isti olmalarının səbəbləri izah etməlidir. Hazırlanacaq gəlinciyin materialının seçilməsi şagirdlərin ixtiyarına verilməsi onlarda sərbəst düşünmə qabiliyyətini inkişaf etdirəcək. Uşaqlar bu dərsdə həyat bilgisi fənnindən öyrəndiklərini bir daha təkralayırlar. 1-ci saatda nəzəri və 2-ci saatda isə praktiki olaraq, "Gəlincık və Əlcək Gəlinciyi hazırlayacaqlar.

Dərs 1. Mövzu: "Dəm çayniki üçün istiliyi qoruyan gəlincik. Əlcək-gəlincik" (nəzəri biliklərin öyrənilməsi)

Standart: 1.1.1; 1.2.1.; 1.2.2.; 1.2.3.; 1.2.4.; 1.3.1.; 1.3.2.; 1.3.3.; 1.3.4.; 1.3.5.; 1.3.6.

Məqsəd: Şagird: 1. Dəm çayniki üçün istiliyi qoruyan gəlinciyin və əlcək-gəlin-ciyin tikmə texnologiyası ilə tanış olur.2. Hazırlanacaq məmulata görə iş yerini təş-kil etməyi öyrənir.3. Məmulatın hazırlanması üçün emal vasitələrini seçməyi öyrə-nir.4. Məmulatın hazırlanması ardıcıllığını müəyyən etməyi öyrənir. 5. Məmulata uyğun emal texnologiyasını seçməyi öyrənir. 6. Hazırlanacaq məmulatın xarici görnüşünü, görkəmini (tərtibat bacarığı) öyrənir.7. Nəzəri biliklərin öyrənilmə-sində birgə fəaliyyət və əməkdaşlıq bacarığı nümayiş etdirir. 8. İşin icrasına aid təhlükəsizlik qaydalarına əməl etməyi öyrənir. 9. Hazırladıqları cavabları həm yazılı və həm də şifahi təqdim edir.

İnteqrasiya: A/d. 1.1.1.; İnf. 3.2.6.; H/b. 2.1.2.; 4.2.1. T.i: 4.1.2.;

Dərsin tipi: Yeni bilik verən dərs.

İş formaları:. Kiçik qruplarla iş, böyük qruplarla iş, fərdi iş.

İş üsulları: Beyn həmləsi, müzakirə.

Resurslar: Dərslik, parça ,rəngli saplar, oymaq, qayçı, iş vərəqləri, aid nümünələr "Əlcək- gəlincik" hazır şəkildə.

DƏRSİN GEDİŞİ

1 Mərhələ: Motivasiya (cəlbetmə), problemin qoyuluşu

Motivasiya zamanı müəllim əlcəkləri nümayiş etdirərək, onların növü və vəzifələri haqqında şagirdlərin cavablarını dinləyir. Sonra özünün hazırladığını nümayiş etdirərək, nəyə oxşadığını soruşur. Yaxşı olar ki, dəm çayniki də olsun. Əgər sinif İKT ilə təmin olunubsa, müəllim şəkillər taparaq ekrana gətirir və şagirdlərin fikirini dinləyir.





Şagirdlər şəkildəki əlcəydən harada və necə istifadə edildiyini deyəcəklər. Müəllim çayniki göstərərək, onun vəzifəsini soruşur və bu zaman şagirdlərin fikirlərinə hörmətlə yanaşmalıdır. Çay dəmləmək üçün nə etməli? Əgər istilik sistemi yoxdursa, çay dəmləmək üçün hansı üsuldan istifadə

etməli? Şagirdlərin fərqli cavablarını dinlədikdən sonra müəllim dərsin adını elan etməlidir. Onlara bildirir ki, bu dərsdə siz əlcəyin hazırlanması qaydası ilə tanış olacaqsanız.

II Mərhələ: Təqdimatın aparılması

Müəllim sinifi qruplara ayırır. Şagidlərin sayına görə qrupların sayını müəyyənləşdirməlidir. Qruplarda zəif, orta və yaxşı oxuyanların sayı bərabər olmasını təşkil etməlidir. Eyni zamanda qrup üzvlərinin özlərinə lider seçmələrini tapşırır. Sonra müəllim dərslikdə olan mövzunu öyrənməyi tapşırır. Bu işin icrasına mövzunun həcminə uyğun vaxt verir. Qrup halında öyrənilmiş yeni biliklərin mənimsənilməsi səviyyəsini sual-cavabla müəyyənləşdirməli. Onlara aşağıdakı sualları verir**: 1. İsti və soyuq dedikdə nə başa düşürsünüz?** (təbii olaraq Günəşin və süni olaraq yanacaqların verdiyi enerji, isti cismin öz enerjisini itirməsində soyuma baş verir). **2. Qışda hansı materialdan paltar geysəniz, üşümərsiniz?** (yun parçadan). **3. Nə üçün?** (yun istiliyi pis keçirir). **4. Dəm çayniki üçün gəlincik hansı materialdan hazırlansa, çaynik gec soyuyar?** (yun parçadan). **5. Məmulatın hazırlanmasında hansı işlər görülür?** (Bəzəkli başlıq, qollar, bədən

hissəsi və s.) **6. Dəm çaynikinin ölçüsünü nə üçün dəqiqləşdirirlər?** (çaynik gəlinciyin örtüyü altında qalsın). **7. Nə üçün gəlincik əlcəyə astar tikilir?** (istiliyi müəyyən müddət saxlaya bilsin**). 8. İstiliyi qoruyan qatın, astarın hansı tərəfinə yerləşdirmək lazımdır?** (astarın iki tayının arasına). **9. Gəlincik oynadanlar, bu işi necə idarə edirlər?** (əlcək kimi ələ geyməklə). **10. Gəlinciyi asan oynatmaq üçün nə etmək lazımdır?** (patronlar çeçələ və baş barmağa keçirilməlidir).

Qrupların dərslikdən əldə etdiyi nəzəri biliklərin mənimsəmə səviyyəsi müəyyən edildikdən sonra, iş vərəqlərin paylamalı.

I qrup. Dəm çayniki üçün istiliyi qoruyan gəlinciyi necə hazırlamaq olar? Gəlinciyin ölçüləri necə müəyyən edilir?

II qrup. Dəm çayniki üçün istiliyi qoruyan gəlincik hansı materialdan hazırlanır? Nə üçün məmulat yaraşıqlı hazırlanır?

III qrup. Əlcək-gəlincik hansı materialdan hazırlanır? Məmulatı hazırlayanda ülgü necə götürülür?

IV qrup. Əlcək-gəlincik hahsı ardıcıllıqla hazırlanır? Gəlincik oynadanlar hansı üsulla bunu edirlər?

Qrup işinə verilən vaxt tamamlandıqdan sonra, müəllim onları təqdimata dəvət etməlidir.

III Mərhələ: Məlumat mübadiləsi

Bu mərhələdə hər bir qrup birgə fəaliyyətdə öyrəndikləri nəzəri bilikləri təqdim edirlər. Təqdimat üçün hər qrupdan bir nümayəndə gələrək həm yazılı və həm də şifahi olaraq işlərini təqdim edir. Müəllim qrupların təqdimatını yazılı vərəqlərdə qəbul edir. Eyni zamanda hazırladıqları məmulata sinfin qimət verməsinə şərait yaradacaq. Hər bir qrupun cavablarına digər qrupların münasibət bildirmələrini təşkil edir.

IV Mərhələ: Məlumatın müzakirəsi və təşkili

Müəllim suallarla müzakirəni təşkil edir. O, suallar verməklə müzakirəni təşkil edir, şagirdlərin müstəqil əldə etdikləri nailiyyətlərin səviyyələrin müəyyənləşdirir.O, qruplara aşağıdakı sualları verir: **1. Dəm çayniyini isti saxlamaq üçün nədən istifadə olunur?** (istiliyi pis keçirən materiallardan hazırlanan gəlincikdən**). 2. Hansı materiallar istiliyi pis keçirir?** (yun parçalar). **3.Gəlincik necə görmək**

istərdiniz? (yaraşıqlı, bəzəkli və gözə görünən olmalıdır**). 4. Başlığın ölçüsü nə qədər olmalıdır?** (hündürluk və enini ölçmək). **5. Başlıq hansı hissələrdən ibarətdir?** (istiliyi qoruyan qatdan və astardan). **6.İstiliyi qoruyan qat harada yerləşir?** (astarın iki tayının arasında). **7. Gəlincik oynadanlardan necə istifadə edilir?** (əlcək kimi ələ geyilir). **8. Onun ölçüsü orta hesabla nə qədər olmalıdır?** (pambıq parçadan, 30X30 sm ölçüsündə**). 9.Gəlinciyi oynatmaq üçün nə etmək lazımdır?** (çeçələ və baş barmaqdan istifadə etməli).

V Mərhələ: Nəticə və ümumiləşdirmə

Müəllim şagirdlərin cavablarını ümumiləşdirir və bəzi yarımçıq qalmış cavabları tamlayır. Onların belə işlərin icrasında əl qabiliyyətlərinin inkişafına, məmulatlarını keyfiyyətlinin yüksək olmasına yönəltmək məqsədə müvafiqdir. Şagirdlər bu dərsdə təbiəti təyişən istilik, istilikkeçirən və s. haqda məlumatlar əldə edirlər.

VI Mərhələ: Yaradıcı tətbiqetmə

Müəllim şagirdlərə tapşırır ki, İKT-nin nailiyyətlərindən istifadə etməklə növbəti dərsə maraqlı oyuncaq hazırlasınlar.

VII Mərhələ: Qiymətləndirmə. Qrupların fəaliyyətinin meyarlara əsaslanaraq qiymətləndirilməsinə müəllin şagirdləri də cəlb etməsi çox maraqlıdır. Şagirdlər şüurlu olaraq özünün və yoldaşının əməyinin qiymətləndirməsi müasir dövrün ən mühüm tələblərindən biri olduğunu anlaya bilsinlər.

Meyar	I qrup	II qrup	III qrup	IV qrup
Tapşırığın tam və düzgün icrası				
İşi vaxtında icraetmə				
Əməkdaşlıq etmə				
Təqdimetmə				
Ümumi balların miqdarı				

Yekun balı hər bir üzvün zəhmətinə görə paylanmasını onların ixtiyarına vermək çox maraqlıdır.

Ev tapşırığı: Hər kəs öz mətbəxi üçün gəlincik hazırlasın.

Dərs 2. Mövzu: "Dəm çayniki üçün istiliyi qoruyan gəlincik. Əlcək gəlincik" (praktiki iş)

Standart: 1.1.1; 1.2.1.; 1.2.2. 1.2.3.; 1.2.4.; 1.3.1.; 1.3.2.; 1.3.3.; 1.3.4.; 1.3.5.; 1.3.6.

Məqsəd: Şagird: 1.Dəm çayniki üçün istiliyi qoruyan gəlinciyin və əlcək gəlinciyin tikmə texnologiyası ilə tanış olur və hazırlanması qaydalarını öyrənir. 2. Hazırlanacaq məmulata görə iş yerini təşkil etməyi öyrənir. 3. Məmulatın hazırlaması üçün emal vasitələrini seçməyi öyrənir. 4. Məmulatın hazırlaması ardıcıllığını müəyyən etməyi öyrənir. 5. Məmulata uyğun emal texnologiyasını seçməyi öyrənir. 6. Hazırlanacaq məmulatın xarici görnüşünü, görkəmini (tərtibat bacarığı) öyrənir.7. Nəzəri biliklərin öyrənilməsində birgəfəaliyyət və əməkdaşlıq bacarığı nümayiş etdirir.8. İşin icrasına aid təhlükəsizlik qaydalarına əməl etməyi öyrənir. 9. Hazırladıqları cavabları həm yazılı və həm də şifahi təqdim edir.

İnteqrasiya: A/d. 1.1.1.; İnf. 3.2.6.; H/b. 2.1.2.; 4.2.1. T.i: 4.1.2.;

Dərsin tipi: Yeni bilik verən dərs.

İş formaları: Kiçik qruplarla iş, böyük qruplarla iş, fərdi iş.


İş üsulları: Beyn həmləsi, müzakirə.


Resuslar: Dərslik, parça ,rəngli saplar, oymaq, iynə, qayçı, iş vərəqləri, "İlgək tikişə" aid nümünələr

DƏRSİN GEDİŞİ

I Mərhələ: Motivasiya (cəlbetmə), problemin qoyuluşu

Motivasiya zamanı müəllim müxtəlif növ əlcəkləri nümayiş etdirərək, onların növü, vəzifələri haqqında şagirdlərin cavablarını dinləyir. Sonra özünün hazırladığını nümayiş etdirərək, nəyə oxşadığını soruşur. Yaxşı olar ki, dəm çayniki də olsun. Müəllim İKT-dən istifadə etməklə (şərait olduqda) şəkillər taparaq ekrana gətirir və onların fikirini dinləyir.







Müəllim, qrupların 1-ci dərsdə əldə olunmuş nəzəri biliklərə əsasən praktiki işin icrasını onlara tapşırmalıdır. I-IV və II-III qruplar şəkildə vürilmiş gəlicikləri hazırlayacaqlar.

II Mərhələ: Tədqiqatın aparılması

Müəllim sinifi qruplara ayırır. Şagidlərin sayına görə qrupların sayını müəyyənləşdirməlidir. Qruplarda zəif, orta və yaxşı oxuyanların sayı bərabər olmasını təşkil etməlidir. Eyni zamanda qrup üzvlərinin özlərinə lider seçmələrini tapşırır. Bir daha dərsliyə müraciət etməyi tapşırır. Dəslikdə olan mövzu haqqında qrupların kifayət qədər məlumatı olduğu üçün müəllim vaxt itirmədən iş vərəqlərini paylayır.

I-IV qrup. İstiliyi qoruyan gəlincik hazılayın. (şəkilə bax!)

II-III qrup. Əlcək-gəlincik hazırlamalı.(şəkilə bax)

İşin icrasına verilən vaxt tamam olduqdan sonra müəllim qrupları təqdimata dəvət edir.

III Mərhələ: Məlumat mübadiləsi

Bu mərhələdə hər bir qrup birgə fəaliyyətdə öyrəndikləri nəzəri bilikləri təqdim edirlər. Təqdimat üçün hər qrupdan bir nümayəndə gələrək həm yazılı və həm də şifahi olaraq işlərini təqdim edir. Müəllim qrupların təqdimatını yazılı vərəqlərdə qəbul edir. Eyni zamanda hazırladıqları məmulata sinfin qimət verməsinə şərait yaradacaq. Hər bir qrupun cavablarına digər qrupların münasibət bildirmələrini təşkil edir.

IV Mərhələ: Məlumatın müzakirəsi və təşkili

Müəllim suallarla müzakirəni təşkil edir. O, suallar verməklə müzakirəni təşkil edir, onların müstəqil əldə etdikləri nailiyyətlərin səviyyələrini müəyyənləşdirir.O, qruplara aşağıdakı sualları verir**: 1. İstiliyi qoruyan gəlincik hansı məqsədlə istifadə edilir?** (dəm çaynikini isti saxlamaq üçün). **2. Gəlici-yini yaraşıqlı olması nə üçündür?** (mətbəxə gözəllik vermək üçün**). 3. Bu gəlincik hansı hissələrdən ibarətdir?** (başlıqdan və bəzək əşyalarından). **4.**

Başlığın ülgüsü deyəndə nə başa düşülür? (çaynikin hündürlüyü və eni). **5. Başlıq hansı hissələrdən ibarətdir?** (istiliyi qoruyan qatdan və astardan**). 6. İstiliyi qoruyan qat harasında yerləşir?** (astarın iki tayı arasında). **7. Əlcək-gəlincik hansı materialdan hazırlanıb?** (pambıq parçadan).`**8. Gəlincik oynadan və əlcək hansı şəraitdə istifadə olunur?** (hər iki növü ələ geydirilir). **9. Gəlinciyi oynatmaq üçün nə etməli?** (çeçələ və baş barmaqdan istifadə edilir).

V Mərhələ: Nəticə və ümumiləşdirmə

Müəllim şagirdlərin cavablarını ümumiləşdirir və bəzi yarımçıq qalmış cavabları tamlayır. İşlərin icrasında əl qabiliyyətlərinin inkişafına, məmulatlarının keyfiyyətlinin yüksək olmasına diqqətin yönəldilməsi mühüm tələblərdən biridir. Şagirdlər bu dərsdə təbiəti dəyişən istilik, istilikkeçirən və s. haqda məlumatlar əldə etməklə yanaşı istiliyin dəyişməsinin onların ətrafında mühün rol oynadın bilir.

VI Mərhələ: Yaradıcı tətbiqetmə

Müəllim şagirdlərə, İKT-nin nailiyyətlərindən istifadə etməklə növbəti dərsə maraqlı oyuncaq olan "Gəlincik oynadan oyuncaq" hazırlamağı tapşırır.

VII Mərhələ: Qiymətləndirmə. Qrupların fəaliyyətinin meyarlara əsaslanaraq qiymətləndirilməsinə müəllin şagirdləri də cəlb etməsi çox maraqlıdır. Şagirdlər şüurlu olaraq özünün və yoldaşının əməyinin qiymətləndirməsi müasir dövrün ən mühüm tələblərindən biri olduğun dərk edə bilsin.

Meyar	I qrup	II qrup	III qrup	IV qrup
Tapşırığın tam və düzgün icrası				
İşi vaxtında icraetmə				
Əməkdaşlıq etmə				
Təqdimetmə				
Ümumi balların miqdarı				

Yekun balı hər bir üzvün zəhmətinə görə paylanmasını onların ixtiyarına vermək çox maraqlıdır.

Ev tapşırığı: Hər kəs öz mətbəxi üçün gəlincik hazırlasın.

Mövzu 24: QABLAŞDIRMANIN BAĞLANMASI (2 saat)

Mövzuya ayrılan 2 saatın birincisində nəzəri biliklər öyrənilməsi, 2-cisində praktiki işin icra edilməsi məsləhət görülür. Müəllim dərslikdə olmayan bir sıra məlumatların şagirdlərə çatdırmaqla dizayn və dizaynerlər haqqında biliklər verir. Şagirdlər mühəndisin və dizaynerin vəzifələrin öyrənirlər. Eyni zamanda onlar hədiyyələrin hansı formada təqdim edilməsini də öyrənirlər.

Dərs 1. Mövzu "Qablaşdırmanın bağlanması" (nəzəri tapşırıqların icrası)

Standart: 1.1.1; 1.2.1. ; 1.2.3. ; 1.2.4. ;1.3.2. ; 1.3.3.; 1.3.4. ;1.3.5. ; 1.3.6.

Məqsəd: Şagird:1. Qablaşdırmanın bağlanması ilə əlaqədar iş yerini necə hazırla-mağı öyrənir. 2. Qablaşdırmanın bağlanmasının mərhələləri və hazırlanması ardıcıllığını müəyyənləşdirir. 3. Qablaşdırmanın bağlanması üçün uyğun emal texnologiyasını seçir. 4. Qablaşdırmanın detallarını hazırlama qaydalarını öyrənir. 5. Qablaşdırmanın

bağlanmasında sadə tərtibat (xarici görnüşünü , şəklini almaq) bacarığı əldə edir. 6. Qablaşdırmanın bağlanmasında birgəfəaliyyət və əməkdaşlıq nümayiş etdirir. 7. Məmulatın hazırlanması zamanı təhlükəsizlik qadalarına əməl edir. 8. Hazırladığını təqdim etməyi bacarır.

İnteqrasiya: A/d. 1.1.1.; İnf. 3.2.6.; H/b. 2.1.2.; 4.2.1. T.i: 4.1.2.;

Dərsin tipi: Yeni bilik verən dərs.

İş formaları: Kiçik qruplarla iş, böyük qruplarla iş, fərdi iş.

İş üsulları: Beyn həmləsi, müzakirə.

Resuslar: Qaytan, ip, lent, qutu, ayaqqabı qutusu, konfet qutusu, hazı qablaşdırma nümunəsi, iş vərəqi.

DƏRSİN GEDİŞİ

I Mərhələ: Motivasiya (cəlbetmə), problemin qoyuluşu

Müəllim sinfə müraciət edərək soruşmalıdır: 1.Hədiyyə deyəndə nə başa düşürsünüz? (dəyərli və insanın xoşuna gələn bir əşya). 2.Onu hansı hallarda vermək olar? (ad günündə, bayramlarda, insan həyatının ən qiymətli anlarında və s.). 3. Hədiyyəni

necə təqdim etsələr xoşunuza gələr? Müəllim bu sualın cavabını dinlədikdən sonra, hazırladığı nümunəni nümayiş etdirir. Əgər İKT-nin imkanlarından istifadə etmək varsa, ekrana müxtəlif şəkilləri gətirməklə onların zövqlərini də müəyyənləşdirə bilər.







Müəllim sinifə müraciətlə, soruşur: Şəkildə nələri görürsünüz? Onların hər bir şəkilə aid fikrlərini dinlədikdən sonra, bildirir ki, bu gün siz hədiyyələrin təqdim etmə qaydaları haqqında nəzəri bilikləri öyrənəcəksiniz.

II Mərhələ: Tədqiqatın aparılması

Müəllim sinifi qruplara ayırır. Şagidlərin sayına görə qrupların sayını müəy-yənləşdirməlidir.

Qruplarda zəif, orta və yaxşı oxuyanların sayı bərabər olmasını təşkil etməlidir. Eyni zamanda qrup üzvlərinin özlərinə lider seçmələrini tapşırır. Sonra müəllim dərslikdə mövzunu öyrənməyi tapşırır. Bu işin icrasına mövzunun həcminə uyğun vaxt verir. Qrup halında öyrənilmiş yeni diliklərin mənimsənilməsi səviyyəsini sual-cavabla müəyyən etmək üçün onlara aşağıdakı sualları verir**: 1. Qonaq gedəndə nə etməli?** (hədiyyələr almalı). **2. Hansı hallarda hədiyyələr alınır?** (bayramlarda, ad günündə, son zəngdə, diplom alanda, toyda və s.) **3. Hədiyyələr necə təqdim olunsa, maraqlıdır?** (hədiyyələr növünə görə yuxarıdakı şəkillərə uyğun olsa yerinə düşər**). 4. Hədiyyə qutusu necə olsa, xoşa gələn olar?** (qablaşdırma gözəl və cəlbedici olsa**). 5. Qutu nə ilə bağlansa xoşagələn olar?** (rəngli lentlərlə). **6. Dekorativ bağlantı necədir?** (qutunu lentlə çarpaz bağlama ilə). **7. Bəzəkli bağlama üçün hansı barmaqdan istifadə edilir?** (şəhadət və baş barmaqlardan). Müəllim qrupların nəzəri biliklərə yiyələndiklərin müəyyən etdikdən sonra iş vərəqlərini paylayır. Eyni zamanda qrupların işin icrası zamanı seçimdə tam sərbəstlik verir. Ekranda gödüklərinə uyğun qrup işini tapşırır.

I qrup. Qablaşdırmanın bağlanmasında hansı materiallardan istifadə edilir?

II qrup. Ayaqqabı qutusunu bağlamaq üçüun nə qədər qaytan və lent lazımdır?

III qrup. Qablaşdırmanın bağlanmasında lentin ucları hansı uzunluqda olmalıdır?

IV qrup. Konfet qutusuna dekorativ bant necə bağlanır?

Qruplara işin həcminə uyğun ayrılan icra vaxtı bitəndən sonra, müəllim onları təqdimata dəvət edir.

III Mərhələ: Məlumat mübadiləsi

Bu mərhələdə hər bir qrup birgəfəaliyyətdə öyrəndikləri nəzəri bilikləri təqdim edirlər. Təqdimat üçün hər qrupdan bir nümayəndə gələrək həm yazılı və həm də şifahi olaraq işlərini təqdim edir. Müəllim qrupların təqdimatını yazılı vərəqlərdə qəbul edir. Qrupların bir-birinin cavablarına münasibət bildirməyi təşkil etmək.

IV Mərhələ: Məlumatın müzakirəsi və təşkili

Müəllim suallarla müzakirəni təşkil edir. O, suallar verməklə müzakirəni təşkil etməklə onların müstəqil əldə etdikləri nailiyyətlərin səviyyələrin müəyyənləşdirir. O, qruplara aşağıdakı sualları verir: **1.Qablaşdırmanın bağlan-masında hansı material-**

lardan istifadə edilir? (kartondan**). 2.Bağlamanı hansı formada aparmaq olar?** (çarpaz bağlamaqla**). 3. Bağlamanın neçə ucu olacaq və ölçüləri nəqədər olmalıdır?** (iki ucu və uzun ucu 1m, qısa ucu isə 20 sm). **4.Standart ayaqqabı qutusunu bağlamaq üçüun nə qədər qaytan və ya lent lazımdır?** (3m). **5. Konfet qutusuna dekorativ bant necə bağlamaq olar?** (baş və şəhadət barmaqdan istifadə etməklə**). 6. Bağlamanın düyün hissəsi hansı formada olmalıdır?** (hazırlayanın zövqünə uyğun formada).

V Mərhələ: Nəticə və ümumiləşdirmə

Müəllim şagirdlərin cavablarını ümumiləşdirir və bəzi yarımçıq qalmış cavabları tamlayır. İşlərin icrasında əl qabiliyyətlərinin inkişafına, məmulatları keyfiyyətlinin yüksək olmasına diqqətin yönəlilməsi mühüm tələblərdən biridir.

VI Mərhələ: Yaradıcı tətbiqetmə

Müəllim şagirdlərə İKT-nin nailiyyətlərindən istifadə etməklə növbəti dərsə daha maraqlı formaları tapmağı tapşırır.

VII Mərhələ: Qiymətləndirmə. Qrupların fəaliyyətinin meyarlara əsaslanaraq qiymətləndirilməsinə müəllin şagirdləri də cəlb etməsi çox maraqlıdır. Şagirdlər şüurlu olaraq özünün və

yoldaşının əməyinin qiymətləndirməsi müasir dövrün ən mühüm tələblərindən biri olduğun dərk edə bilsin.

Meyar	I qrup	II qrup	III qrup	IV qrup
Tapşırığın tam və düzgün icrası				
İşi vaxtında icraetmə				
Əməkdaşlıq etmə				
Təqdimetmə				
Ümumi balların miqdarı				

Yekun balı hər bir üzvün zəhmətinə görə paylanmasını onlarin ixtiyarına vermək çox maraqlıdır.

Ev tapşırığı: Qablaşmanın bağlanmasında istifadə olunan materialların adını yazmaq.

Dərs 2. Mövzu: "Qablaşdırmanın bağlanması" (praktik iş)

Standart: 1.1.1; 1.2.1.; 1.2.3.; 1.2.4.; 1.3.2.; 1.3.3.; 1.3.4. ; 1.3.5. ; 1.3.6.

Məqsəd: Şagird:1.Qablaşdırmanın bağlanması ilə əlaqədar iş yerini təşkil edir. 2.Qablaşdırmanın bağlanmasının mərhələlər üzrə izah edir. 3. Qablaşdırmanın bağlanması üçün uyğun ardıcıllığı

müəyyənləşirir. 4. Qablaşdırmanın bağlanması üçün uyğun emal texnologiyasını seçir. 5. Detalları birləşdirməklə qablaşdırmanı hazırlayır. 6. Qablaşdırmanın bağlanmasında sadə tərtibat (xarici görnüşünü, şəklini almaq) bacarığı nümmayiş edir. 7.Qablaşdırmanın bağlanmasında birgəfəaliyyət və əməkdaşlıq nümayiş etdirir. 9.Məmulatın hazırlanması zamanı təhlükəsizlik qaydalarına əməl edir.10.Hazırladığını təqdim etməyi bacarır.

İnteqrasiya: A/d. 1.1.1.; İnf. 3.2.6.; H/b. 2.1.2.; 4.2.1. T.i: 4.1.2.;

Dərsin tipi: Yeni bilik verən dərs.

İş formaları: Kiçik qruplarla iş, böyük qruplarla iş, fərdi iş.

İş üsulları: Beyn həmləsi, müzakirə.

Resuslar: Qaytan, ip, lent, qutu, ayaqqabı qutusu, konfet qutusu, hazı qablaş-dırma nümunəsi, iş vərəqi.

DƏRSİN GEDİŞİ

I Mərhələ: Motivasiya (cəlbetmə), problemin qoyuluşu. Müəllim sinifə müraciət edərək soruşmalıdır: **Hədiyyə deyəndə nə başa düşürsünüz?** (dəyərli və insanın xoşuna gələn bir əşya).**Onu hansı hallarda vermək olar?**(ad

günündə, bayramlarda, insan həyatının ən qiymətli anlarında və s.). **Hədiyyəni necə təqdim etsələr xoşunuza gələr?** Müəllim sualların cavabını dinlədikdən sonra, hazırladığı nümunəni nümayiş etdirir. Əgər İKT-dən istifadə etmək imkanı varsa, ekrana müxtəlif şəkilləri gətirməklə onların zövqlərini də müəyyənləşdirə bilər. Qruplara eyni tapşırıq verilir: "Qablaşdırmanı zövqünüzə uyğun icra edin."







II Mərhələ: Tədqiqatın aparılması

Müəllin sinifi qruplara ayırır. Şagidlərin sayına görə qrupların sayını müəyyənləşdirməlidir. Qrup-

larda zəif, orta və yaxşı oxuyanların sayı bərabər olmasını təşkil etməlidir. Eyni zamanda qrup üzvlərinin özlərinə lider seçmələrini tapşırır. Sonra müəllim dərslikdə olan mövzunu öyrənməyi tapşırır. Bu işin icrasına mövzunun həcminə uyğun vaxt verir. Qrup halında öyrənilmiş yeni biliklərin mənimsənilməsi səviyyəsini sual-cavabla müəyyən etmək üçün onlara aşağıdakı sualları verir**: 1. Qonaq gedəndə nə etməli**? (hədiyyələr almalı). **2. Hansı hallarda hədiyyələr alınır?** (bayramlarda, ad günündə, son zəngdə, diplom alanda, toyda və s**.) 3. Hədiyyələr necə təqdim olunsa, maraqlıdır?** (hədiyyələr növünə görə yuxarıdakı şəkillərə uyğun olsa yerinə düşər**). 4. Hədiyyə qutusu necə olsa, xoşa gələn olar?** (qablaşdırma gözəl və cəlbedici olsa**). 5. Qutu nə ilə bağlansa xoşagələn olar?** (rəngli lentlərlə**). 6. Dekorativ bağlantı necədir?** (qutu lentlə çarpaz bağlama ilə**). 7. Bəzəkli bağlama üçün hansı barmaqdan istifadə edilir?** (şəhadət və baş barmaqlardan). Qrupların əldə etdikləri nəzəri biliklərə yiyələndikləri müəyyən olunduqdan sonra müəllim qruplara qablaşdırmanı hazırlamağı tapşırır.

I qrup. Qablaşdırmanın bağlanmasında qırmızı kağızdan istifadə edin.

II qrup. Qablaşdırmanın bağlanmasında sarı kağızdan istifadə edin.

III qrup. Qablaşdırmanın bağlanmasında yaşıl kağızdan istifadə edin.

IV qrup. Qablaşdırmanın bağlanmasında göy kağızdan istifadə edin.

İşə müdaxilə etmədən nəzarət edir. Qruplara işin həcminə uyğun ayrılan icra vaxtı bitəndən sonra, müəllim onları təqdimata dəvət edir.

III Mərhələ: Məlumat mübadiləsi

Bu mərhələdə hər bir qrup birgə fəaliyyətdə hazırladığını təqdim edirlər. Təqdimat üçün hər qrupdan bir nümayəndə gələrək həm yazılı və həm də şifahi olaraq işlərini təqdim edir. Müəllim qrupların təqdimatını yazılı vərəqlərdə qəbul edir. Eyni zamanda hazırladıqları qutuları da qəbul edərək, digər qrup üzvlərinin münasibətini də dinləyir.

IV Mərhələ: Məlumatın müzakirəsi və təşkili

Müəllim suallarla müzakirəni təşkil edir. O, suallar verməklə müzakirəni təşkil etməklə onların müstəqil əldə etdikləri nailiyyətlərin səviyyələrin müəyyənləşdirir. O, qruplara aşağıdakı sualları verir**: 1. Qablaşdırmada nədən istifadə etdiniz?** (karton qutudan). **2. Bu iş üçün daha sadə hansı qutulardan**

istifadə etmək olar? (ayaqqabı qutusundan). **2. Qutunu nə ilə bükdünüz?** (rəngli kagızlarla). **3. Start qutuya nə qədər lent istifadə etdiniz?** (3m). **4.Qutunu rəngli kağıza nə üçün bükürlər?** (gözəl görünməsi üçün). **5. Lenti bağlayarkən nəyi əsas tutmalı?** (bağlanma nöqtəsini işin əvvəlində təyin etməklə).

6.Dekorativ bağlamada hansı barmaqlardan istifadə etdiniz? (baş və şəhadət). **7. Lentin bağlanmasın necə icra etdiniz?** (lentin ucunu barmaqlara 8 şəklində dolamaqla).

V Mərhələ: Nəticə və ümumiləşdirmə

Müəllim şagirdlərin cavablarını ümumiləşdirir və bəzi yarımçıq qalmış cavabları tamlayır. İşlərin icrasında əl qabiliyyətlərinin inkişafına, məmulatların keyfiyyətlinin yüksək olmasına diqqətin yönəlilməsi mühüm tələblərdən biridir. Şagirdlər sonda dizayn və dizaynerlər haqqında nəzəri biliklərə yiyələnirlər.

VI. Mərhələ: Yaradıcı tətbiqetmə.

Müəllim şagirdlərə İKT-nin nailiyyətlərindən istifadə etməklə növbəti dərsə daha maraqlı formaları tapmağı tapşırır.

VII Mərhələ: Qiymətləndirmə. Qrupların fəaliyyətinin meyarlara əsaslanaraq qiymətləndiril-

məsinə müəllin şagirdləri də cəlb etməsi çox maraqlıdır. Şagirdlər şüurlu olaraq özünün və yoldaşının əməyinin qiymətləndirməsi müasir dövrün ən mühüm tələblərindən biri olduğun dərk edə bilsin.

Meyar	I qrup	II qrup	III qrup	IV qrup
Tapşırığın tam və düzgün icrası				
İşi vaxtında icraetmə				
Əməkdaşlıq etmə				
Təqdimetmə				
Ümumi balların miqdarı				

Yekun balı hər bir üzvün zəhmətinə görə paylanmasını onların ixtiyarına vermək çox maraqlıdır.

Ev tapşırığı: Sərbəst iş verməli.

Mövzu 25: BƏDİİ QURAŞDIRMA. DİZAYN (1 saat)

Dərs: "Bədii quraşdırma. Dizayn"

Standart: 1.1.1.; 1.3.4.; 1.3. 6.

Məqsəd: Şagird:1. Müxtəlif emal texnologiyalarına aid iş proseslərini mərhələlər üzrə izah edir.2. Tapşırıqları yerinə yetirərkən birgə fəaliyyət və əməkdaşlıq bacarığı nümayiş etdirir.3. Hazırladığı məmulatı təqdim edir.

İnteqrasiya: A/d. 1.1.1.; İnf. 3.2.6.; H/b. 2.1.2.; 4.2.1. T.i: 4.1.2.;

Dərsin tipi: Yeni bilik verən dərs.

İş formaları: Kiçik qruplarla iş, böyük qruplarla iş, fərdi iş.

İş üsulları: Beyn həmləsi, müzakirə.

Resuslar: Qaytan, ip, lent, qutu, ayaqqabı qutusu, konfet qutusu, hazı qablaşdırma nümunəsi, iş vərəqi.

DƏRSİN GEDİŞİ

I Mərhələ: Motivasiya (cəlbetmə), problemin qoyuluşu

Müəllim İKT-nin imkanlarından istifadə etməklə müxtəlif şəkilləri ekrana gətirərək, uşaqların fikirlərini dinləyir.








Şagirdlər müxtəlif şəkilləri müşahidə etdikdən sonra müəllim onlara aşağıdakı sualları verir: **1. Alıcı kimi mağazadan alacağınız əmtəə malının hansı**

xüsusiyyətləri sizin üçün vacibdir? (ilk növbədə xarici gözəlliyi və keyfiyyətli hazırlanması). **2. Əmtəə malı nədir?** (satmaq üçün hazırlanan məmulatlardır). **3.Siz evinizdəki otaqları yuxarıdakı şəkillərdəki kimi görmək istəyərdinizmi?** (məlumdur ki, hamısı "bəli" deyəcək). **4. Əgər avtomobil alsaydınız şəkildə gördüyünüz hansı sizin diqqətinizi cəlb edəcək?** (hər biri zövqlərinə uyğun gələni deyəcək). **5. Bu gözəlliyi yaradanlar kimlərdir?** (cavablarında əmək adamları, mühəndislər deyəcəklər). müəllim sinfə elan edir ki, dərsimizin mövzusu **"Bədii quraşdırma. Dizayn" olacaq.**

II Mərhələ: Tədqiqatın aparılması

Müəllim sinifi qruplara ayırır. Şagidlərin sayına görə qrupların sayını müəyyənləşdirməlidir. Qruplarda zəif, orta və yaxşı oxuyanların sayı bərabər olmasını təşkil etməlidir. Eyni zamanda qrup üzvlərinin özlərinə lider seçmələrini tapşırır. Sonra müəllim dərslikdəki mövzunu öyrənməyi tapşırır. Bu işin icrasına mövzunun həcminə uyğun vaxt verir. Qrup halında öyrənilmiş yeni biliklərin mənimsənilməsi səviyyəsini sual-cavabla müəyyən etmək üçün onlara aşağıdakı sualları verir: **1.Əmtəə malı**

nədir? (satılmaq üçün hazırlanan məmulatdır). **2.Dizayn nədir?** (əşyaların bədii quraşdırılması üzrə fəaliyyətdir). **3. Bədii quraşdırma ilə məşğul olan insan kimdir?** (o insan dizayner adlanır**).4. Dizayn nə deməkdir?** (ingilis sözü olaraq, layihə, təsvir, görünüş deməkdir). **5. Bədii dizayn nə yaradır?** (bədii dizayn incəsənət və gözəlliyin vəhdətindən yaranır). **6. Mühəndisin vəzifəsi nədir?** (məmulatın texniki-texnoloji sənədlərdə olan layihəsini işləyir**). 7. Dizaynerin vəzifəsi nədir?** (dizayner məmulatın təsvirlərdə, maketlərdə verən layihəsini işləyir). **8. Dizayner nə yaradır?** (dizayner məmulatın obrazlaını, xarici görünüşünü yaradır). **9. Dizaynın məişət texnikasında rolu deyəndə nə başa düşülür?** (yəni televizor, tozsoran, saçqurudan, soyuducu və s. rolu). **10. Dizaynın avtomobillərdə rolu nədir?** (müxtəlf avtomobil markaları başa düşülür). Müəllim uşaqların cavablarından sonra iş vərəqlərini pay-laymalıdır.

Bütün qruplara sərbəst iş olaraq, şəkildə olanlardan **birinin plastilindən hazırlamalarını tapşırmalı.**

I qrup. Mağazada əmtəə malı alıcının diddətini hansı xüsusiyyətləri ilə cəlb edir? Məişət texnikası, mebel, təsərrüfat malları haqqında fikrinizi bildirin.

II qrup. Dizayn və dizayner arasında fərq nədədir? Eyni təyinatlı müxtəlif çeşidli mallar içərisində hansı məmulatlara üstünlük verərsiniz? Nə üçün?

III qrup. Mühəndis və dizaynerin vəzifələrini sadalayın, bədii dizayn və məmu-latların hazırlanmasındakı rolunu yazın.

IV qrup. Müxtəlif avtomobil modellərini sadalayın. Hansı model sizi daha çox cəlb edir və nə üçün?

Qruplara işin həcminə uyğun ayrılan icra vaxtı bitəndən sonra, müəllim onları təqdimata dəvət edir

III Mərhələ: Məlumat mübadiləsi

Bu mərhələdə hər bir qrup birgəfəaliyyətdə öyrəndikləri nəzəri bilikləri təqdim edirlər. Təqdimat üçün hər qrupdan bir nümayəndə gələrək həm yazılı və həm də şifahi olaraq işlərini təqdim edir. Müəllim qrupların təqdimatını yazılı vərəqlərdə qəbul edir. Qrupların bir-birinin cavablarına münasibət bildirməyi təşkil etmək.

IV Mərhələ: Məlumatın müzakirəsi və təşkili

Müəllim suallarla müzakirəni təşkil edir. O, suallar verməklə müzakirəni təşkil etməklə onların müstəqil əldə etdikləri nailiyyətlərin səviyyələrin müəyyənləşdirir. O, qruplara aşağıdakı sualları verir: **1. Bədii quraşdırma nədir?** (incəsənətdə gözəlliyin yaranması). **2. Mağazada əmtəə malı alıcının diddətini hansı xüsusiyyətləri ilə cəlb edir?** (qiyməti, gözəlliyi, rahatlığı, qeyri-adi görnüşü və s.**). 3. Məişət texnikası, mebel, təsərrüfat malları haqqında haqqında fikrinizi bildirin.** (keyfiyyəti, xarici görnüşü, gözəlliyi və s.).**4. Dizayn və dizayner arasında fərq nədədir?** (məmulatın bədii quraşdıran, digəri isə bu işi yerinə yetirəndir**). 5. Eyni təyinatlı müxtəlif çeşidli mallar içərisində hansı məmulatlara üstünlük verərsiniz? Nə üçün?** (ən yaxşısı və keyfiyyətlisi). **6.Mühəndis və dizaynerin vəzifələri nədir?** (mühəndis layihələri işləyən, dizayner isə təsvirdə və maketdə layihəsin verəndir). **7. Hansı avtomobil modellərin tanıyırsınız?** (onlar həyatda gördükləri markaları sadalayırlar). **8.Hansı model sizi daha çox cəlb edir və nə üçün?** (təhlükəsizliliyi, möhkəmliyi, idarə olunmada rahatlığı, estetikliyi, mühərrikin qənaətliliyi və s).

V Mərhələ: Nəticə və ümumiləşdirmə

Müəllim şagirdlərin cavablarını ümumiləşdirir və bəzi yarımçıq qalmış cavabları tamlayır. Onların belə işlərin icrasında əl qabiliyyətlərinin inkişafına, məmulatlarının keyfiyyətlinin yüksək olmasına diqqət verməlidir. Şagirdlər bu dərsdə dizayn, dizayner və mühəndislik peşəsi haqqında müəyyən biliklərə yiyələnirlər.

VI. Mərhələ: Yaradıcı tətbiqetmə

Müəllin şagirdlərə, İKT-nin nailiyyətlərindən istifadə etməklə növbəti dərsə daha maraqlı formaları tapmağı tapşırır. Hər bir şagird internetdən zövqünə görə dizayn edilmiş bir məmulatın tapıb, təqdim etməsini tapşırmalı.

VII Mərhələ: Qiymətləndirmə. Qrupların fəaliyyətinin meyarlara əsaslanaraq qiymətləndirilməsinə müəllin şagirdləri də cəlb etməsi çox maraqlıdır. Şagirdlər şüurlu olaraq özünü və yoldaşının əməyinin qiymətləndirməsi müasir dövrün ən mühüm tələblərindən biri olduğun dərk edə bilsin.

Meyar	I qrup	II qrup	III qrup	IV qrup
Tapşırığın tam və düzgün icrası				
İşi vaxtında icraetmə				
Əməkdaşlıq etmə				
Təqdimetmə				
Ümumi balların miqdarı				

Yekun balı hər bir üzvün zəhmətinə görə paylanmasını onların ixtiyarına vermək çox maraqlıdır.

Ev tapşırığı: Sərbəst iş.

Mövzu 26: PAPYE-MAŞEDƏN HAZIRLANMIŞ MƏMULATLAR (2 saat).

İlk növbədə bu material haqqında şagirdlərə məlumatın verilməsi çox önəmlidir. Papye-maşe, müxtəlif məmulatların kağız kütləsindən hazırlanma pro-sesidir. Bu materialdan tədris prosesində oyuncaqların, karnaval maskalarının, dekorativ bəzək əşyalarının hazırlanmasında və s. geniş istifadə edilir. Bu materi-alın hazırlanması texnologiyasını iki yolla şagirdlərə izah etmək olar: 1. Video vasitəsilə; 2. Əyani şəkildə hazırlamaqla. Məmulatın hazırlanmasının iki üsulu ilə uşaqları tanış etməli: 1-ci üsul: Əyani olaraq papye-maşe hazırlamaq üçün qaba salfetka kağızlarını qoyaraq, üstünə cüzi miqdarda su tökərək əllə çəngələnir, sonra onu ovucda suyunu sıxmaqla başqa qaba qoymalı. Üstünə PVA yapışqanını tökərək, əlcəklə çəngələməli və üstünə yapışqan həcmdə şpakilovka əlavə edərək qarışdırmalı. Növbəti mərhələdə ora qaşıqla un tökülərək qarışdırılır. Unun qarışdırılması bərkiyənə qədər davam etməlidir. Növbəti məhsul bitki yağı, duru sabun və yenə un, qarışdırılır. Bu proses ələ yapışmayana qərər dəvam etdirilir. Sonra onu salafan paketlərə yığıb, saxlanmalı. 2-ci üsul: Nimçəyə 1

stəkan su tökməli, sonra ora yapışqanlı kraxmal əlavə etdikdən sonra həll olana qədər qarışdıraraq xırda-xırda kağız qırıntıların düzməli. Mövzuya verilmiş 2 saatdan səmərəli istifadə etmək məqsədi ilə bu material haqqında şagirdlərə onların dərk etdikləri səviyyədə məlumat vermək lazımdır. Bu materialın hazırlanması və tətbiq sahələri haqqında məlumat verilməlidir. Ona görə də müəllim 1-ci saat nəzəri və 2-ci saatda bu materialdan istifadə etməklə görülən işə istiqamət verməlidir.

Dərs 1. Mövzu: "Papye-maşedən hazırlanmış məmulatlar" (nəzəri məlumatlar).

Standart:1.1.1; 1.2.1.; 1.2.2.; 1.2.3.; 1.2.4.;1.3.1.; 1.3.2.; 1.3.3.; 1.3.4.;1.3.5.; 1.3.6.

Məqsəd: Şagird: 1. Müxtəlif emal texnologiyalarını izah edir. 2. Məmulat hazır-lamaq üçün iş yerini necə seçməyi öyrənir. 3. Məmulat hazırlamaq üçün emal vasi-tələrini seçməyi öyrənir. 4. Məmulat hazırlama ardıcıllığını öyrənir. 5. Materiala uyğun materialı seçir. 6. Hazırlanacaq məmulatın detallarının necə hazırlanmasın öyrənir.7. Detalları necə birləşdirməyi öyrənir. 8. Məmulatın xarici

görnüşünü, şəklini almağına (tərtibat) yiyələnir. 9. Qrupda birgəfəaliyyət göstərir.

10. Sanitariya-gigiyena qaydalarına əməl edir. 11. Hazırlanmış nəzəri məlumatları təqdim edir.

İnteqrasiya: A/d. 1.1.1.; İnf. 3.2.6.; H/b. 2.1.2.; 4.2.1. T.i: 4.1.2.;

Dərsin tipi: Yeni bilik verən dərs.

İş formaları: Kiçik qruplarla iş, böyük qruplarla iş, fərdi iş.

İş üsulları: Beyn həmləsi, müzakirə.

Resurslar: Dərslik**,** qaytan, ip, lent, qutu, ayaqqabı qutusu, konfet qutusu, hazı qablaşdırma nümunəsi, iş vərəqi.

DƏRSİN GEDİŞİ

I Mərhələ: Motivasiya (cəlbetmə), problemin qoyuluşu. Videonu nümayiş etdirəndən sonra müəllim sinfə müraciət edərək soruşmalıdır: Ekrana gətirilmiş şəkillərdə nə görürsünüz? Şagirdlər gördükləri haqqında fikirlərini bildirdikdən sonra müəllim elan edir ki, şəkildə gördüklərinizəşyaları yaraşıqlı etmək üçün istifadə edilən material haqqında


video və kitabdan məlumatlar əldə edəcəksiniz. Onlardan vidioda gördükləri haqda soruşmalı.













II Mərhələ: Tədqiqatın aparılması

Müəllim sinifi qruplara ayırır. Şagidlərin sayına görə qrupların sayını müəyyənləşdirməlidir. Qruplarda zəif, orta və yaxşı oxuyanların sayı bərabər olmasını təşkil etməlidir. Eyni zamanda qrup üzvlərinin özlərinə lider seçmələrini tapşırır. Sonra müəllim dərslikdəki mövzunu öyrənməyi tapşırır. Bu işin icrasına mövzunun həcminə uyğun vaxt verir. Qrup halında öyrənilmiş yeni biliklərin mənimsənilməsi səviyyəsini sual-cavabla müəyyən etmək üçün onlara aşağıdakı sualları verir: **1.Yapma deyəndə nə başa düşürsünüz?** (plastilindən və ya gil vasitəsi ilə fəaliyyət növüdür). **2. Papye-maşe necə hazırlanır?** (videoda göstərilən kimi hazırlanır). **3.Papye-maşe hansı tərkibdən ibarətdir?** (1-ci üsul-salfetka+ su+PVA+ şpaklovka+ bitki yağı+un). **4. 2-ci üsul necədir?**(nimçə, bir stəkan su, yapışqanlı nişasta, kağız qırıntıları). **5. Papye-maşe nə deməkdir?** (çeynənmiş kağız deməkdir**). 6. İş prosesi neçə mərhələdə başa çatacaq?** (on mərhələdə). Müəllim qrupların dərslikdən əldə edikləri biliklərin səviyyəsin müəyyən etdikdən sonra iş vərəqlərini paylayır.

I qrup. Papye-maşe necə hazırlanır və hansı tərkibdədir?

II qrup. Papye-maşedən nələr hazırlanır?

III qrup. Papye-maşe harada yaranmış və harada geniş tətbiq olunub?

IV qrup. İşin gedişini izah edin.

Qrup işinə verilən vaxt tamam olandan sonra onları təqdimata dəvət etməlidir.

III Mərhələ: Məlumat mübadiləsi

Bu mərhələdə hər bir qrup birgə fəaliyyətdə öyrəndikləri nəzəri bilikləri təqdim edirlər. Təqdimat üçün hər qrupdan bir nümayəndə gələrək həm yazılı və həm də şifahi olaraq işlərini təqdim edir. Müəllim qrupların təqdimatını yazılı vərəqlərdə qəbul edir. Qrupların bir-birinin cavablarına münasibət bildirməyi təşkil etmək.

IV Mərhələ: Məlumatın müzakirəsi və təşkili

Müəllim suallarla müzakirəni təşkil edir. O, suallar verməklə müzakirəni təşkil etməklə onların müstəqil əldə etdikləri nailiyyətlərin səviyyələrin müəyyənləşdirir.O, qruplara aşağıdakı sualları verir: **1.Siz bu gün nə öyrəndiniz?** (papye-maşenin hazırlanmasını). 2**. Papye-maşe necə hazırlanır və hansı tərkib-dədir?** (Dərslikdə verilən ardıcıllıqla). **3. Papye-maşedən nələr hazırlanır?** (oyuncaqlar, maskalar, dekarativ məmulatlar, teatr tamaşaları uçün

məmulatlar). **4.Məmulatı hazırlamaq üçün özül nədən olmalıdır?** (vaza, nimçə, stəkan ya da plastilindən hazırlanmış istənilən fiqur**). 5. Salafan nə üçündür?** (hazırlanmış məmulatı asanlıqla çıxartmaq üçün**). 6. Pəstah sonra nə ilə yapışdırılır?** (PVA yapışqanı ilə). **7. Qurudulmuş pəstah üzərində hansı işlər icra olunur?** (fla-masterlə bəzək işləri). **8. Bu sözün mənası nədir?** (çeynənmiş kağız deməkdir). **9.Bu material nə vaxt və hansı məqsədlərdə istifadə edilib?** (XVIII əsrdə Avropada tütün qabı, mücrülər, altlıqlar və s). 10. **Pəstah nədir?** (hazırlanacaq detal üçün seçilmiş materialdır).

V Mərhələ: Nəticə və ümumiləşdirmə

Müəllim şagirdlərin cavablarını ümumiləşdirir və bəzi yarımçıq qalmış cavabları tamamlayır. Papye-maşe haqqında və bu materialdan hazırlanan məmulatları müəllim onlara xatırladır. Eyni zamanda onlara bildirir ki, növbəti dərsdə nəzəri biliklərə əsaslanaraq məmulatlar hazırlayacaqsınız. Şagirdlər bilir ki, nəzəri bilik praktiki işin icrasında mühüm əhəmiyyətə malikdir.

VI Mərhələ: Yaradıcı tətbiqetmə

Müəllim şagirdlərə İKT-nin nailiyyətlərindən istifadə etməklə növbəti dərsə daha maraqlı formaları tapmağı tapşırır. Hər bir şagird internetdən zövqünə

görə dizayn edilmiş bir məmulatın tapıb, təqdim etməsini tapşırmalı.

VII Mərhələ: Qiymətləndirmə. Qrupların fəaliyyətinin meyarlara əsaslanaraq qiymətləndirilməsinə müəllin şagirdləri də cəlb etməsi çox maraqlıdır. Şagirdlər şüurlu olaraq özünün və yoldaşının əməyinin qiymətləndirməsi müasir dövrün ən mühüm tələblərindən biri olduğun dərk edə bilsin .

Meyar	I qrup	II qrup	III qrup	IV qrup
Tapşırığın tam və düzgün icrası				
İşi vaxtında icraetmə				
Əməkdaşlıq etmə				
Təqdimetmə				
Ümumi balların miqdarı				

Yekun balı hər bir üzvün zəhmətinə görə paylanmasını onların ixtiyarına vermək çox maraqlıdır.

Ev tapşırığı: İnternetdən materialın hazırlanma qaydaları.

Dərs 2. Mövzu: "Papye-maşedən hazırlanmış məmulatlar" (praktiki iş)

Standart:1.1.1;1.2.1.;1.2.2.; 1.2.3.;1.2.4.;1.3.1.; 1.3.2.; 1.3.3. ; 1.3.4. ;1.3.5. ; 1.3.6.

Məqsəd:Şagird: 1.Müxtəlif emal texnologiyalarını izah edir. 2.Məmulat hazırla-maq üçün iş yerini təşkil edir. 3. Məmulat hazırlamaq üçün emal vasitələrini seçir. 4.Məmulat hazırlama ardıcıllığını müəyyənləşdirir. 5. Məmulata uyğun materialı seçir. 6.Hazırlanacaq məmulatın materialına uyğun emal texnologiyasını seçir.

7. Detallarını birləşdirərək məmulat hazırlayır . 8. Sadə tərtibat bacarıqları nümayiş etdirir.9.Qrupda birgə fəaliyyət göstərir. 10.Sanitariya-gigiyena qaydalarına əməl edir. 12. Hazırlanmış məmulatı təqdim edir.

İnteqrasiya: A/d. 1.1.1.; İnf. 3.2.6.; H/b. 2.1.2.; 4.2.1. T.i: 4.1.2.;

Dərsin tipi: Yeni bilik verən dərs.

İş formaları: Kiçik qruplarla iş, böyük qruplarla iş, fərdi iş.

İş üsulları: Beyn həmləsi, müzakirə.

Resurslar: Qəzet kağızı, içərisində su olan nimçə, yapışqanlı nişastadan hazırlanmış çiriş,

selafan təbəqə, PVA yapışqanı, sulu emulsiya, xırda dənəli sumata kağızı, bıçaq, qayçı, yapışqan, müxtəlif boyalar və fırçalar.

DƏRSİN GEDİŞİ

I Mərhələ. Motivasiya (cəlbetmə). Müəllim İKT-nin nailiyyətlərindən istifadə edərək, müxtəlif şəkilləri ekrana gətirməklə şagirdlərə bildirir ki, istədiyiniz məmulatı papye-maşe ilə hazırlaya bilərsiniz. Onları vidio vasitəsilə materialın hazırlanması qaydası ilə 1-ci dərsdə etdiyindən işin praktik hissəsi bir qədər asan olacaq. Müəllim çalışmalıdır ki, şagirdlər tədqiqatçı olsunlar.









Şagirdlərin sadə yolla papye-maşe almasına müəllim istiqamət verməlidir. Onlara bu materialın hazırlanmasına aid videonu təkrar göstərir və praktiki hazırlamalarına yardım edir. Bir daha onlara bildirir ki, nimçəyə 1 stakan suya 5 qaşıq yapışqanlı nişasta töküb, qarışdırmalı və 3-4 vərəq xırda-xırda doğrayıb, suda isladaraq işə hazırlamalı.

II Mərhələ: Tədqiqatın aparılması

Müəllim sinifi qruplara ayırır. Şagidlərin sayına görə qrupların sayını müəyyənləşdirməlidir. Qruplarda zəif, orta və yaxşı oxuyanların sayı bərabər olmasını təşkil etməlidir. Eyni zamanda qrup üzvlərinin özlərinə lider seçmələrini tapşırır. Müəllim dərslikdəki mövzunu bir daha təkrar etmələrini tapşırır. Şagirdlərin videoda müşahidə etdikləri və dərslikdən öyrəndiklərini müəyyən etmək məqsədi ilə onlara aşağıdakı sualları verir: **1.Videoda nəyin hazırlanması nümayiş olundu?** (konfet qabı**). 2. Nə üçün hazır qabın arxa tərəfinə salafan çəkildi?** (məmulat hazır olandan sonra asan qopa bilsin). **3.Material hansı tərkibdən ibarətdir?** (uşaqlar videoda gördüklərini deyəcək). **4. İşin ardıcıllığı necədir?** (salafanın üstünə kağız qırıntıları səliqə ilə yaışdırılır**). 5. Qalınlıq nə qədər çox olsa yaxşı olar?**

(qalınlıq nə qədər çox olsa alınacaq qab möhkəm olar). Müəllim qrupların nəzəri hazırlığını müəyyən edəndən sonra iş vərəqlərini paylamalıdır.

I qrup. Konfet qabının hazırlanması. Mavi rəngli quaşdan istifadə etməli.

II qrup. Nimçənin hazırlanması. Qəhvəyi rəngli quaşdan istifadə etməli.

III qrup. Fincanın hazırlanması. Sarı rəngli quaşdan istifadə etməli.

IV qrup. Kasanın hazırlanması. Qırmızı rəngli quaşdan istifadə etməli.

Müəllim müdaxilə etmədən işə nəzarət etməlidir. İşə verilən vaxt sona çatandan sonra təqdimata onları dəvət etməlidir.

III Mərhələ: Məlumat mübadiləsi

Bu mərhələdə hər bir qrup birgə fəaliyyətdə hazırladıqları məmulatları təqdim edirlər. Hər qrup-dan bir nəfər hazırladıqlarını təqdim eirlər. Müllim təqdim etdiklərini alaraq, saxlayacaq. Qrupları bir-birini qiymətlənməyə cəlb etməsin müəllim təşkil edir.

IV Mərhələ: Məlumatın müzakirəsi və təşkili

Müəllim suallarla müzakirəni təşkil edir. O, suallar verməklə müzakirəni təşkil etməklə onların

müstəqil əldə etdikləri nailiyyətlərin səviyyələrini müəyyənləşdirir. O, qruplara aşağıdakı sualları verir: **1. Konfet qabını necə hazırladınız?** (hazır qabı salafanla bükərək, onun üzərinə yapışqanlı kağızları düzməklə). **2. Nimçəni necə hazırladınız?** (hazır nimçənin üzərinə vərəqləri düzməklə**). 3. Fincanı necə hazırladınız**? (yenə də əsas fincanın üzərində papye-maşedən yeni məmulat hazırlandı). **4. Kasanı necə hazırladınız?** (əməliyyat eynidir, yalnız məmulatlar fərqlidir).

V Mərhələ: Nəticə və ümumiləşdirmə

Müəllim şagirdlərin cavablarını ümumiləşdirir və bəzi yarımçıq qalmış cavabları tamamlayır. Papye-maşe haqqında və bu materialdan hazırlanan məmulatları müəllim onlara xatırladır. Eyni zamanda onlara bildirir ki, növbəti dərsdə hazırladıqları məmulatları formaya salacaqlar.

VI Mərhələ: Yaradıcı tətbiqetmə

Müəllim şagirdlərə İKT-nin nailiyyətlərindən istifadə etməklə növbəti dərsə daha maraqlı formaları tapmağı tapşırır. Hər bir şagird internetdən zövqünə görə dizayn edilmiş bir məmulatı tapıb, təqdim etməsini tapşırmalı.

VII Mərhələ: Qiymətləndirmə. Qrupların fəaliyyətinin meyarlara əsaslanaraq qiymət-ləndirilməsinə müəllin şagirdləri də cəlb etməsi çox maraqlıdır. Şagirdlər şüurlu olaraq özünün və yoldaşının əməyinin qiymətləndirməsi müasir dövrün ən mühüm tələblərindən biri biri olduğun dərk edə bilsin.

Meyar	I qrup	II qrup	III qrup	IV qrup
Tapşırığın tam və düzgün icrası				
İşi vaxtında icraetmə				
Əməkdaşlıq etmə				
Təqdimetmə				
Ümumi balların miqdarı				

Yekun balı hər bir üzvün zəhmətinə görə paylanmasını onların ixtiyarına vermək çox maraqlıdır.

Ev tapşırığı: Mətbəx əşyalarında ən çox xoşladıqlarını hazlasınlar.

Mövzu 27: YARIQLI KİLİDİ OLAN HƏCMLİ MƏMULATLAR (2saat).

Maraqlı mövzudur. Müəllim çalışmalıdır ki şagirdlərə belə birləşmələrdən hazırlan məmulatlar haqqında əlavə məlumatlar versin. Yaxşı olar ki, müəllim videolardan istifadə etməklə Şəki xan sarayinda bəzi şəbəkələrin heç bir mıx, yapışqan olmadan birləşmələrini nümayiş etdirməklə, mövzu haqqında şagirdlərə məlumat verməsin. Onların videoda gördükləri dərs haqqında təsəvvürləri artıracaq. Bu dərsdə də yenə müəllim müstəqildir. Yaxşı olar ki, 1-ci dərsdə nəzəri biliklər və 2-ci dərsdə yaradıcı işlərin icra olunsun. Yəni şagirdlər nəzəri biliklərə əsaslanaraq, kağızdan və kartondan məmulatlar hazırlayacaqlar.

Dərs 1. Mövzu: "Yarıqlı kilidi olan həcmli məmulatlar" (nəzəri məlumatlar).

Standart: 1.1.1; 1.2.1.; 1.2.2.; 1.2.3.; 1.2.4.;1.3.1.; 1.3.2.;1.3.3.; 1.3.4.;1.3.5.; 1.3.6.

Məqsəd:Şagird: 1. Yarıqlı kilidi olan həcmli məmulatın hazırlanması texnologiyasına aid iş prosesinin mərhələlərini öyrənir. 2. Məmulata uyğun

iş yerini seçməyi öyrənir. 3. Məmulata uyğun emal vasitələrini seçməyi öyrənir.

4. Məmulatın fiqurunun hazrlanma ardıcıllığını öyrənir. 5. Emal texnologiyalarını seçməyi bacarır. 6.Yarıqlı kilidi olan həcmli məmulatın detallarının necə hazırlanmasını öyrənir. 7. Yarıqlı kilidin detallarını birləşdirmək və hazırlanma qaydalarını öyrənirlər. 8. Məmulatın hazırlanmasında sadə tərtibat bacarıqları nümayiş etdirir. 9. İşin qrup tərəfindən hazırlanmasında əməkdaşlıq edir. 10. İş prosesində təhlükəsizlik qaydalarına əməl edir. 11. Məmulatın hazırlanmasına aid nəzəri məlumatları təqdim edir.

İnteqrasiya: A/d. 1.1.1.; İnf. 3.2.6.; H/b. 2.1.2.; 4.2.1. T.i: 4.1.2.;

Dərsin tipi: Yeni bilik verən dərs.


İş formaları: Kiçik qruplarla iş, böyük qruplarla iş, fərdi iş.


İş üsulları: Beyn həmləsi, müzakirə.

Resuslar: Dərslik, ağ kağız, rəngli kağız dəsti, qayçı, PVA yapışqanı üçün fırça, iş vərəqi, karton, bıçaq, kağız zolaqları, folqa.

DƏRSİN GEDİŞİ

`I Mərhələ: Motivasiya (cəlbetmə), problemin qoyuluşu. Şəkillər nümayiş etdirdikdən sonra müəllim sinifə müraciət Şəki xan sarayına aid video nümayişi etdirir və soruşur:











Şəkildə nələri görürsünüz? Hazır məmulatlar necə və hansı vasitələrlə birləş-dirilib? Gördüyünüz yaraşıqlı bina harada yerləşib? Bu cür birləşmələrə rast gəlmisiniz? Kağızdan fiqurları birləşdirici vasitələr olmadan hazırlamaq olar? Şagirdlərin cavablarını müəllim dinlədikdən sonra dərsin adın elan etməlidir.

II Mərhələ: Tədqiqatın aparılması

Müəllim sinifi qruplara ayırır. Şagidlərin sayına görə qrupların sayını müəyyənləşdirməlidir. Qruplarda zəif, orta və yaxşı oxuyanların sayı bərabər olmasını təşkil etməlidir. Eyni zamanda qrup üzvlərinin özlərinə lider seçmələrini tapşırır. Sonra müəllim dərslikdə olan mövzunu öyrənməyi tapşırır. Bu işin icrasına mövzunun həcminə uyğun vaxt verir.

Qrup halında öyrənilmiş yeni biliklərin mənimsənilməsi səviyyəsini sual-cavabla müəyyən etmək üçün onlara aşağıdakı sualları verir: **1. Heç bir birləşdirici vasitələr olmadan detalları birləşdirmək olar?** (olar; Şəki Xan sarayında, taxtadan hazırlanan qapı və pəncərə-lərdə). **2. Belə birləşmələr kağız və karton materiallarda da mümkündürmü?** (bəli mümkündür**). 3. Belə detallar hazırlayarkən əsasən nəyə fikir verməli?** (detalların simmetrikliyinə). **4. Yarıqlı kilid nədir?** (fiqurun formasından asılı olaraq açılmış yer). **5. Açılışda bütöv qalın xətt nəyi göstərir?** (konturun görünən hissisidir). **6. Müxtəlif quş fiqurları necə hazırlamaq olar?** (kəsim yerlərini dəyişməklə). Müəllim şagirdlərin dərslikdən öyrəndikləri nəzəri biliklərin səviyyəsini müəyyən etdikdən sonra, iş vərəqlərini qruplara paylamalıdır.

I qrup. Yarıqlı kilidi olan məmulatlar nədən hazırlana bilər?

II qrup. Yarıqlı kilidi olan məmulatlara necə forma vermək olar?

III qrup. Yarıqlı kilidi olan məmulatları hazırlayarkən hansı təhlükəsizlik qaydalarına əməl edilməlidir?

IVqrup. Dəslikdəki şəkillərdə gördüyünüz fiqurların adları və biləşmələri necədir?

Müəllim verilmiş tapşırıqların həcminə uyğun qruplara işin icrasına vaxt ayırır. Vaxt tamam olduqdan sonra onların təqdimatın təşkil edir.

III Mərhələ: Məlumat mübadiləsi

Bu mərhələdə hər bir qrup birgə fəaliyyətdə öyrəndikləri nəzəri bilikləri təqdim edirlər. Təqdimat üçün hər qrupdan bir nümayəndə gələrək həm yazılı və həm də şifahi olaraq işlərini təqdim edir. Müəllim qrupların təqdimatını yazılı vərəqlərdə qəbul edir. Qrupların bir-birinin cavablarına münasibət bildirməyi təşkil edir.

IV Mərhələ: Məlumatın müzakirəsi və təşkili

Müəllim suallarla müzakirəni təşkil edir. O, suallar verməklə müzakirəni təşkil etməklə onların müstəqil əldə etdikləri nailiyyətlərin səviyyələrini müəyyənləşdirir.O, qruplara aşağıdakı sualları verir: **1. Yarıqlı kilidi olan məmu-latlar nədən hazırlana bilər?** (kartondan və rəngli kağızlardan**). 2. Yarıqlı kilidi olan məmulatlara necə forma vermək olar?** (kilidli birləşməsi mümkün olan fiqurlar). **3. Yarıqlı kilidi olan məmulatları hazırlayarkən hansı təhlükəsizlik qaydalarına əməl edilməlidir?** (kəsici

alətlərlə işləyərkən). **4. Dərslikdəki şəkillərdə gördüyünüz fiqurların adları və birləşmələri necədir?** (ürək şəkilli, cücə, raket, zolaqlı quş fiquru və s.). **5. Gördüyünüz hansı məmulatlar bu cür birləşir?** (taxta pəncərə və qapılar bu üsulla birləşir). **6. Bu işlərin icrasında əsas nələr düzgün icra edilməlidir?** (ölçülər düzgün olmalıdır, simmetriklik güzlənilməlidir).

V Mərhələ: Nəticə və ümumiləşdirmə

Müəllim şagirdlərin cavablarını ümumiləşdirir və bəzi yarımçıq qalmış cavabları tamamlayır. Kilidli biləşmələrdən istifadə etməklə müxtəlif materialdan hazırlanan məmulatları müəllim onlara xatırladır. Eyni zamanda onlara bildirir ki, növbəti dərsdə nəzəri biliklərə əsaslanaraq məmulatlar hazırlayacaqsınız. Şagirdlər bilir ki, nəzəri bilik praktiki işin icrasında mühüm əhəmiyyətə malikdir.

VI Mərhələ: Yaradıcı tətbiqetmə

Müəllim şagirdlərə İKT-nin nailiyyətlərindən istifadə etməklə növbəti dərsə daha maraqlı formaları tapmağı tapşırır. Hər bir şagird internetdən zövqünə görə dizayn edilmiş bir məmulatı tapıb, təqdim etməlidir.

VII Mərhələ: Qiymətləndirmə

Qrupların fəaliyyətinin meyarlara əsaslanaraq qiymətləndirilməsinə müəllimin şagirdləri də cəlb etməsi çox maraqlıdır. Şagirdlər şüurlu olaraq özünün və yoldaşının əməyinin qiymətləndirməsi müasir dövrün ən mühüm tələblərindən biri olduğun dərk edə bilsin.

Meyar	I qrup	II qrup	III qrup	IV qrup
Tapşırığın tam və düzgün icrası				
İşi vaxtında icraetmə				
Əməkdaşlıq etmə				
Təqdimetmə				
Ümumi balların miqdarı				

Yekun balı hər bir üzvün zəhmətinə görə paylanmasını onların ixtiyarına vermək çox maraqlıdır.

Ev tapşırığı: Evdə gördüyü belə birləşmələr haqqında məlumat toplamaq.

Dərs 2. Mövzu: "Yarıqlı kilidi olan həcmli məmulatlar"(praktiki iş).

Standart: 1.1.1; 1.2.1.; 1.2.2.; 1.2.3.; 1.2.4;1.3.1.; 1.3.2.; 1.3.3.; 1.3.4.;1.3.5.; 1.3.6.

Məqsəd: Şagird: 1.Yarıqlı kilidi olan həcmli məmulatın hazırlanması texnologi-yasına aid iş prosesini mərhələlər üzrə izah edir. 2. Məmulata uyğun iş yerini təşkil edir. 3. Məmulata uyğun emal vasitələrini seçir. 4. Məmulatın fiqurunun hazrlanma ardıcıllığını müəyyənləşdirir. 5. Emal texnologiyalarını seçir. 6.Yarıqlı kilidi olan həcmli məmulatın detallarını hazırlayır. 7. Yarıqlı kilidin detallarını birləşdirməklə məmulatı hazırlayır. 8. Məmulatın hazırlanmasında sadə tərtibat bacarıqları nümayiş etdirir. 9. İşin qrup tərəfindən hazırlanmasında əməkdaşlıq edir. 10. İş prosesində təhlükəsizlik və gigiyena qaydalarına əməl edir. 11. Hazır məmulatı təqdim edir.

İnteqrasiya: A/d. 1.1.1.; İnf. 3.2.6.; H/b. 2.1.2.; 4.2.1. T.i: 4.1.2.;

Dərsin tipi: Yeni bilik verən dərs.

İş formaları: Kiçik qruplarla iş, böyük qruplarla iş, fərdi iş.


İş üsulları: Beyn həmləsi, müzakirə.


Resurslar: Dərslik, ağ kağız, rəngli kağız dəsti, qayçı, PVA yapışqanı üçün fırça, dərslik, iş vərəqi, karton, bıçaq, kağız zolaqları, folqa.

DƏRSİN GEDİŞİ

I Mərhələ: **Motivasiya (cəlbetmə), problemin qoyuluşu**. Şəkillər nümayiş edəndən sonra müəllim sinifə Şəki xan sarayına aid vidio nümayiş etdirir.







Şəkildə nələri görürsünüz? Hazır məmulatlar necə və hansı vasitələrlə birləş-dirilib? Gördüyünüz yaraşıqlı bina harada yerləşib? Bu cur birləşmələrə rast gəlmisiniz? Kağızdan fiqurları birləşdirici vasitələr olmadan hazırlamaq olar? Şagirdlərin cavablarını müəllim dinlədikdən sonra dərsin adını elan etməlidir.

II Mərhələ: Tədqiqatın aparılması

Müəllim sinifi qruplara ayırır. Şagidlərin sayına görə qrupların sayını müəyyənləşdirməlidir. Qruplarda zəif, orta və yaxşı oxuyanların sayı bərabər olmasını təşkil etməlidir. Eyni zamanda qrup üzvlərinin özlərinə lider seçmələrini tapşırır. Sonra müəllim dərslikdəki mövzunu öyrənməyi tapşırır. Bu işin icrasına mövzunun həcminə uyğun vaxt verir. Qrup halında öyrənilmiş yeni biliklərin mənimsənilməsi səviyyəsini sual-cavabla müəyyən etmək üçün onlara aşağıdakı sualları verir: **1. Dərslikdə hansı fiqurların hazırlasnması təklif olunub?** (ürəkşəkilli gül fiquru, cücə, dördbucaqlı fiqur, raket, zolaqlı kağızdan quş modeli**). 2. Şəkildə gördüyünüz necə birləşmədir?** (taxtadan kilidli birləşmədir).

3.Birləşdirici vasitə olmadan fiqular hansı üsulla hazırlanır? (yarıqlı kilidlərlə). **4. Fiqurlar bu üsulla hazırlananda əsasən nələrə diqqət vermək lazımdır?** (kəsilmədə simmetrikliyə). **5. Kağız zolaqlardan hansı fiqurlar hazırlanır?** (quş fiquru**). 6. Belə birləşmədə nələri nəzərə almaq lazımdır?** (qatlama, kəsmə yerlərini təyin etməklə). Müəllim şagirdlərin dərslikdən öyrəndikləri nəzəri biliklərin səviyyəsini müəyyən etdikdən sonra iş vərəqlərini qruplara paylamalıdır.

I qrup. Dərslikdə verilmiş ürək şəkilli fiqurun hazırlanması.

II qrup. Quş fiqurunun hazırlanması.

III qrup. Kartondan raket fiqurunun hazırlanması.

IV qrup. Cücə fiqurunun hazırlanması.

Müəllim verilmiş tapşırıqların həcminə uyğun qruplara işin icrasına vaxt ayırır. Vaxt tamam olduqdan sonra onların təqdimatını təşkil edir.

III Mərhələ: Məlumat mübadiləsi

Bu mərhələdə hər bir qrup birgəfəaliyyətdə hazırladıqları fiqurları təqdim edir. Təqdimat üçün hər qrupdan bir nümayəndə gələrək həm yazılı və

həm də şifahi olaraq işlərini təqdim edir. Hazırladıqları fiqurları nümayiş etdirir və digər qruploarın irad və təkliflərini səbrlə dinləməyi bacarmalıdır. Müəllim qrupların təqdimatını yazılı vərəqlərdə qəbul edir. Qrupların bir-birinin cavablarına münasibət bildirməyi təşkil etmək.

IV Mərhələ: Məlumatın müzakirəsi və təşkili

Müəllim suallarla müzakirəni təşkil edir. O, suallar verməklə müzakirəni təşkil etməklə onların müstəqil əldə etdikləri nailiyyətlərin səviyyələrini müəyyən-ləşdirir. O, qruplara aşağıdakı sualları verir**:** **1. Siz işləri icra edərkək ayrı- ayrı hissələri necə birləşdidiniz?** (heç bir vasitə olmadan, biləşdirdik deyəcəklər).

2. Belə birləşmə necə birləşmə adlanır? (kilidlı birləşdirmə). **3.Ürək şəkilli fiquru necə hazırladınız?** (ən əsası odur ki, fiqurun hissələri qarşı-qarşıya qoymaqla ölçülərin bərabliyi saxlanılsın). **4. Quş fiquru necə hazırlandıp?** (zolaqlı kağızı kəsməklə). **5. Kartondan raket fiqurun necə hazırladınız?** (kartondan yarıqlı kilidlə**). 6. Cücə fiqurun necə hazırladınız?** (şəkildə göründüyü kimi**). 6. İş zamanı hansı təhlükəsizlik**

qaqydalarına əməl edilməlidir? (kəsici alətlərlə və ya qayçı ilə iş zamanı).

V Mərhələ: Nəticə və ümumiləşdirmə

Müəllim şagirdlərin cavablarını ümumiləşdirir və bəzi yarımçıq qalmış cavabları tamamlayır. Müəllim onlara müxtəlif materialdan hazırlanan məmulatları bir daha xatırladır. Eyni zamanda onlara bildirir ki, növbəti dərsdə nəzəri biliklərə əsaslanaraq, dərslikdəki məmulatlardan hazırlayacaqsınız.

VI Mərhələ: Yaradıcı tətbiqetmə

Müəllim şagirdlərə İKT-nin nailiyyətlərindən istifadə etməklə növbəti dərsə daha maraqlı formaları tapmağı tapşırır. Hər bir şagird internetdən zövqünə görə dizayn edilmiş bir məmulatın tapıb, təqdim etməsini tapşırmalı.

VII. Mərhələ: Qiymətləndirmə. Qrupların fəaliyyətinin meyarlara əsaslanaraq qiymətləndirilməsinə müəllin şagirdləri də cəlb etməsi çox maraqlıdır. Şagirdlər şüurlu olaraq özünün və yoldaşının əməyinin qiymətləndirməsi müasir dövrün ən mühüm tələblərindən biri olduğun dərk edə bilsin.

Meyar	I qrup	II qrup	III qrup	IV qrup
Tapşırığın tam və düzgün icrası				
İşi vaxtında icraetmə				
Əməkdaşlıq etmə				
Təqdimetmə				
Ümumi balların miqdarı				

Yekun balı hər bir üzvün zəhmətinə görə paylanmasını onların ixtiyarına vermək çox maraqlıdır.

Ev tapşırığı: İstənilən bir fiquru yarıqlı, kilidli formaya salaraq birləşdirin.

Mövzu 28: DƏRİDƏN MƏMULATLARIN HAZIRLANMASI (2 saat).

Dərs zamanı kənd təsərrüfatı əməyinin bir növü olan heyvandarlıq və respublikamızda bu sahəyə olan qayğıdan danışmaq da mühüm əhəmiyyət kəsb edəcək. Heyvnanların insanların həyatındakı əhəmiyyətlərini izah etməli. Onların ətindən, südündən və dərisindən də istifadə edilməsi barədə məlumt verilməsi vacibdir. Bu dərsdə heyvan dərisindən məmulatların hazırlanması nəzərdə tutulmuşdur.Verilmiş 2 saatın səmərəli təşkili müəllimin ixtiyarındadır. Müəllim mövzunu yerli şəraitə uyğun təşkildə tədris etməklə müstəqildir. Əgər dəri yoxdursa, müəllim onu kağızla da əvəz edə bilər. Birinci dərsdə nəzəri biiklərin öyrənməsi və ikinci saatda isə praktiki işə yer verilsin.

Dərs 1. Mövzu: "Dəridən məmulatların hazırlanması" (nəzəri biliklər).

Standart: 1.1.1;1.2.1.; 1.2.2.; 1.2.3.; 1.2.4.;1.3.1.; 1.3.2.; 1.3.3.; 1.3.4.;1.3.5.; 1.3.6.

Məqsəd: Şagird: 1.Dəridən hazırlanacaq qolbağın emal texnologiyasına aid iş pro-sesinin mərhələlərini öyrənir. 2. Məmulatın hazırlanması

üçün iş yerini seçməyi öyrənir. 3.Dəri qolbağın hazırlanması üçün emal vasitəsini seçir. 4. Dəri qolbağın hazırlanması ardıcıllığını müəyyənləşdirir. 5. Dəri qolbağın hazırlanması üçün emal texnologiyasını seçməyi öyrənir. 6. Dəri qolbağın detallarının hazırlanması ilə tanış olur. 7. Detalları birləşdirmə ardıcıllığı ilə tanış olur. 8. Dəri qolbağın hazırlanmasında sadə tərtibat bacarığı nümayiş etdirməyi öyrənir. 9. Məmulatın hazırlanmasına aid nəzəriyyəyə aid cavabları qrup halında hazırlayır. 10. Məmulatın hazırlanmasında təhlükəsizlik qaydalarına əməl etməyi öyrənir. 11. Dəri qolbaq məmulatının hazırlanmasına aid nəzəri bilikləri təqdim etməyi öyrənir.

İnteqrasiya: A/d. 1.1.1.; İnf. 3.2.6.; H/b. 2.1.2.; 4.2.1. T.i: 4.1.2.;

Dərsin tipi: Yeni bilik verən dərs.

İş formaları: Kiçik qruplarla iş, böyük qruplarla iş, fərdi iş.

İş üsulları: Beyn həmləsi, müzakirə.

Resurslar: Dərslik, ağ kağız, rəngli kağız dəsti, qayçı, PVA yapışqanı üçün fırça, iş vərəqi, karton, bıçaq, kağız zolaqları, falqa.

DƏRSİN GEDİŞİ

I Mərhələ: Motivasiya (cəlbetmə), problemin qoyuluşu. Şəkilləri nümayiş edəndən sonra müəllim sinifə müraciət edərək, soruşur: Dəri deyəndə nə başa düşürsünüz? Hansı canlıların dərilərindən insanlar





istifadə edirlər?

Uşaqlar gördükləri heyvanlar haqqında öz fikirlərini dedikdən sonra, müəllim elan edir ki, bu günki mövzumuz, "Dəridən məmulatların hazırlanması" olacaq. 1-ci dərsdə nəzəri biliklər öyrəniləcək.

II Mərhələ: Tədqiqatın aparılması

Müəllim sinifi qruplara ayırır. Şagidlərin sayına görə qrupların sayını müəyyənləşdirməlidir. Qruplarda zəif, orta və yaxşı oxuyanların sayı bərabər olmasını təşkil etməli. Eyni zamanda qrup üzvlərinin

özlərinə lider seçmələrini tapşırır. Sonra müəllim dərslikdə mövzunu öyrənməyi tapşırır. Bu işin icrasına mövzunun həcminə uyğun vaxt verir. Qrup halında öyrənilmiş yeni biliklərin mənimsənilməsi səviyyəsini sual-cavabla müəyyən etmək üçün onlara aşağıdakı sualları verir: **1. Dəridən hazırlanmış hansı məmulatları tanıyırsınız?** (ayaqqabı, ködəkçə, papaq və s.) **2. Dərslikdəki şəkillərdə nəyi görürsünüz?** (açar briloq, əlcək, dəri qolbaq). **3. Hansı heyvanların dərilərindən insanlar məmulatlar hazırlayırlar?** (qoyunun, inəyin, camışın, keçinin və b**.). 4. Dəri necə materialldır?** (heyvan dərisi yumşaq, elastik materialdır). **5. Qədim zamanlarda dəridən nələr hazırlanıb?** (yazı yazmaq üçün perqament, qoşqu avadanlığı, pullar, sığınacaq yerləri, musiqi alətləri**). 6. Dəri ustalar hansı alətlərlə işləyirlər?** (dəftərxana bıçağı və deşikaçanla**). 7. Dəri dolağı hansı ardıcıllıqla hazırlanır?** (kartondan ülgü düzəltməklə bir dəridən 5 ədəd, digər rəngdən 4 dairə kəsməklə). **8. Dəri lentin ölçüləri nə qədərdir?** (uzunluğu 20 sm, eni 1sm). Müəllim şagirdlərin dərslikdən öyrənmə səviyyəsini müəyyən edəndən sonra iş vərəqlərini paylamaldır.

I qrup. Dəridən qolbaq hazırlanması üçün iş necə planlaşdırılır?

II qrup. Dəridən qolbaq hazırlanmaq üçün hissələr necə kəsilir?

III qrup. Dəri hissələr bir-birinə necə və hansı ardıcıllıqla birləşdirilir?

IV qrup. Dəridən qolbaq hazırladıqda hansı alətlərdən istifadə etmək və necə işləmək lazımdır?

Qruplara verilən vaxt tamam olduqdan sonra müəllim onların təqdimetəsin təşkil edir.

III Mərhələ: Məlumat mübadiləsi

Bu mərhələdə hər bir qrup birgə fəaliyyətdə öyrəndikləri nəzəri bilikləri təqdim edirlər. Təqdimat üçün hər qrupdan bir nümayəndə gələrək həm yazılı və həm də şifahi olaraq işlərini təqdim edir. Müəllim qrupların təqdimatını yazılı vərəqlərdə qəbul edir. Qrupların bir-birinin cavablarına münasibət bildirməyi təşkil edir.

IV Mərhələ: Məlumatın müzakirəsi və təşkili

Müəllim suallarla müzakirəni təşkil edir. O, suallar verməklə müzakirəni təşkil etməklə onların müstəqil əldə etdikləri nailiyyətlərin səviyyələrin müəyyənləşdirir.O, qruplara aşağıdakı sualları verir:

1. Dəri materialları hansı emal prosesindən keçir?

(dərilər təmizlənir, yuyulur). **2.Dəridən qolbaq hazırlanması üçün iş necə planlaşdırılır?** (kartondan ülgülər hazırlanır və onların köməyi ilə dəridən halqalar kəsilir**). 3. Bu məmulat sayca neçə ədəd nəzərdə tu-tulmuşdur?** (ilk 5 həlqə və sonrkı 4 həlqə olsa, yaraşıqlı görünər**). 4. Həlqələrin diametri və eni nə qədərdir?** (diametri d=2,5mm). **5. Lentin ölçüləri nə qədərdir?** (uzunluğu 20 sm və eni 1 sm**). 6. Lent nə üçündür?** (dairələri üzərində saxlamaq üçundür**). 7. Dəridən qolbaq hazırlanması üçün iş necə planlaşdırılır?** (dərslikdə göründüyü kimi). **8. Dəridən qolbaq hazırladıqda hansı alətlərdən istifadə etmək və necə işləmək lazımdır?** (iti bıçaqdan və deşikaçandan). **9. Dərslikdə hansı məmulatların hazırlanması tövsiyyə olunub?** (açar brelok, əlfəcin, qolbaq**). 10. Əlfəcin nədir?** (kitabın səhifələri arasına qoymaq üçün məmulat). **11. Hansı təhlükəsizlik qaydalartına əməl olunmalıdır?** (bıçaq və deşənlə ehtiyatlı olmalı).

V Mərhələ: Nəticə və ümumiləşdirmə

Müəllim şagirdlərin cavablarını ümumiləşdirir və bəzi yarımçıq qalmış cavabları tamamlayır. Heyvan dərilərindən istifadə etməklə müxtəlif məmulatları müəllim onlara xatırladır. . Eyni zamanda

onlara bildirir ki, növbəti dərsdə nəzəri biliklərə əsaslanaraq məmulatlar hazırlayacaqsınız. Şagirdlər bir daha bilir ki, nəzəri bilik praktiki işin icrasında mühüm əhəmiyyətə malikdir.

VI Mərhələ: Yaradıcı tətbiqetmə

Müəllim şagirdlərə İKT-nin nailiyyətlərindən istifadə etməklə növbəti dərsə daha maraqlı formaları tapmağı tapşırır. Hər bir şagird internetdən zövqünə görə dizayn edilmiş bir məmulatın tapıb, təqdim etməsini tapşırmalı.

VII Mərhələ: Qiymətləndirmə

Qrupların fəaliyyətinin meyarlara əsaslanaraq qiymətləndirilməsinə müəllin şagirdləri də cəlb etməsi çox maraqlıdır. Şagirdlər şüurlu olaraq özünün və yoldaşının əməyinin qiymətləndirməsi müasir dövrün ən mühüm tələblərindən biri olduğun dərk edə bilsin .

Meyar	I qrup	II qrup	III qrup	IV qrup
Tapşırığın tam və düzgün icrası				
İşi vaxtında icraetmə				
Əməkdaşlıq etmə				
Təqdimetmə				
Ümumi balların miqdarı				

Yekun balı hər bir üzvün zəhmətinə görə paylanmasını onların ixtiyarına vermək çox maraqlıdır.

Ev tapşırığı: Müxtəlif dəri materiallarından hazırlanan əşyaların istifadə sahələri haqqında araşdırma aparmaq.

Dərs 2. Mövzu: "Dəridən məmulatların hazırlanması" (praktiki iş).

Standart:1.1.1; 1.2.1.; 1.2.2.; 1.2.3.; 1.2.4.;1.3.1.; 1.3.2.; 1.3.3.; 1.3.4.;1.3.5.; 1.3.6.

Məqsəd: Şagird: 1. Dəridən hazırlanacaq qolbağın emal texnologiyasına aid iş prosesini mərhələlər üzrə izah edir. 2. Məmulatın hazırlanması üçün iş yerini seçir. 3. Dəri qolbağın hazırlanması üçün emal vasitəsini seçir. 4. Dəri qolbağın hazırlanması ardıcıllığını müəyyənləşdirir. 5.Dəri qolbağın hazırlanması üçün emal texnologiyasını seçir. 6.Dəri qolbağın detallarının hazırlanması ilə tanış olur.

7.Detalları birləşdirməklə dəri qolbağı hazırlayır. 8. Dəri qolbağın hazırlanmasında sadə tərtibat bacarığı nümayiş etdirməyi öyrənir. 9. Məmulatın

hazırlanmasınada birgə fəaliyyət göstərir. 10. Məmulatın hazırlanmasında təhlükəsizlik qaydalarına əməl etməyi öyrənir. 11. Dəri qolbaq məmulatın hazırlanmasına aid nəzəri bilikləri təqdim etməyi öyrənir.

İnteqrasiya: A/d. 1.1.1.; İnf. 3.2.6.; H/b. 2.1.2.; 4.2.1. T.i: 4.1.2.;

Dərsin tipi: Yeni bilik verən dərs.

İş formaları: Kiçik qruplarla iş, böyük qruplarla iş, fərdi iş.

İş üsulları: Beyn həmləsi, müzakirə.


Resurslar: Dərslik, ağ kağız, rəngli kağız dəsti, qayçı, PVA yapışqanı üçün fırça, iş vərəqi, karton, bıçaq, kağız zolaqları, falqa.

DƏRSİN GEDİŞİ

I Mərhələ: Motivasiya (cəlbetmə), problemin qoyuluşu

Şagirdlərin dəri məmulatlar haqqında nəzəri məlumatları var. Müəllim bu dərsdə dəridən hazırlanan məmulatlar haqqında əyani təsəvvürlər yaratmalıdır. Bunun üçün əlində olan imkanlarından istifadə edə bilər. Yəni şəkillər, videolar, İKT-nin nailiyyətlərindən və s. istifadə edə bilər.







Şəkildə gördükləri məmulatlar haqqında onların fikirlərini müəllim dinlədikdən sonra dərsin adını elan edir. Onlara bildirir ki, bunlardan hər hansı birini hazırlamaqda qruplar müstəqildir.

II Mərhələ: Tədqiqatın aparılması

Müəllim sinifi qruplara ayırır. Şagidlərin sayına görə qrupların sayını müəyyənləşdirməlidir. Qruplarda zəif, orta və yaxşı oxuyanların sayı bərabər olmasını təşkil etməlidir. Eyni zamanda qrup üzvlərinin özlərinə lider seçmələrini tapşırır. Sonra müəllim dərslikdə olan mövzunu öyrənməyi tapşırır.

Bu işin icrasına mövzunun həcminə uyğun vaxt verir. Müəllim qruplara əməli işin icrasında müstəqillik verir. Qruplar müstəqil olaraq dərslikdə verilmiş şəkillərdən birini hazırlaya bilər. Onlar öz aralarında məsləhətləşərək, seçimlərini edəcəklər. Müəllim isə onların seçimlərinə hörmətlə yanaşmalıdır. Qrup halında öyrənilmiş yeni biliklərin mənimsənilməsi səviyyəsini sual-cavabla müəyyən etmək üçün onlara aşağıdakı sualları verir: **1. Şəkillərdəki məmulatlar hansı materiallardan hazırlanmışdır?**(müxtəlif növ dərilərdən). **2. Qolbaq hansı ardıcıllıqla hazırlanır?** (karton ülgü ilə eyni rəngdə olandan beş dairə, digər rəngdə olan dəridən olan dörd dairə kəsilir). **3. Dairələri birləşdirmək üçün hansı vasitədən istifadə olunur?** (uzunluğu 20 sm, eni 1sm olan dəri lentdən**). 4. Hansı emal vasitələrindən istifadə olunu?** (bıçaq və deşikaçandan**). 5. İşlər nə üzərində icra olunur?** (xüsusi taxtalar üzərində). Müəllim qrupların nəzəri biliklərinin səviyyəsini müəyyən etdikdən sonra iş vərəqlərin paylamalıdır.

I qrup. Qırmızı və göy rəngli dəridən qolbaq hazırlayın.

II qrup. Yaşıl və qırmızı rəngli dəridən qolbaq hazırlayın.

III qrup. Mavi və ağ rəngli dəridən qolbaq hazırlayın.

IV qrup. Sarı və qəhvəyi rəngli dəridən qolbaq hazırlayın.

Qruplara verilən vaxt tamam olandan sonra müəllim onların təqdimatın təşkil edir.

III Mərhələ: Məlumat mübadiləsi

Bu mərhələdə hər bir qrup birgəfəaliyyətdə öyrəndikləri nəzəri biliklər əsasında hazırladıqları məmulatı təqdim edirlər. Təqdimat üçün hər qrupdan bir nümayəndə gələrək yazılı və praktiki hazırladıqlarını təqdim edir. Müəllim qrupların təqdimatını yazılı vərəqlərdə qəbul edir. Qrupların bir-birinin işlərinə və cavablarına münasibət bildirməyi müəllim təşkil etməlidir.

IV Mərhələ: Məlumatın müzakirəsi və təşkili

Müəllim suallarla müzakirəni təşkil edir. O, suallar verməklə müzakirəni təşkil etməklə onların müstəqil əldə etdikləri nailiyyətlərin səviyyələrin müəyyənləşdirir.O, qruplara aşağıdakı sualları verir: **1. Hazırladığınız məmulatlar hansı material-dandır?** (heyvan dərisindən) **2. İş zamanı hansı rəngdə olan dərilərdən istifadə etdiniz?** (qırmızı, göy, yaşıl, mavi, sarı və qəhvəyi rəngdə olan

dərilərdən və ya rəngli kağızlardan**). 3. Qolbağının ölçüləri təqribən necə olmalıdır?** (təqribən uzunu 20 sm, eni 1 sm və ya şəxsin biləginin ölçüsündə**). 4. İş nə üzərində və hansı alətlə icra olunur?** (taxta üzərində, iti biçaqla). **5. Lent qola necə bağlanır?** (bərkidici bəndlərin köməyi ilə). **6. Deşiklər lentə necə bərkidilir?** (hər bir dairənin deşikləri lentə keçirilməklə).

V Mərhələ: Nəticə və ümumiləşdirmə

Müəllim şagirdlərin cavablarını ümumiləşdirir və bəzi yarımçıq qalmış cavabları tamamlayır. Heyvan dərilərindən istifadə etməklə, hazırlanmış paltarlar haqqında əlavə məlumatlar verilməlidir.

VI Mərhələ: Yaradıcı tətbiqetmə

Müəllim şagirdlərə İKT-nin nailiyyətlərindən istifadə etməklə növbəti dərsə dəridən hazırlanmış məmulatlar haqqında məlumatlar tapmağı tapşırır. Hər bir şagird internetdən zövqünə görə dizayn edilmiş bir məmulatı tapıb, təqdim etməsini tapşırmalı.

VII Mərhələ: Qiymətləndirmə

Qrupların fəaliyyətinin meyarlara əsaslanaraq qiymətləndirilməsinə müəllin şagirdləri də cəlb etməsi çox maraqlıdır. Şagirdlər şüurlu olaraq özünüü

və yoldaşının əməyinin qiymətləndirməsi müasir dövrün ən mühüm tələblərindən biri olduğun dərk edə bilsin.

Meyar	I qrup	II qrup	III qrup	IV qrup
Tapşırığın tam və düzgün icrası				
İşi vaxtında icraetmə				
Əməkdaşlıq etmə				
Təqdimetmə				
Ümumi balların miqdarı				

Yekun balı hər bir üzvün zəhmətinə görə paylanmasını onların ixtiyarına vermək çox maraqlıdır.

Ev tapşırığı: Dəri materialından hər hansı əşyanın hazırlanması.

Mövzu 29: PLASTİK BUTULKADAN MƏMULATLAR (2 saat).

Tətbiq olunan materiallar haqqında məlumat verməklə müəllim şagirdlərdə əməyə və əmək adamlarına məhəbbət aşılayacaq. Plastik materiallar haqqında məlumat vermək üçün müəllim əlavə vəsaitlərdən istifdə etməyi bacarmalıdır. Hal-hazırda istənilən materialları internet vasitəsi ilə əldə etmək olar.

Plastik materiallar əsasən istifadə xüsusiyyətlərinə görə üç növə ayrılır:

1)Ümumi plastiklər; 2) Mühəndis plastiklər; 3)Xüsusi plastiklər. Ümumi plastiklər böyük istehsalata, geniş tətbiq, yaxşı formalaşma qabiliyyətinə malikdir və ucuz başa gəlir. Mühəndis plastiklər xarici təsirə davamlı, yaxşı mexaniki xassələrə, yüksək və ya aşağı temperatura davamlı olur. Bu materiallar elektrik, elektronika, avtomobil, tikinti, ofis avadanlığı, maşınqaqyırma, aerokosmik və digər işlərdə tətbiq olunur. Xüsusi plastiklər xüsusi funksiyaları olan sahələrdə, aviasiya, aerokosmik kimi xüsusi işlərdə istifadə olunur. Yaxşı olar ki, müəllim buna aid videolar nümayiş etdirsin. Müəllim mövzuya verilmiş 2 saatın birincisini nəzəri biliklərin

öyrənilməsinə və ikinci saatını isə praktiki işə ayıra bilər.

Dərs 1. Mövzu: "Plastik butulkadan məmulatlar" (nəzəri məlumatlar).

Standart: 1.2.1. ; 1.2.2. ; 1.2.3. ; 1.2.4. ;1.3.1. ; 1.3.2.; 1.3.3. ; 1.3.4. ;1.3.5. ; 1.3.6.

Məqsəd: Şagird: 1.Plastik butulkadan məmulatın hazırlanması üçün iş yerinin seçilməsini öyrənir. 2. Məmulatın hazırlanması üçün uyğun emal vasitələrini seçməyi öyrənir. 3.Plastik butulka pəstahının (hazır olmayan material) hazırlanması ardıcıllığını müəyyənləşdirir. 4. Plastik butulkadan məmulatın hazırlanması üçün uyğun emal texnologiysını seçməyi öyrənir. 5. Plastik butulkadan məmulatın detallarını kəsməyi öyrənir. 6. Detalları birləşdirərək məmulatın hazırlanmasına aid nəzəri biliklərə yiyələnir. 7. Məmulatın hazırlanmasında sadə tərtibat bacarağı nümayiş etdirməyi öyrənir. 8. İşi qrup halında, birgəfəaliyyət, əməkdaşlıq etməklə yerinə yetirməyi öyrənir.

9. Məmulatın hazırlanmasında təhlükəsizlik qaydalarına əməl etməyi öyrənir.

10. Məmulatın hazırlanmasına aid hazırladığı nəzəri məlumatları təqdim edir.

İnteqrasiya:A/d. 1.1.1.; İnf. 3.2.6.; H/b. 2.1.2.; 4.2.1. T.i: 4.1.2.;

Dərsin tipi: Yeni bilik verən dərs.

İş formaları: Kiçik qruplarla iş, böyük qruplarla iş, fərdi iş.

İş üsulları: Beyn həmləsi, müzakirə.

Resurslar: Dərslik, ağ kağız, rəngli kağız dəsti, qayçı, PVA yapışqanı üçün fırça, iş vərəqi, karton, bıçaq, kağız zolaqları, folqa

DƏRSİN GEDİŞİ

I Mərhələ: Motivasiya (cəlbetmə), problemin qoyuluşu. Şəkilləri nümayiş edəndən sonra müəllim sinfə müraciət edərək, soruşur: Şəkildə nələr görürsünüz? Şagirdlər plastmas butulkaları və tullantıları deyəcəklər. Müəllim onlara ümumi plastiklər, mühəndis plastikləri və xüsusi plastiklər haqqında məlumatlar verməlidir. Eyni zamanda Azərbaycanda bu materialları istehsal edən müəssisələr haqqında da məlumatı şifahi və ya video şəklində verməlidir. Sonra dərsin adını elan etməlidir.







Xammal Plastmas qablar Təkrar emala gedən tullantılar

Elan edir ki, bu gün siz plastik butulkadan müxtəlif məmulatların hazırlanmasına aid nəzəri biliklərə yiyələnəcəksiniz.

II Mərhələ: Tədqiqatın aparılması

Müəllim sinifi qruplara ayırır. Şagidlərin sayına görə qrupların sayını müəyyənləşdirməlidir. Qrup-

larda zəif, orta və yaxşı oxuyanların sayı bərabər olmasını təşkil etməli. Eyni zamanda qrup üzvlərinin özlərinə lider seçmələrini tapşırır. Sonra müəllim dərslikdə olan mövzunu öyrənməyi tapşırır. Bu işin icrasına mövzunun həcminə uyğun vaxt verir. Qrup halında öyrənilmiş yeni biliklərin mənimsənilməsi səviyyəsini sual-cavabla müəyyən etmək üçün onlara aşağıdakı sualları verir: **1. Su və digər maye içkilər əsasən hansı qablarda satılır?** (plastik butul-kalarda). **2. Plastik materialdan daha hanısı əşyalar hazırlamaq olar?** (onlar mövzuda gördükləri əşya-ların adlarını sayacaq). **3. Bu məmulatları hazır-lamaq üçün hansı kəsici alətdən istifadə edilir?** (Xüsusi bıçaq və məktəbli qayçısından). **4. Nə üçün məktəbli qayçısının ucu kütdür?** (uşaqların bir-birinə xətəri dəyməməsi üçün). **5. Plastik butulka kəsiləndə hansı qabların şəklini kitabda müşahidə etdiniz?** (qələm qoyulan, xırda kağız qoyulan, güllər və s). **6. Butulkanı kəsərkən bıçağı necə tutmaq tövsiyə olunur?** (bıçağı qələmi tutan kimi).**7. Nəzər-də tutulan fiquru almaq üçün neçə əməliyyat dərslikdə verilmişdir?** (iş 14 əməliyyatla başa çat-mışdır). **8. Hansı təhlükəsizlik qaydalarına əməl olunmalıdır?** (bıçaq və qayçı ilə işləyərkən).

Müəllim qrupların nəzəri biliklərinin səviyyəsini müəyyən edəndən sonra iş vərəqlərini paylamalıdır.

I qrup. Plastik butulkadan hansı bəzək əşyaları hazırlanır?

II qrup. Plastik butulka hansı ardıcılliqla kəsilir?

III qrup. İş zamanı hansı təhlükəsizlik qaydalarına əməl etmək lazımdır?

IV qrup. Plastik butulkadan zolaqları necə kəsmək olar?

Müəllim nəzəri biliklərin hazırlanmasına müəyyən vaxt verir və işin gedişinə müdaxilə etmədən nəzarət edir. Verilən vaxt tamamlandıqdan sonra qrupların təqdimatının təşkil etməlidir.

III Mərhələ: Məlumat mübadiləsi

Bu mərhələdə hər bir qrup birgəfəaliyyətdə öyrəndikləri nəzəri bilikləri təqdim edirlər. Təqdimat üçün hər qrupdan bir nümayəndə gələrək həm yazılı və həm də şifahi olaraq işlərini təqdim edir. Müəllim qrupların təqdimatını yazılı vərəqlərdə qəbul edir. Qrupların bir-birinin cavablarına münasibət bildirməyi təşkil etmək, mövzunun yaxşı mənimsənilməsinə kömək etmək.

IV Mərhələ: Məlumatın müzakirəsi və təşkili

Müəllim suallarla müzakirəni təşkil edir. O, suallar verməklə müzakirəni təşkil etməklə onların müstəqil əldə etdikləri nailiyyətlərin səviyyələrini müəyyənləşdirir. O, qruplara aşağıdakı sualları verir: **1. Plastik butulkadan hansı bəzək əşyaları hazırlanır?** (qələmqabı, kağızqabı, güllər və s.). **2. Plastik butulka hansı ardıcıllıqla kəsilir?** (dərslikdə göstərilən 14 ardıcəllıqla**).**

3. İş zamanı hansı emal vasitələrindən istifadə edilir? (bıçaq və qayçıdan).

4. İş zmanı hansı təhlükəsizlik qaydalarına əməl etmək lazımdır? (bıçaqdan istifadə edərkən onu qələm kimi tutmalı, qayçı ilə işdə ehtiyalı). **5. Plastik butulkadan zolaqları necə kəsmək olar?** (dəftərxana bıçağı və qayçı ilə zolağı topa tutub kəsməli). **6. Emal vasitələri iş zamanı necə olmalıdır?** (itilənmiş vəziyyətdə).

V Mərhələ: Nəticə və ümumiləşdirmə

Müəllim şagirdlərin cavablarını ümumiləşdirir və bəzi yarımçıq qalmış cavabları tamamlayır. Plastik materialların təkrar emal olunma imkanları haqqında məlumat verməlidir. Belə məlumatlar ətraf aləmin, yəni küçələrdə işlənmiş qabların toplanmasına səbəb olacaq. Eyni zamanda onlara bildirir ki, növbəti

dərsdə nəzəri biliklərə əsaslanaraq məmulatlar hazırlayacaqsınız.

VI Mərhələ: Yaradıcı tətbiqetmə

Müəllim şagirdlərə İKT-nin nailiyyətlərindən istifadə etməklə növbəti dərsə daha maraqlı formaları tapmağı tapşırır. Hər bir şagirdə internetdən zövqünə görə dizayn edilmiş bir məmulatı tapıb, təqdim etməsini tapşırmalı.

VII Mərhələ: Qiymətləndirmə

Qrupların fəaliyyətinin meyarlara əsaslanaraq qiymətləndirilməsinə müəllin şagirdləri də cəlb etməsi çox maraqlıdır. Şagirdlər şüurlu olaraq özünün və yoldaşının əməyinin qiymətləndirməsi müasir dövrün ən mühüm tələblərindən biri olduğun dərk edə bilsin.

Meyar	I qrup	II qrup	III qrup	IV qrup
Tapşırığın tam və düzgün icrası				
İşi vaxtında icraetmə				
Əməkdaşlıq etmə				
Təqdimetmə				
Ümumi balların miqdarı				

Yekun balı hər bir üzvün zəhmətinə görə paylanmasını onların ixtiyarına vermək çox maraqlıdır.

Ev tapşırığı: Plastik materiallardan hazırlanan əşyalar haqqında araşdırma aparmaq.

Dərs 2. Mövzu: "Plastik butulkadan məmulatlar" (praktiki iş).

Standart: 1.2.1. ; 1.2.2. ; 1.2.3. ; 1.2.4. ;1.3.1. ; 1.3.2.; 1.3.3. ; 1.3.4. ;1.3.5. ; 1.3.6.

Məqsəd: Şagird: 2.Plastik butulkadan məmulatın hazırlanması üçün iş yerini təşkil edir. 2. Məmulatın hazırlanması üçün uyğun emal vasitələrini seçir. 3.Plastik butulka pəstahının hazırlanması ardıcıllığını müəyyənləşdirir. 4. Plastik butulkadan məmulatın hazırlanması üçün uyğun emal texnologiysını seçir. 5. Plastik butulkadan məmulatın detallarını kəsir. 6. Detalları birləşdirərək məmulatı hazırlayır. 7. Məmulatın hazırlanmasında sadə tərtibat bacarağı nümayiş etdirir.

8. İşi qrup halında birgə fəaliyyət, əməkdaşlıq etməklə yerinə yetirir. 9. Məmulatın hazırlanmasında təhlükəsizlik qaydalarına əməl edir. 10. Daha sonra hazırladığı məmulatı təqdim edir.

İnteqrasiya: A/d. 1.1.1.; İnf. 3.2.6.; H/b. 2.1.2.; 4.2.1. T.i: 4.1.2.;

Dərsin tipi: Yeni bilik verən dərs.


İş formaları: Kiçik qruplarla iş, böyük qruplarla iş, fərdi iş.


İş üsulları: Beyn həmləsi, müzakirə.


Resurslar: Dərslik, ağ kağız, rəngli kağız dəsti, qayçı, PVA yapışqanı üçün fırça, iş vərəqi, karton, bıçaq, kağız zolaqları, folqa


DƏRSİN GEDİŞİ

I Mərhələ: Motivasiya (cəlbetmə), problemin qoyuluşu. Şəkilləri nümayiş edəndən sonra müəllim sinifə müraciət edərək, soruşur:




6
7
8


9
10







Yuxarıdakı şəkillərdəki məmulatların adlar nədir? Bu məmulatlar hansı materialdan hazırlanmışdır? Şagirdlərin cavablarını dinlədikdən sonra müəllim dərsin adını elan edir. Müəllim ekrandakı şəkilləri qruplara göstərərək, bildirir ki, fiqurların hazırlanmasında seçim sərbəstdir.

II Mərhələ: Tədqiqatın aparılması

Müəllim sinifi qruplara ayırır. Şagidlərin sayına görə qrupların sayını müəyyənləşdirməlidir. Qrup-

larda zəif, orta və yaxşı oxuyanların sayı bərabər olmasını təşkil etməli. Eyni zamanda qrup üzvlərinin özlərinə lider seçmələrini tapşırır. Sonra müəllim dərslikdə olan mövzunu öyrənməyi tapşırır. Bu işin icrasına mövzunun həcminə uyğun vaxt verir. Qrup halında öyrənilmiş yeni biliklərin mənimsənilməsi səviyyəsini sual-cavabla müəyyən etmək üçün onlara aşağıdakı sualları verir: **1. Su və digər maye içkilər əsasən hansı qablarda satılır?** (plastik butulkalarda). **2. Plastik materialdan daha hansı əşyalar hazırlamaq olar?** (onlar mövzuda gördükləri əşyaların adlarını sayacaq). **3. Bu məmulatları hazırlamaq üçün hansı kəsici alətlərdən istifadə edilir?** (xüsusi bıçaq və məktəbli qayçısından). **4. Nə üçün məktəbli qayçısının ucu kütdür?** (uşaqların birbirinə xətəri dəyməməsi üçün). **5. Plastik butulka kəsiləndə hansı qabların şəklini kitabda müşahidə etdiniz?** (qələm qoyulan, xırda kağız qoyulan, güllər və s). **6. Butulkanı kəsərkən bıçağı necə tutmaq tövsiyyə olunur?** (bıçağı qələmi tutan kimi).**7. Nəzərdə tutulan fiquru almaq üçün neçə əməliyyat dərslikdə verilmişdir?** (iş 14 əməliyyatla başa çatmışdır). **8. Hansı təhlükəsizlik qaydalarına əməl olunmalıdır?** (bıçaq və qayçı ilə işləyərkən).

Müəllim qrupların nəzəri biliklərinin səviyyəsini müəyyən edəndən sonra iş vərəqlərini paylamalıdır.

I qrup. Dərslikdə olan qələm qabını (1) hazırlamalıdır.

II qrup. Dərslikdə olan bəzəkli fiquru (2) hazırlamalıdır.

III qrup. Dərslikdə olan gül fiqurunu (3) hazırlamalıdır.

IV qrup. Dərslikdə olan kəsilmiş kağız qoyulanı hazırlamalıdır**.**

Müəllim işin icrasına verilən vaxtı müəyyən edir. Ayrılan vaxt tamam olduqdan sonra müəllim qrupları təqdimata dəvət etməlidir.

III Mərhələ: Məlumat mübadiləsi

Bu mərhələdə hər bir qrup birgəfəaliyyətdə öyrəndikləri nəzəri biliklərə əsaslanaraq, hazırladıqları məmulatları təqdim etməlidir. Təqdimat üçün hər qrupdan bir nümayəndə gələrək həm yazılı və həm də şifahi olaraq işlərini təqdim edir. Müəllim qrupların təqdimatını yazılı vərəqlərdə qəbul edir. Qrupların bir-birinin cavablarına münasibət bildirməyi təşkil etmək.

IV Mərhələ: Məlumatın müzakirəsi və təşkili

Müəllim suallarla müzakirəni təşkil edir. O, suallar verməklə müzakirəni, təşkil etməklə onların

müstəqil əldə etdikləri nailiyyətlərin səviyyələrini müəyyənləşdirir.O, qruplara aşağıdakı sualları verir:**1. Dərslikdə olan qələm qabını (1) necə hazırlamaq olar?** (plastik butulkanı iti bıçaqla kəsməklə**).**

2. Dərslikdə olan bəzəkli fiquru (2) necə hazırladınız? (dərslikdə verilmiş ardıcıllıqla**). 3. Gül fiqurunu necə hazırladınız?** (plastik butulkanın gövdəsinin hamar hissəsindən). **4. Dərslikdə olan kəsilmiş kağız qoyulanı necə hazırladınız?** (butulkanı 10-15 sm hündürlükdə kəsməklə). **5. Hansı təhlükəsizlik qaydalarına əməl etmək lazımdır?** (dəftərxana bıçağı və qayçı ilə işləyərkən barmaqları qorumaq lazımdır).

V Mərhələ: Nəticə və ümumiləşdirmə

Müəllim şagirdlərin cavablarını ümumiləşdirir və bəzi yarımçıq qalmış cavabları tamamlayır. Plastik materialların təkrar emal olunma imkanları haqqında məlumat verməlidir. Belə məlumatlar ətraf aləmin, yəni küçələrdə işlənmiş qabların toplanmasına səbəb olacaq.

VI Mərhələ: Yaradıcı tətbiqetmə

Müəllim şagirdlərə İKT-nin nailiyyətlərindən istifadə etməklə növbəti dərsə daha maraqlı formaları tapmağı tapşırır. Hər bir şagirdə internetdən zövqünə

görə dizayn edilmiş bir məmulatın tapıb, təqdim etməsini tapşırmalı.

VII Mərhələ: Qiymətləndirmə

Qrupların fəaliyyətinin meyarlara əsaslanaraq qiymətləndirilməsinə müəllin şagirdləri də cəlb etməsi çox maraqlıdır. Şagirdlər şüurlu olaraq özünün və yoldaşının əməyinin qiymətləndirməsi müasir dövrün ən mühüm tələblərindən biri olduğun dərk edə bilsin.

Meyar	I qrup	II qrup	III qrup	IV qrup
Tapşırığın tam və düzgün icrası				
İşi vaxtında icraetmə				
Əməkdaşlıq etmə				
Təqdimetmə				
Ümumi balların miqdarı				

Yekun balı hər bir üzvün zəhmətinə görə paylanmasını onların ixtiyarına vermək çox maraqlıdır.

Ev tapşırığı: Plastik butulkadan istənilən əşyanın hazırlanması.

İstifadə olunan ədəbiyyatlar

1. Ağayev, Ş.O. İbtidai siniflərdə şagirdlərə əməli işlərin təşkili texnologiyaları / – Bakı: Nasir, – 2011.
2. Ağayev, Ş.O, R.T.Hacızadə. Dərs: ənənə və müasirlik / – Bakı, – M.M-S müəssisəsi, – 2020.
3. Axundov, N.L. H.H. Əhmədov, Yəhyayeva S. Nuru qızı. Texnologiya: Ümumtəhsil məktəblərinin I sinifləri üçün dərslik / – Bakı: "Aspoliqraf LTD" MMC, – 2020.
4. Axundov, N.L. Əhmədov H.H, Yəhyayeva. S. Texnologiya: Ümumtəhsil məktəblərinin II sinifləri üçün dərslik / – Bakı: "Aspoliqraf LTD" MMC, – 2018.
5. Axundov, N.L. Əhmədov H.H, Yəhyayeva. S. Texnologiya: Ümumtəhsil məktəblərinin III sinfi. Müəllim üçün metodik vəsait / – Bakı: "Aspoliqraf LTD" MMC, – 2018.
6. Axundov, N.L Əhmədov H.H, Yəhyayeva. S. Texnologiya: Ümumtəhsil məktəblərinin IV sinflər üçün dərslik / – Bakı: "Aspoliqraf LTD" MMC, – 2019.
7. Axundov, N.L. Əhmədov H.H, Yəhyayeva. S. Texnologiya: Ümumtəhsil məktəblərinin IV sinfi. Müəllim üçün metodik vəsait / – Bakı: "Aspoliqraf LTD" MMC, – 2019.

8. Əhmədov, A, Şərifov T, Abbasov Ə. Şagird nailiyyətlərinin qiymətləndirilməsi // – Bakı: Kurikulum, – 2008. № 1,
9. Ümumtəhsil məktəbləri I-IV siniflər üçün fənn kurikulumu. – Bakı: Təhsil, – 2008.
10. Gərayev Ə.A, Bəhrəmova S. və b. Şagird nailiyyətlərinin qiymətləndirilməsi texnologiyaları / İ.A.Cavadov,– Bakı "Vahid-M" MMC, – 2017.

Xarici ədəbiyyatlar:

1. Lutseva E.A, Kurevina O.A. "Texnoloqiya", 2010.
2. Roqovseva N, Boqdanova N, Şipilova P, Anaşenkova S. "Texnologiya", 2014.
3. Simonenko, M. Ventana: "Texnologiya", 2006
4.Т.Н.Просиякова. Технология. Творческая мастерская. Учебник для 4 класса. Издательство «Учебная литература», 2009.
5. Т. Геронимус, Маленький мастер. Учевник по трудовому обучению – 4 класс. Москва, «Аст-Пресс школа», 2007.

MÜNDƏRİCAT

Giriş 2
Texnologiyalar və texnoloji vasitələr 17
Mövzu 1: texnologiyalarin inkişafi. 17
Dərs 2. Mövzu: "texnologiyaların inkişafı" 25
Dərs 1. "istehsalat müəssisələri və istehsal" 31
Dərs 2. Mövzu: "istehsalat müəssisələri və istehsal" 37
Dərs 1. Mövzu: "emal texnologiyaları və vasitələri" (əl alətləri) 44
Dərs 2. Mövzu "emal texnologiyaları və vasitələri" (elektrik enerjisi ilə işləyən) 50
Mövzu: "texnoloji vasitələrin və maşınların təsnifatı. Məişət texnikası" 57
Mövzu 5: robot texnikası. (1saat) 64
məişət mədəniyyəti 70
Dərs 1. Mövzu: "özümüzə xidmət edək" 70
Dərs 2. Mövzu: "sağlamlığımızı və ətraf mühiti qoruyaq" 75
Dərs 1. Mövzu: " yemək süfrələri və onların tərtibatı" 82
Dərs 2. Mövzu: "yemək süfrələri və onların tərtibatı" 88
Mövzu 8: qonaq və bayram süfrələri (2 saat) 95
Dərs 1. Mövzu "qonaq süfrələri" 95
Dərs 2. Mövzu "bayram süfrəsi" 101
Dərs 1. Mövzu: "yemək masası ətrafında davranış qaydaları" 107

Dərs 2. Mövzu: "yemək masası ətrafında davranış qaydaları" 114
Kağız və kartonun emalı 122
Dərs 1. Mövzu: "cildlənmiş məmulatlar. Nazik dəftər." (nəzəri hissəsi) 122
Dərs 2. Mövzu "cilidlənmiş məmulatlar. Nazik dəftər." (praktiki iş) 127
Dərs 1. Mövzu: "bədii işlər üçün çərçivə (kağızdan hazırlanan)" 134
Dərs 2. Mövzu: "bədii işlər üçün çərçivə (kartondan hazırlanan)" 139
Dərs 1. Mövzu: "kartondan karandaşqabının hazırlanması" 145
Dərs 2. Mövzu: "kartondan karandaşqabının hazırlanması" 152
Dərs 1. Mövzu: "xırdavat üçün mücrü" 157
Dərs 2. Mövzu: "xırdavat üçün mücrü" 162
kağızqatlama və naxişkəsmə 168
Dərs 1. Mövzu: "kağızqatlama sxemləri. Kəpənək." (nəzəri hissə) 168
Dərs 2. Mövzu: "kağızqatlama sxemləri. Kəpənək." (praktiki işin icrası) 173
Dərs 1. Mövzu: "kağızdan baş geyimləri (nəzəri məlumatların öyrənilməsi) 179
Dərs 2. Mövzu: "kağızdan baş geyimləri" (praktiki işin icrası) 184
Mövzu 16: ornamentlər (2 saat) 189
yapma 201

Dərs 1. Mövzu: "çoxqatlı cızma" (nəzəri biliklərin öyrənilməsi) 201
Dərs 2. Mövzu: "çoxqatlı cızma" (praktiki işin icrası) 207
Dərs 1. Mövzu: "dərinləşdirilmiş relyef" (nəzəri biliklərin öyrənilməsi) 213
ərs 2. Mövzu: "dərinləşdirilmiş relyef" (praktiki işin icrası) 219
dərs 1. Mövzu: "plastilin lentdən hazırlanmış kompozisiya" (nəzəri biliklərin öyrənilməsi) . 225
Dərs 2. Mövzu: "plastilin lentdən hazırlanmış kompozisiya (praktiki işin icrası)" 231
Dərs 1. Mövzu: "qabların dizaynı" (nəzəri hazırlıq) 238
Dərs 2. Mövzu: "qabların dizaynı" (praktiki işin icrası) 245
Tikmə və naxışlama..... 253
Dərs 1. Mövzu: "çarpaz tikmə" (nəzəri hazırlıq)253
Dərs 2. Mövzu: "çarpaz tikmə" (praktiki iş).... 260
Dərs 1. Mövzu: "ilgək tikişi" (nəzəri biliklərin öyrənilməsi)..... 267
Dərs 2. Mövzu: " ilgək tikişi" (praktiki iş)..... 274
Dərs 1. Mövzu: "dəm çayniki üçün istiliyi qoruyan gəlincik. Əlcək-gəlincik" (nəzəri biliklərin öyrənilməsi) 280
Dərs 2. Mövzu: "dəm çayniki üçün istiliyi qoruyan gəlincik. Əlcək gəlincik" (praktiki iş)288
Dərs 1. Mövzu "qablaşdırmanın bağlanması" (nəzəri tapşırıqların icrası) 294

Dərs 2. Mövzu: "qablaşdırmanın bağlanması" (praktik iş)..... 300
Dərs: "bədii quraşdırma. Dizayn"..... 307
Dərs 1. Mövzu: "papye-maşedən hazırlanmış məmulatlar" (nəzəri məlumatlar). 316
Dərs 2. Mövzu: "papye-maşedən hazırlanmış məmulatlar" (praktiki iş) 323
Mövzu 27: yariqli kilidi olan həcmli məmulatlar (2saat)..... 329
Dərs 1. Mövzu: "yarıqlı kilidi olan həcmli məmulatlar" (nəzəri məlumatlar). 329
Dərs 2. Mövzu: "yarıqlı kilidi olan həcmli məmulatlar"(praktiki iş). 337
Dərs 1. Mövzu: "dəridən məmulatların hazırlanması" (nəzəri biliklər). 344
Dərs 2. Mövzu: "dəridən məmulatların hazırlanması" (praktiki iş). 351
Mövzu 29: plastik butulkadan məmulatlar (2 saat). 358
Dərs 1. Mövzu: "plastik butulkadan məmulatlar" (nəzəri məlumatlar). 359
Dərs 2. Mövzu: "plastik butulkadan məmulatlar" (praktiki iş). 366

TEXNOLOGİYA DƏRSLƏRİNDƏ DİDAKTİK MATERİALLARDAN İSTİFADƏ

(IV SİNİF)

(metodik vəsait)

İMZA
NƏŞRLƏR EVİ

Direktor: **Səbuhi Aslan**
Dizayner: **Nigar Sadıqova**
Texniki redaktor: **Hüseyn Məmmədov**

Çapa imzalanmışdır: 25.06.2026
Ofset çapı. Əla növ kağız
Tiraj: 300
Ünvan: Bakı, Mətbuat prospekti 529-cu məhəllə
Telefon: (012) 538-18-87, (050) 263-16-16
email: imza_nesrler_evi@mail.ru